# XXI əsrin üz qaralığı: Fransa müstəmləkəçiliyi



**Azərbaycanın İkinci Qarabağ müharibəsindəki parlaq qələbəsi xarici siyasət sahəsində bizim qarşımızda yeni üfüqlər açdı. Əgər əvvəlki dövrdə ölkəmizin xarici siyasətinin əsas istiqaməti Ermənistan–Azərbaycan münaqişəsinin həlli idisə, 2020-ci ildə ərazi bütövlüyümüz, 2023-cü ildə isə dövlət suverenliyimiz bərpa edildiyi üçün bu məsələ təbii olaraq gündəlikdən çıxıb.**

Hazırda rəsmi Bakının xarici siyasətində yeni istiqamətlər üstünlük təşkil edir.

Bu gün Azərbaycan dünyanı narahat edən problemlərin həllində, o cümlədən, iqlim dəyişikliyi ilə mübarizədə daha fəaldır.

Nəzərə almaq lazımdır ki, paytaxtımız 2024-cü il noyabrın 11–22-də iqlim dəyişikliyi ilə mübarizə sahəsində əsas beynəlxalq tədbirə – BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etdi.

*(ardı 12-ci səhifədə)*


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 05 (30699) 11 yanvar 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## Azərbaycanın yolları dünyaya qovuşub



Səhifə ⇨ 10

## İnflyasiya bu il də ən aşağı həddə olacaq



Səhifə ⇨ 10

## Tramp ailəcanlı prezidentdir



Səhifə ⇨ 15

## Los-Anceles alov içində





Səhifə ⇨ 15

# Azərbaycan Şərqlə də, Qərblə də müstəqil siyasəti uğurla davam etdirir

## *Prezident İlham Əliyev Küveyt səfirinin etimadnaməsini qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 10-da Küveyt Dövlətinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Feysal əl-Mutairinin etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında çox fəal siyasi əlaqələrin genişləndiyini vurğulayaraq, Küveytə rəsmi səfərini məmnunluqla xatırladı. Prezident İlham Əliyev Azərbaycan–Küveyt qardaşlıq münasibətlərinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini bildirdi və bunun üçün yaxşı imkanların olduğunu dedi.

Prezident İlham Əliyev Küveytin yüksək səviyyədə nümayəndə heyəti ilə COP29-da təmsil olunmasını və bu tədbir çərçivəsində Küveyt Dövlətinin Vəliəhdi Şeyx Sabah Xalid əl-Həməd əl-Sabah ilə görüşünü məmnunluqla xatırladı.

Dövlətimizin başçısı səfirə fəaliyyətində uğurlar arzuladı.

Xoş sözlərə görə minnətdarlığını ifadə edən səfir Azərbaycan Prezidentinin qəbulunda olmaqdan böyük fəxr hissi keçirdiyini bildirərək, Küveyt Dövlətinin Əmiri Şeyx Məşəl əl-Əhməd əl-Cabir əs-Sabahın və Küveyt Dövlətinin Vəliəhdi Şeyx Sabah Xalid əl-Həməd əl-Sabahın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Küveyt Dövlətinin Əmirinə və Vəliəhdinə çatdırmağı xahiş etdi.

Səfir təyyarə qəzası nəticəsində həlak olanlarla bağlı bir daha Küveyt Əmirinin başsağlığını çatdıraraq, yaralananların tezliklə şəfa tapmasını arzuladı.

O, COP29-un yüksək səviyyədə təşkilinə və əldə olunmuş nailiyyətlərə görə Azərbaycana və dövlətimizin başçısına təbriklərini çatdırdı.

Söhbət zamanı siyasi münasibətlərimizin çox yaxşı səviyyədə olması, iqtisadi, ticarət və sərmayə sahələrində əlaqələrin inkişafı, hökumətlərarası komissiyanın iclasının keçirilməsi və iki ölkənin xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin aparılması məmnunluqla vurğulandı.

Azərbaycan ilə Küveytin beynəlxalq təşkilatlar çərçivəsində yaxından əməkdaşlığına toxunuldu, ölkələrimizin daim bir-birini dəstəklədiyi bildirilərək, bu xüsusda BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, OPEC+ formatında əməkdaşlıq qeyd olundu. Eyni zamanda, Azərbaycanın Ərəb Dövlətləri Liqası və Körfəz Əməkdaşlıq Şurası ilə də əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiyi bildirildi.

Görüşdə son dövrlərdə qarşılıqlı turizmin və insanlararası təmasların daha da genişlənməsi məmnunluqla qeyd olundu.

***AZƏRTAC***

# Azərbaycan–ABŞ: əlaqələr strateji yön alır

## *Dövlətlərarası münasibətlərin yeni dönəmi hər iki tərəfin maraqlarına xidmət edir*



**Demokrat Co Bayden administrasiyasının Ağ Evdəki dairəvi kabineti tərk etməsinə 9 gün qalır. Yanvarın 20-də andiçmə mərasimi keçiriləcək respublikaçı Donald Tramp özünün yeni komandasını formalaşdırmağa vaxtından əvvəl başlayıb.**

Aydın məsələdir ki, yeni prezident Dövlət Departamentinin yeni katibi ilə işləyəcək. Bizim gözləntilərimiz ondan ibarətdir ki, Tramp Administrasiyası Cənubi Qafqazla, o cümlədən, Azərbaycanla əməkdaşlıq məsələlərinə Bayden komandasından fərqli yanaşacaq. Əslində, Azərbaycan bir sıra sahələr üzrə ABŞ ilə əməkdaşlıq edir. Bu sıraya, ilk növbədə, neft-qaz yataqlarının birgə istismarı, təhlükəsizlik kimi məsələlər daxildir. Belə düşünməyə əsas var ki, yeni administrasiya bu sahələr üzrə Azərbaycanla daha geniş dialoq imkanlarını nəzərdən keçirəcək. Bunu açıq deməliyik ki, ölkəmiz prezidentlik müddəti və çox güman ki, siyasi karyerası başa çatmaqda olan Co Bayden administrasiyasından pislikdən başqa bir şey görmədi. Onun istər Azərbaycanla Ermənistan arasında sülhə vasitəçilik missiyası, istərsə də iki ölkə arasında münasibətlərin normallaşması istiqamətində vasitəçilik cəhdləri ədalətdən və səmimiyyətdən uzaq idi...

*(ardı 4-cü səhifədə)*

# Makrona öz komandası da etiraz edir




Səhifə ⇨ 4

# Prezident İlham Əliyev Litva səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 10-da Litva Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kestutis Vaşkeleviçusun etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı 2022-ci ildə Litva Prezidentinin ölkəmizə, 2023-cü ildə isə özünün Litvaya rəsmi səfərlərini, ötən ilin sonunda Gitanas Nauseda ilə telefon danışığını, həmçinin bundan əvvəlki dövrlərdə Litvanın dövlət başçıları ilə təmaslarını məmnunluqla xatırladı, bunların ikitərəfli münasibətlərin inkişafında vacib rol oynadığını qeyd etdi.

Səfirə Azərbaycanda fəaliyyətində uğurlar arzulayan Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, onun səfirliyi dövründə əlaqələrimiz daha da genişlənəcək, əməkdaşlığımızın möhkəmlənməsi üçün yeni imkanlar müəyyənləşdiriləcək.

Xoş sözlərə görə minnətdarlığını bildirən Kestutis Vaşkeleviçus Litva Respublikasının Prezidenti Gitanas Nausedanın səmimi salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Prezident Gitanas Nausedaya çatdırmağı xahiş etdi.

Səfir qeyd etdi ki, Litva Prezidenti onunla söhbəti zamanı Azərbaycanın oynadığı rolun önəmini vurğulayıb, ölkəmizlə əlaqələrin daha da möhkəmlənməsi istəyində olduğunu deyib, eyni zamanda, təyyarə qəzası ilə bağlı başsağlığı ifadə edib. Kestutis Vaşkeleviçus vurğuladı ki, Azərbaycan bu qəza zamanı xeyli sayda insanın həyatını xilas edən övladları ilə haqlı olaraq fəxr etməyə layiqdir.

Əlaqələrimizin tarixində ölkələrimizin və xalqlarımızın bir-birinin müstəqilliyini, azadlığını dəstəkləməsinin əhəmiyyətini qeyd edən səfir bunun rəmzi məna daşıdığını dedi. O, Azərbaycanın və Litvanın XX əsrin sonlarında müstəqil olmasından sonra ikitərəfli münasibətlərimizdə böyük inkişafa nail olunduğunu vurğuladı. Səfir qeyd etdi ki, Litva Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin genişlənməsinə dəstək verməyə hər zaman hazırdır.

O, Azərbaycanın Ukraynaya göstərdiyi humanitar dəstəyi yüksək qiymətləndirdiklərini dedi, Litvanın Cənubi Qafqazda davamlı sülhü və inkişafı dəstəklədiyini vurğuladı.

Bu il ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd edildiyini deyən Kestutis Vaşkeleviçus səfirlik fəaliyyəti dövründə münasibətlərimizin tarixində nümayiş etdirilmiş dostluq və həmrəylik ruhunda çalışacağını bildirdi.

Söhbət zamanı iqtisadiyyat, kənd təsərrüfatı və bərpaolunan enerji sahələrində əməkdaşlıq məsələləri də müzakirə edildi.

*AZƏRTAC*

# "Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar Agentliyinin vəsaitindən istifadə Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 iyun tarixli 742 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar Agentliyinin vəsaitindən istifadə Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 iyun tarixli 742 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1034 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adında və 1-ci hissədə "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində İnnovasiya və Rəqəmsal İnkişaf" sözləri ilə əvəz edilsin.

**2.** 5-ci hissədə "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

**3.** Həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar Agentliyinin vəsaitindən istifadə Qaydası" yeni redaksiyada verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 yanvar 2025-ci il**

# S.R.Şərifovun Azərbaycan Respublikası Baş nazirinin müavini təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Samir Rauf oğlu Şərifov Azərbaycan Respublikası Baş nazirinin müavini təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 yanvar 2025-ci il**

# S.R.Şərifovun Azərbaycan Respublikasının maliyyə naziri vəzifəsindən azad edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Samir Rauf oğlu Şərifov Azərbaycan Respublikasının maliyyə naziri vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 yanvar 2025-ci il**

# "Milli Məkan Məlumatları" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Milli Məkan Məlumatları" informasiya sistemi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq, "Milli Məkan Məlumatları" informasiya sisteminin (bundan sonra - Sistem) "Hökumət buludu"nda yerləşdirilməsini təmin etsin.

**3.** Bu Fərmanın 1-ci hissəsi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**5.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 dekabr tarixli 448 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2605 (Cild I); 2024, № 6 (I kitab), maddə 654) ilə təsdiq edilmiş "Milli məkan məlumatlarının formalaşdırılması və inteqrasiyası Qaydaları"nın 3.8-ci, 3.9-cu bəndləri və 6-cı hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 yanvar 2025-ci il**

# Azərbaycan Respublikasının Prezidenti Zati–aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Kraliça Matilde ilə birlikdə Sizə və Azərbaycan xalqına Aktau şəhəri yaxınlığında baş vermiş təyyarə qəzası nəticəsində faciəvi şəkildə həyatını itirənlərə görə dərin hüznlə başsağlığı veririk.

Bu ağır itki anlarında həlak olanların yaxınlarına güc və səbir arzulayır, onlarla birlikdə ən dərin hüznümüzü bölüşürük.

***FİLİP,***
***Belçikalıların Kralı***

*

**Zati-aliləri!**

Azərbaycanın sərnişin təyyarəsinin qəzaya uğraması və nəticədə insanların həlak olmaları ilə bağlı xəbəri dərin kədər hissi ilə qarşıladım.

Qırğız Respublikasının xalqı adından və şəxsən öz adımdan həlak olanların ailələrinə və doğmalarına başsağlığı verir, xəsarət alanların tezliklə sağalmalarını arzu edirəm.

**Dərin hüznlə,**

***Sadır JAPAROV,***
***Qırğız Respublikasının Prezidenti***

*

**Zati-aliləri!**

"Azərbaycan Hava Yolları" şirkətinə məxsus təyyarənin 2024-cü il dekabrın 25-də Bakıdan Qroznıya uçan zaman faciəvi şəkildə qəzaya uğraması və bu hadisə zamanı 38 nəfərin həlak olması, çox lu sayda insanın yaralanması barədə xəbər məni dərindən kədərləndirdi.

Seyşel Adaları Respublikasının hökuməti və xalqı adından, şəxsən öz adımdan Azərbaycan xalqına, o cümlədən faciə nəticəsində həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verirəm, bu kədərli günlərdə həmrəyliyimi bildirirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Vavel RAMKALAVAN,***
***Seyşel Adaları Respublikasının Prezidenti***

*

**Zati-aliləri!**

"Azərbaycan Hava Yolları" şirkətinə məxsus təyyarənin faciəvi şəkildə qəzaya uğraması nəticəsində çox sayda insanın həyatını itirməsi barədə xəbər bizi olduqca kədərləndirdi.

İqtisadi Əməkdaşlıq Təşkilatı adından Zati-alinizə, həlak olanların ailələrinə və bütövlükdə Azərbaycan xalqına dərin hüznlə başsağlığı veririk.

İqtisadi Əməkdaşlıq Təşkilatı bu kədərli vaxtda Azərbaycan Hökuməti və xalqı ilə həmrəyliyini ifadə edir.

Zati-aliləri, ən yüksək ehtiramımızı qəbul etməyinizi xahiş edirik.

***Əsəd Məcid XAN,***
***İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi***

# "Rəqəmsal ekologiya" informasiya sisteminin yaradılması və bununla əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Rəqəmsal ekologiya" informasiya sistemi yaradılsın.

**2.** "Rəqəmsal ekologiya" informasiya sistemi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

**3.** Müəyyən edilsin ki:

3.1. "Rəqəmsal ekologiya" informasiya sistemi (bundan sonra – REİS) Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (bundan sonra – Nazirlik) fəaliyyət istiqamətləri üzrə rəqəmsal texnologiyalardan, o cümlədən informasiya-kommunikasiya texnologiyalarından istifadə yolu ilə Nazirliyin fəaliyyətinin, habelə digər fiziki və hüquqi şəxslərlə əlaqələrinin operativliyini, səmərəliliyini, şəffaflığını, eləcə də göstərilən xidmətlərin əlçatanlığını təmin edir;

3.2. REİS-in sahibi funksiyalarını Nazirlik, operatoru funksiyalarını isə Nazirliyin tabeliyindəki "Geodeziya və Kartoqrafiya Agentliyi" publik hüquqi şəxs həyata keçirir.

**4.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi:

4.1. Nazirliklə birlikdə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq REİS-in "Hökumət buludu"na keçidinin təşkili, aparılması və təkmilləşdirilməsi ilə bağlı tədbirlər görsün;

4.2. Nazirliklə birlikdə REİS-də formalaşan açıq məlumatların "Açıq məlumatlar" portalında yerləşdirilməsini təmin etsin.

**5.** Nazirlik:

5.1. REİS-in formalaşdırılması və aparılması, həmçinin fəaliyyətinin təşkili, saxlanılması, ondan səmərəli istifadənin təmin edilməsi və inkişaf etdirilməsi üçün zəruri tədbirlər görsün;

5.2. REİS-in fəaliyyəti zamanı Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin kosmik peyk vasitəsilə təqdim etdiyi "Yerin məsafədən müşahidəsi xidmətləri"ndən ətraf mühitin mühafizəsində, ətraf mühit təsvirlərinin və məlumatlarının əldə olunmasında istifadəni təmin etsin;

5.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**6.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti bu Fərmanın 2-ci hissəsi nəzərə alınmaqla, "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

**7.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi REİS-in formalaşdırılması, aparılması və saxlanılması xərclərinin Nazirliyin sərəncamında olan məqsədli büdcə fondları vasitəsilə maliyyələşdirilməsi ilə bağlı zəruri tədbirlər görsün.

**8.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 yanvar 2025-ci il**

# Kənd təsərrüfatı naziri Beyləqanda qəbul keçirib



**Dünən Kənd Təsərrüfatı naziri Məcnun Məmmədov Beyləqan Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında Beyləqan, Füzuli, Xocalı, Cəbrayıl və digər rayonlardan olan vətəndaşları qəbul edib.**

Qurumun idarə və tabeli qurumlarının rəhbər şəxslərinin iştirakı ilə keçirilən qəbulda vətəndaşların müraciətləri əsasən işlə təminat, güzəştli şərtlərlə kənd təsərrüfatı kreditlərinin verilməsi, subsidiya ödənilməsi, dəymiş zərərə görə ödənişlər, torpaq sahəsinin ayrılması və sənədləşdirilməsinə köməklik göstərilməsi və digər məsələlərlə bağlı olub. Vətəndaşların müraciətlərinin bir qismi yerində həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb.

Beyləqan DAİM-in binasında Aqrar Xidmətlər Agentliyinin Səyyar Xidmət Qrupu mexanizatorlar üçün səyyar xidmət təşkil edib. M.Məmmədov səyyar xidmətin təşkili prosesi ilə maraqlanıb, mexanizatorların müraciətlərini dinləyib, lazımi tövsiyələrini verib.

**XQ**

# Yeni dünya nizamı və Cənubi Qafqaz

## *Azərbaycan liderinin müstəqillik, güc və ədalət formulu*



**“Dünya heç vaxt belə qalmayacaq, dünyada hər şey dəyişir. XX əsrin sonu, XXI əsrin ilk illəri bunu sübut edir və göstərir ki, dünyada çox böyük dəyişikliklər gedir. Bəli, heç bir şey bir yerdə durmur. Heç bir şey olduğu kimi qalmır. Mən inanıram, tam inanıram ki, bizim bölgədə hər şey ədalət naminə dəyişəcəkdir. Azərbaycan xalqının bu əzab-əziyyətinə görə onun xeyrinə dəyişəcəkdir”.**

Prezident İlham Əliyevin yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində səsləndirdiyi fikirlərə diqqət yetirəndə, ulu öndər Heydər Əliyevin illər əvvəlki bu iqtibası yada düşür. Ümummilli liderin uzaqgörənliyi heyrətamizdir. Bir daha belə qənaət qətiləşir ki, bu böyük şəxsiyyət Azərbaycana rəhbərlik etdiyi illərdə ölkəmizi məhz qlobal dəyişikliklərə hazırlamışdı. Əlbəttə, onun müstəsna xidməti prosesə adekvat reaksiyanı formalaşdıracaq lideri yetişdirməsi idi. Tam əminliklə deyə bilərik ki, Prezident İlham Əliyev bütün varlığı ilə adekvat reaksiyanın özüdür. İlham Əliyevin ən başlıca xüsusiyyəti isə dəyişikliklər fonunda Cənubi Qafqaz siyasi akvatoriyasını ayrıca güc mərkəzinə çevirməsidir.

Ulu öndər Heydər Əliyevin təbirincə desək, bu gün Azərbaycan xalqının çəkdiyi əzab-əziyyətlər onun xeyrinə dəyişir. Xalqımız zülm və iztirablarının mükafatını almaqdadır və daha çox alacaq. Buna Prezident İlham Əliyevin müsahibəsində səsləndirdiyi fikirlər də əminlik yaradır. Dövlətimizin başçısı dünyaya qətiyyətli Azərbaycan obrazını aşılayır. Bu obraz proseslərə münasibətdə bütövdür, ardıcıldır, rasional və proqmatikdir. Bu obraz son dərəcə prinsipial və mətindir. Nəhayət, bu obraz fəaldır, olayların hansı məcraya düşəcəyini, gündəmin necə olacağını gözləmir, dünya gündəminin tərkib hissəsinə çevrilməklə, özü də ayrıca hadisə yaradır. Söhbət müstəqillik, heç kəsdən, heç bir qüvvədən asılı olmamaq hadisəsindən gedir. Azərbaycanın yeni dünya nizamındakı başlıca məramı da elə budur.

Bəli, Prezident İlham Əliyev müsahibəsində Azərbaycanın yeni dünya düzəninin fəal iştirakçısı olmasını zərurət və vaciblik kimi qabardır. Bu mövqeyə özünün olan hər şeyə, yəni Cənubi Qafqaza sahiblənmək əzmi hakimdir: “Biz öz işimizi görməliyik və gündəliyimizi bundan sonra da tətbiq etməliyik. Çünki Cənubi Qafqaz bizim regionumuzdur və Azərbaycan bu bölgənin aparıcı ölkəsi kimi, əlbəttə ki, məsuliyyət nöqteyi-nəzərindən də xüsusi çəkiyə malikdir. Ona görə yeni nizamı biz ədalətli nizam kimi görürük. Əgər bunu bir sözlə ifadə etmək mümkündürsə, bu, ədalətli olmalıdır və əslində, Azərbaycanın uzun illər apardığı siyasətə də uyğundur”.

Göründüyü kimi, Prezident İlham Əliyev bu sitatda Azərbaycanın yeni dünya nizamındakı iştirakının ikinci vacib parametrini də açıqlayır. Birinci parametr haqqında söz açdığımız müstəqillikdirsə, ikincisi ədalətdir. Dövlətimizin başçısının bildirdiyi kimi, bu, ölkəmizin uzun illər həyata keçirdiyi siyasətə uyğun tərzdir. Nəzərə alaq ki, Azərbaycan dövləti istər daxili, istərsə də xarici siyasətdə həmişə ədalət prinsipini rəhbər tutub. Əlbəttə, o da var ki, uzun illər ölkəmizin xaricdən haqlı davranış gözləntiləri nəticəsiz qalıb. Ancaq daxildəki ədalətin formalaşdırdığı güclü vətəndaş obrazı, xaricin ədalətsizliklərinə qarşı etibarlı sipər rolunu oynayıb. Prezident İlham Əliyev əbəs yerə Azərbaycan xalqına arxalandığını vurğulamır.

Ölkəmizin lideri belə deməklə idarəçiliyə düzgün yanaşmanın vətəndaşlarda məmnunluq doğurmasına söykənir. Deməli, bu xalqla böyük hədəflərə doğru getmək mümkündür. Dövlətimizin başçısı həmin hədəflərin yeni dünya düzənindəki trayektoriyası üçün parametrləri açıqlayır: “Biz indi belə görürük, yəni suverenlik, müstəqillik, bir-birinin işlərinə qarışmamaq, müxtəlif bəhanələrlə ölkələrin daxili vəziyyətini gərginləşdirməmək. Bütün bunlar bizim, əslində, xarici siyasət xəttimizdir. Azərbaycan uzun illər bu siyasəti aparır. Biz heç kimin işinə qarışmırıq, öz işimizlə məşğuluq. Kim bizə müraciət edir, çalışırıq ki, o müraciətləri cavabsız qoymayaq”.

Prezident İlham Əliyev yeni düzənin Cənubi Qafqaz seqmentinə Azərbaycanın verdiyi töhfələri də vurğulayır. Dövlətimizin başçısının bu baxımdan konkret nələri diqqətə çatdırmasından söz açacağıq. Ancaq əvvəlcə onu deyək ki, ölkəmizin dünya birliyinə davamlı inteqrasiya kursunun əsası 1993-cü ildə ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərliyə başlaması ilə qoyuldu. Nəzərə alaq ki, dahi şəxsiyyətin müəllifi olduğu “Əsrin müqaviləsi” Cənubi Qafqaz regionunu tarix boyu heç zaman yer almadığı platformaya çıxardı. Sanki böyük çay axarını dəyişdi, tamamilə əks istiqamətə yön almağa başladı. Əminliklə bildirmək mümkündür ki, 1994-cü ildən sonra regionumuzda ilbəil yaşananlar Azərbaycanın aktorluq missiyasını yetişdirdi.

Hazırda Qərb aləmi bəzən son dərəcə miskincəsinə Cənubi Qafqazda nüfuz davasına girişir, müxtəlif rəngli inqilablar gerçəkləşdirərək, üstünlüyə yiyələnməyə çalışır. Ancaq özünü ağıllı sayan başların düşünmədikləri bir məqam var. Onlar düşünmürlər ki, Azərbaycan Cənubi Qafqazı dünyaya 1994-cü ildə təqdim edib, regionu beynəlxalq sferaya faktiki açıq duruma gətirib. Bəs ölkəmiz xidmətinin qarşılığında nə görüb? Cavab birmənalıdır – ədalətsizlik!

Qərb barəsində söz açdığımız ədalətin bərpasına çalışmadı, təzyiq yolu ilə ölkəmizin müstəqilliyini formallaşdırmaq istədi, üstəlik torpaqlarımızın işğalına göz yummaqla, suverenlik haqqımızı tanımaqdan imtina yolu tutdu. Başımızı müxtəlif qrant layihələri, sözdə demokratiya prinsipləri ilə qatmağa, guya, bizə hansısa fövqəladə dəyərləri aşılayırmış kimi davranmağa, özünü üstün göstərməyə girişdi. Azərbaycan bütün bunların qarşısında duruş gətirərək möhkəmləndi, siyasi və iqtisadi gücünü artırdı və nəhayət, 2020-ci ildə tarixi ədalətsizliyə qarşı cəbhə açdı. Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyev 44 günlük müharibədəki möhtəşəm Zəfərdən sonra bildirdi ki, Cənubi Qafqaz regionunun həyatında tamamilə yeni mərhələ başlanır. Axı dövlətimizin başçısı uzun illər ərzində yeritdiyi strateji xəttin nə zaman fayda verəcəyini gözəl bilir.

Müharibədən sonrakı illərdə dövlətimiz gücünü və qüdrətini iki, hətta üç-dörd qat artırdı. Ayrı-ayrı konkret nəticələri sadalamaq niyyətindən uzağıq. Mövzumuz yeni dünya düzənidirsə, dövlətimizin başçısının ölkəmizin inkişafı fonunda həmin düzənə hazırlığımızı ehtiva edən fikirlərinə nəzər salaq: “Öz siyasətimizlə, sərmayə qoyuluşumuzla Cənubi Qafqazda faktiki olaraq, yeni nəqliyyat və energetika xəritəsini yaratmışıq. Bir tərəfimiz Xəzər üzərindən Orta Asiyaya uzanır, bir tərəfimiz Avropaya və bu böyük coğrafiyada Azərbaycan faktiki olaraq əvəzolunmaz ölkəyə çevrilir. Sadəcə olaraq, xəritəyə baxmaq kifayətdir, hər kəs görsün ki, Orta Asiya və Qərb dünyası ilə birləşmək, bağlantılar yaratmaq istəyən Azərbaycandan yan keçə bilməz. Yəni, bunu bizsiz edə bilməzlər və müasir infrastruktur, sabitlik, düşünülmüş siyasət və dünyaya açıqlıq. Yəni, biz yeni dünya nizamına öz töhfəmizi əməllərimizlə veririk, çünki bəzən bu, bir qədər diqqətdən kənarda qalır. Amma mən bilirəm ki, Azərbaycanın son illərdəki addımları çox ciddi təhlil edilir, çox ciddi”.

Yeni dünya nizamı üçün güc faktoru həlledicidir. Ona görə də Prezident İlham Əliyev Azərbaycan kimi dünya tarixində ərazi bütövlüyünü gücü ilə bərpa edən ikinci məmləkətin olmadığını vurğulayır. “Bunu biz etmişik, bütün təzyiqlərə, təhdidlərə və təhlükələrə rəğmən. Müstəqil siyasət aparmaq iqtidarında olan ölkələrin sayı da o qədər də çox deyil”, – deyən Prezidentin müsahibəsində açıqladığı növbəti məqamlar da düşündürücüdür.

Deməli, əsas məsələ heç də maddi sərvətlərə malik olmaqda deyil, həmin sərvətləri həqiqi dövlətçilik naminə səmərəli istifadə etməkdədir. Səmərəsizliyə görədir ki, bu gün Azərbaycandan 10 dəfə çox – 300 milyon ton neft hasil edən Kanadanın baş naziri ABŞ-nin yeni seçilmiş, hələ kreslosuna əyləşməmiş Prezidenti Donald Trampın bir sözü ilə istefaya gedir. Tramp Kanadanı Birləşmiş Ştatların 51-ci ştatı kimi görür. Belə bəyanatlar isə təsadüfi deyil. Artıq indidən demək olar ki, ABŞ dünyanın yeni şəkillənməsindəki payını müəyyənləşdirib. Əlbəttə, başqa paylar da olacaq. Kanadaya gəldikdə isə Prezident İlham Əliyev Trampın nə üçün bu iddiada olmasına ustalıqla aydınlıq gətirib: “Görün, bunların iqtisadiyyatı nə qədər bərbad vəziyyətdədir ki, Amerika əgər onlara əlavə rüsum tətbiq etsə, bunun iqtisadiyyatı çökəcək və cənab Tramp deyəndə ki, Kanada 51-ci ştat olmalıdır və cənab Trüdo qubernator olmalıdır, bu, əlbəttə, “trollinq” kimi sayıla bilər. Amma, əslində, bu sözlərdə bəlkə də məntiq var”.

*

Bu gün İkinci Dünya müharibəsindən sonrakı dünya düzənində çatların olduğunu görürük. Görürük ki, Avropa güc mərkəzlərindən asılıdır. “Köhnə qitə” Birləşmiş Ştatların dirijor çubuğu ilə idarə olunur. “Ona görə müstəqil siyasət aparmaq iqtidarında olan ölkələr çox deyil. Ona görə bizim bu sahədəki siyasətimiz haqlı olaraq bizə rəğbəti daha da artırır və mən əminəm ki, yeni dünya nizamı tam formalaşma prosesinə düşəndə, o cümlədən, Azərbaycanın mövqeyi də nəzərə alınacaq, ən azı Cənubi Qafqazda və Xəzər hövzəsində və biz buna hazır olmalıyıq”, – deyir Prezident İlham Əliyev.

Əlbəttə, dövlətimizin başçısı yeni dünya nizamının mürəkkəb proses olma reallığını da nəzərə alır. Məsələn, deyir ki, hər bir dövlətin öz işi ilə məşğul olduğu, ölkələrin bir-birlərinin daxili gündəmlərinə qarışmadığı cahan fantastik görünür. Ölkəmizin lideri imperialist dairələr üçün xarakterik olan ənənəvi “parçala və hökm sür” siyasətinə dair ehtimalları da düşünür, müstəmləkəçilik təmayüllərinin mövcudluğunu da. Ancaq Prezident İlham Əliyev Azərbaycanın bu sayaq mənfi tendensiyalara münasibətdə immunitet yaratdığını vurğulayır. Hesab edirik ki, müstəqil dövlətimizin ötən müddətdə əldə etdiyi ən böyük status və dəyər də elə budur. Elə isə dövlətimizin başçısının qətiyyət örnəyi sayıla biləcək növbəti fikirlərinə diqqət yetirək: “Ancaq mən daha çox hesab edirəm ki, ölkələrin suverenliyi toxunulmaz olmalıdır və qorunmalıdır, heç kim heç kimin işinə qarışmamalıdır. Biz buna nail ola bilmişik. Bizim işimizə heç kim qarışa bilməz. Cəhdlər olub? Bəli, olub. Olacaq? Yəqin ki, olacaq. Nəticə olub? Yox və olmayacaq. Amma gözümüzün önündə olan bir çox ölkələr xarici müdaxiləyə məruz qalırlar və bu, o ölkələrin mənəvi və genetik kodunu da faktiki olaraq sarsıdır. Zəif ölkələrə yad dəyərlər, mənfi dəyərlər aşılanır. Zəif deyəndə, ölkə zəif ola bilməz. Liderlər əgər zəifdirlərsə, onda ölkə zəif sayılır. Ona görə biz bu işə öz gündəliyimizlə hazırıq, gündəliyimiz də var. Yəni ki, bizim siyasətimiz artıq bunu göstərir və yenə də deyirəm, bu işə bizim töhfəmiz əhəmiyyətli olacaq”.

*

Hesab edirik ki, Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsinə, sualların qoyuluşundan asılı olmayaraq, kompleks şəkildə yanaşmaq lazımdır. Çünki dövlətimizin başçısı hər cavabında açıqlanması vacib məqamları dolğunluğu ilə vurğulayır. Mövzumuz yeni dünya nizamı olduğundan, onu da bildirək ki, ölkəmizin lideri İkinci Dünya müharibəsindən sonra qərarlaşmış təhlükəsizlik sisteminin artıq işləmədiyinə dair baxışını əvvəllər də bölüşüb. İndi isə fikrinə daha arqumentli şəkildə izah verib, ən başlıca cəhət kimi güc amilinin üzərində dayanıb. Əlbəttə, Azərbaycan gücdən ədalətli və mütərəqqi məqsədlər naminə istifadəni məqbul sayır. Güc, heç bir halda, mürtəce məramın gerçəkləşmə alətinə çevrilməməlidir.

Ancaq yeni dünya nizamını formalaşdırmaq yönümlü fəaliyyətin “yumşaq gücünü” – qloballaşma seqmentini də görmüşük. Yəni, mahiyyət etibarilə qloballaşma ənənəvi dəyərləri sıradan çıxarmaq, bununla da müstəqil dövlətləri iflic, idarəolunmaz hala salmaq üçün uydurulmuş sistemdir.

Lakin bu ssenari gözlənilən effekti vermədi. Əgər ABŞ-də mühafizəkarlığı idarəçilik kredosuna çevirmiş Donald Tramp yenidən prezident seçilirsə, fransız vətəndaş qeyri-ciddi imicə malik prezident Emmanuel Makronu şapalağa “qonaq edirsə”, deməli, qloballaşmanın diktəsi sayılan kosmopolitlik və onun doğurduğu vecsizlik ab-havası, ilk növbədə, Qərb cəmiyyətlərində işləmir. Orada işləmirsə, deməli, onu dünyaya yayaraq, ayrı-ayrı dövlətlərin işinə qarışmaq planları gerçəkləşməyəcək və gerçəkləşmir. Prezident İlham Əliyev də, təxminən, bunu bildirib: “Əgər xatırlayırsınızsa, son illər qloballaşma haqqında o qədər də çox eşitmirik. Ola bilər ki, bu, 10, yaxud 15 il əvvəl bir tendensiya olub, lakin o, alınmadı. Çünki bir çox ölkə ona qarşı çıxdı. Onun nə məna daşıdığı da bir çox ölkə üçün aydın deyildi. Qloballaşma daha çox ticarətə, yoxsa bütün məsələlərə – əgər belə ifadə etmək olarsa – eyni gözlə baxmaq idi? Bir sözlə, biz buna hər zaman qarşı çıxmışıq və hətta qloballaşma Qərbin siyasətində əsas tendensiya sayıldığı vaxtlarda aydın şəkildə çıxış etmişik. Hətta Prezident Tramp seçilməzdən əvvəl həmin məsələ müəyyən dərəcədə gündəlikdə əsas yer tutmurdu. Bununla belə, əminəm ki, o, alınmadığı üçün tamamilə aradan qalxacaq. Bir çox insan heç onun nə məna daşıdığını belə bilmir. Yəni, o, müdaxilə aləti kimi istifadə olunmuş, hökmranlıq platformasının qurulması, gənc nəslin fikrinin dəyişdirilməsinə yönəlmişdir. Çünki qloballaşmanın əsas hədəfi gənc nəsil idi. Bu yanaşma onları dünya sakinlərinə çevirmək, onları mədəniyyəti, milli mənsubiyyəti, milli özünəməxsusluğu, ləyaqəti olmayan insana döndərmək, əlində pult olanların sanki robotuna çevirmək üçün hesablanmışdır. Bir sözlə, əminəm ki, onun vaxtı artıq keçib, bitib”.

*

Bəli, bu gün qloballaşmanın mənfi təsirlərindən uzaqlaşmağı bacaran Azərbaycan öz yolu ilə inamla addımlamaqdadır və Prezident İlham Əliyevin təbirincə desək, yeni dünya nizamına hazır vəziyyətdədir. Yuxarıda diqqətə çatdırdığımız fikirlər sözügedən hazırlığın ayrı-ayrı elementlərinin mövcudluğundan xəbər verir. Başqa bir çox məqamları da vurğulamaq mümkündür. İndilik yeni dünya düzəni baxımından özünü bu günlərdə göstərən bir hadisənin üzərində dayanaq. Söhbət qardaş Türkiyənin Suriyada təşəbbüsü ələ almasından gedir. Bu, son dərəcə ciddi prosesin başlanğıcıdır.

Prezident İlham Əliyev Suriyada yaşanan dəyişikliklərlə bağlı mövqeyini açıqlayarkən, Türkiyənin öz sərhədlərinin kənarında vəziyyəti sabit görmək istəyindən, o cümlədən, PKK terrorunu məhv etmək əzmindən tutmuş, Azərbaycanın azad Suriya quruculuğuna dəstəyinədək, bir sıra vacib nüansları açıqlayıb. Ancaq burada son dərəcə zəruri bir məqam var: “Yəni, biz istəyirik, burada öz töhfəmizi verək ki, Türkiyənin heç olmasa bu sərhədində terrora son qoyulsun və hesab edirəm ki, bu, çox ciddi geosiyasi dəyişiklik olacaq, böyük coğrafiyada sülhün, sabitliyin, əməkdaşlığın bərqərar olmasına gətirib çıxaracaq”.

Türkiyənin bütün digər sərhədlərində də terrorçuluğun yolverilməzliyini bildirən Azərbaycan Prezidenti Bakının müttəfiq kimi hər zaman və istənilən formada Ankaranın yanında olduğunu əminliklə vurğulayıb. Dövlətimizin başçısının bu fikri istər-istəməz 44 günlük müharibə dönəmini xatırladır. Həmin vaxt Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan savaşa xarici dövlətlərin Ermənistanın tərəfində qoşulması ehtimallarına qarşı görünməmiş sərt fikri ilə yadda qalmışdı: Atamızın oğlu olsa belə keçmərik! Ona görə Prezident Əliyev indi bildirir ki, Türkiyə istənilən formada, hər bir məsələdə bizim yanımızda olduğu kimi, biz də onun yanındayıq. “Bizim Müttəfiqlik Bəyannaməmiz hər gün yeni amillərlə zənginləşir və D-8-lə bağlı bax, bayaq verdiyiniz suala qayıtdıqda, bizi ən çox dəstəkləyən də yenə Türkiyə olmuşdur və birinci bizi təbrik edən də Türkiyə olmuşdur. Ona görə Türkiyənin marağında nədirsə, bizim də marağımızda odur. Təhlükəsizliyimiz də birdir, maraqlarımız da birdir, gələcəyimiz də birdir və həm Yaxın Şərqdə, həm də eyni zamanda, Avropada, – bir qədər bu məsələyə biz toxunduq, – tamamilə yeni vəziyyət yaranır və burada güclü Türkiyə amili əsas rol oynayacaq. Biz də onun yanındayıq. Yəni ki, gücümüz daha da artacaq. Böyük coğrafiya – Avropanı, Asiyanı, Cənubi Qafqazı, Xəzər hövzəsini əhatə edən böyük coğrafiya artıq özlüyündə bir ciddi geosiyasi amildir. Hərbi güc, siyasi güc, iqtisadi potensial, birlik və bu gün dünyanın heç bir yerində bu qədər bir-birinə bağlı olan ölkələri görmək mümkün deyil, necə ki, Türkiyə və Azərbaycan”, – deyən dövlətimizin başçısı Azərbaycanın yeni dünya düzənində Türkiyə ilə birlikdəlik içərisində olduğunu qətiyyətlə bildirib. Hesab edirik ki, bu, bütövlükdə dünyaya mesajdır.

*

Sonda onu da deyək ki, Azərbaycan Prezidenti yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində ayrı-ayrı məsələlərlə bağlı mövqe açıqlayarkən, demək olar, hər fikrində mövzunu Ermənistanın üzərinə də gətirdi. Məsələn, Suriyadakı dəyişikliklərə toxunarkən, Bəşər Əsəd rejiminin İrəvana dəstəyindən söz açdı, Qərblə münasibətlər kontekstində bu düşərgənin ermənipərəstliyini, Ermənistana xüsusi münasibətini açıqladı. Bir halda ki, Prezidentin səsləndirdiyi fikirlərə kompleks yanaşmaq zərurəti var, o zaman tam əminliklə demək mümkündür ki, dövlətimizin başçısının Ermənistana xəbərdarlıq zəminində söylədikləri İrəvanın dünyanın yenidən şəkillənməsindəki mövcudluq parametri baxımından önəmlidir. Axı, obrazlı desək, sel gələndə qabağındakı heç nəyə baxmır. Ermənistan isə indiki status baxımından selin qarşısında dayanmağa çalışan çör-çöpdür. Dövlətimizin başçısının mesajları baş nazir Nikol Paşinyan administrasiyasına bu ampluada dayanmamaq təklifidir. Hər halda, ölkəmizin lideri tarixi faktları, Ermənistanın qurama dövlət olma, qədim Azərbaycan torpaqları hesabına formalaşma reallığını heç də əbəs yerə xatırlatmır. Ancaq Paşinyanın yanaşmasından görünən budur ki, Ermənistan gerçək durumu görmək istəmir, daha doğrusu, özünün uydurduğu reallığı ehkam kimi sırımağa cəhd göstərir. O zaman yazımızı bir ritorik sualla bitirək: Kanada kimi ölkənin ABŞ-nin 51-ci ştatı olmaq məsələsi gündəmdə varsa, Ermənistanın dövlət kimi ayaqda qalmaq üçün ümid bəslədiyi nədir, yaxud nə ola bilər?

***Əvəz CAHANGİROĞLU***
***XQ***

# Azərbaycan–ABŞ: əlaqələr strateji yön alır

**(əvvəli 1-ci səhifədə)**

Tam əminliklə deyə bilərik ki, dörd il Ağ Evə sahiblik etmiş demokrat Co Bayden administrasiyası ABŞ–Azərbaycan münasibətlərini ABŞ–Ermənistan münasibətlərinin güdazına verdi. Rəsmi Vaşinqtonun bu dövr ərzində Qarabağ məsələsində sərgilədiyi mövqe ermənipərəst, qərəzli və ədalətsizliklərlə yadda qalacaq.

Bayden administrasiyası öz əməlləri ilə Azərbaycanın ABŞ-yə olan inamını xeyli sarsıtdı. Demokratların hakimiyyətdə olduğu müddətdə Ağ Ev Bakı ilə əvvəlki normal münasibətlərin üstündən xətt çəkmək üçün mümkün olan bütün üsullardan istifadə elədi. Baxmayaraq ki, həmin üsulların böyük qismi elementar diplomatik etiket və siyasi konyuktura elementlərindən kənara çıxırdı.

Ötən dörd ildə biz nələri müşahidə etdik: ABŞ Konqresində və Senatında kök salmış ermənipərəst düşərgənin fitvası ilə Azərbaycana qarşı haqsız, qərəzli bəyanat və qətnamələrin qəbulundan tutmuş, pərdə arxasında Ermənistana siyasi-ideoloji, hərbi-texniki, eləcə də maliyyə yardımlarının göstərilməsinədək hər şeyi. Bu zaman Bayden administrasiyasının Azərbaycanın daxili işlərinə qarışmaq, İrəvanla anlaşmada, transmili enerji layihələrində Bakıya "ağıl öyrətmək" cəhdlərini də gördük.

Əgər biz Vaşinqton–Bakı münasibətlərinə səbəb və nəticə əlaqələri prizmasından yanaşsaq, ilk baxışda görünməyən bəzi həqiqətlərin siluetini sezə bilərik. Birincisi, dörd il bundan əvvəl Azərbaycan 30 il torpaqlarımızı işğal altında saxlayan bədnam qonşulara qarşı 44 günlük müharibədə qalib gəldi. Bu, Ağ Evin bölgə ilə bağlı "strateji planlarına" daxil deyildi. İkincisi, 23 saatlıq lokal antiterror tədbirləri ilə Qarabağı separatçılardan təmizlədik. Azərbaycan bununla təkcə Vaşinqtonun deyil, bütövlükdə "kollektiv Qərb"in qarşısında "böyük günah" işləmiş oldu. Axı, Bakının bu "gedişi" ermənipərəst düşərgənin ssenarisində nəzərdə tutulmamışdı. Qafqazda öz maraqlarını güdən həmin düşərgə bunu Bakıya bağışlaya bilərdimi? Xeyr, bağışlamazdılar. Amma, ədalət hissini itirmiş həmin haypərəst qüvvələr anlamaq istəmirlər ki, Azərbaycan özünün hərbi-siyasi uğurları ilə işğal dönəmində münaqişəni dondurmağa çalışan həmin xaçpərəst "kollektiv Qərb"in haqsızlığını ört-basdır elədi, günahlarını yudu. Yəni, belə demək mümkünsə, Azərbaycan hakimiyyəti dörd il bundan əvvəl odunu söndürdüyü münaqişə ocağının külünü eşələyib onu közərtməyə çalışanların cavabını verdi.

***

Bu bir həqiqətdir ki, ikinci dəfə prezident kürsüsündə əyləşəcək Donald Trampın birinci dönəmində ABŞ–Azərbaycan münasibətlərində heç bir problem yaşanmadı. İkitərəfli əlaqələr müsbət idi və bir çox sahələr üzrə əlaqələr normal məcrada davam edirdi. Bu tendensiya demokrat Co Bayden Ağ Evə gələnədək qorunub saxlandı. "Bayden administrasiyası Azərbaycana Ermənistan–Azərbaycan, ya da ki, Amerika–Ermənistan münasibətlərinin prizmasından yanaşırdı və o vaxta qədər əldə edilmiş yaxşı nəticələr kölgədə qaldı. Bu, birincisi. İkincisi, Azərbaycana qarşı ədalətsiz mövqe sərgiləndi, xüsusilə, Qarabağ məsələsi ilə bağlı. Bu, həm ədalətsiz, həm də ki, ikili standartlara əsaslanan mövqe idi. Çünki mən Amerika nümayəndələrinə dəfələrlə deyirdim və açıq da deyirdim: siz Ukraynanın ərazi bütövlüyünü ikiəlli dəstəkləyirsiniz, silahlar verirsiniz, milyardlarla pul verirsiniz. Biz öz ərazi bütövlüyümüzü bərpa etmişik, niyə bizi cəzalandırmaq istəyirsiniz? Buna cavab verin. Cavab da yox idi. Cavab da bəllidir ki, bu, ikili standartlardır. Eyni zamanda, hesab edirəm, Bayden administrasiyasının səhvlərindən biri də o idi ki, Amerikaya olan inamı böyük dərəcədə sarsıtdı, özü öz əməlləri ilə. Məsələn, elə Əfqanıstan məsələsinə qayıtsaq, Azərbaycan birinci ölkələrdən idi ki, Əfqanıstandakı missiyaya qoşulmuşdu. Həm hərbi kontingent göndərmişdi və dəfələrlə onu artırmışdı, həm də Amerika üçün çox vacib olan nəqliyyat-logistika məsələlərini həll etmişdi. Biz onlara lazım olana qədər "907-ci düzəliş" – sanksiya qaldırılırdı, biz ki, lazım olmadıq, tətbiq etdilər. Yəni, bu nədir? Bunun bir adı var: nankorluq". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsi zamanı deyib.



Vaşinqtondan idarə olunan "kollektiv Qərb"in narahatlığının başqa səbəbləri də var. 44 günlük müharibədən sonra regionda reallığı köklü surətdə dəyişən Azərbaycanın regional və qlobal proseslərə fəal qoşulması, bir çox hallarda təşəbbüsü ələ alması Aİ və ABŞ-ın siyasi kuluarlarında gərginlik yaradırdı. Onlar iki qitənin qovşağında yerləşən Azərbaycanın artan nüfuzundan xeyli narahat olublar. Bunun üzərinə gündəmdəki Zəngəzur dəhlizi kimi perspektiv planı da gəlsək, haypərəst "çətə"nin ölkəmizə belə radikal və ədalətsiz yanaşmasının motivləri tam bəlli olar.

***

Bu məqamda ABŞ–Azərbaycan münasibətlərinə, birincinin günahı üzündən, xələl gətirən bir nüansı da qeyd etməliyik. Söhbət ABŞ-nin Azərbaycandakı səfiri Mark Libbinin diplomatik missiyası ilə bir araya sığmayan "fövqəladə fəaliyəti"ndən gedir. Yerli media cənab Libbinin Azərbaycanda missiyasını vaxtından əvvəl başa vuraraq, Bakını tərk etməsinin arxasında siyasi səbəblərin dayandığı barədə xəbərlər dərc etdi. Deyəsən, Mark Libbi, doğrudan da, Azərbaycanda özünə aid olmayan "fəaliyyət müstəvisinə" baş vurub. Onu da yada salaq ki, keçən ilin mayında Mark Libbi Şuşaya getməkdən imtina etdiyinə görə də gündəmə gəlmişdi.

**Toxunduğumuz mövzu ilə bağlı XQ-yə açıqlama verən tanınmış siyasi icmalçı Tofiq Abbasov** diqqəti hazırda Ağ Evi tərk etməyə hazırlaşan demokratların Azərbaycana qarşı daim ikibaşlı, bir çox hallarda anlaşılmaz mövqeyinə yönəltdi: "Məsələ ondadır ki, bu partiyanın öndə gedənləri ultraqlobalistlərin sıralarında təmsil olunurlar. Əsas məqsədləri milli suverenitetlərə qarşı mübarizəni gücləndirməkdir. İnkişaf etməkdə olan ölkələrin daxilində mənəvi aşınma yaratmaq, trans-qeyliyi təbliğ etmək, ən çirkin üsullarla gənclərin beyinlərini yumaq onların strateji hədəfləridir. Harada güclü iqtidar elitası, güclü liderlər varsa, silahlarını onlara tuşlayır, gözdənsalma kampaniyası aparırlar. Bu zaman insan haqları mövzusunu gündəmə gətirirlər. ABŞ cəmiyyətinin özündə bu dəyərlərə üstünlük verilmir, vicdan azadlığı pozulur, irqi, dini zəmində qarşıdurmalar meydana çıxır, kollec və universitetlərdə silahlar işə düşür...

Dünya təcrübəsində belə bir yanaşma var: əgər hansısa ölkə xarici siyasətində uğur qazanırsa, bunun kökləri daxildə gedən proseslərdən qaynaqlanır. ABŞ-nin isə daxili uğurları yoxdur. Vaşinqtonun demokratiya adı altında bəyan etdikləri ixrac "məhsulu" deyil. Çünki, o, "daşınma zamanı" yolda xarab olur. Həmin "məhsul" kənardan gəlməməli, milli zəmində yetişməlidir. Bayden administrasiyasının "stavka" elədiyi qlobalistlərin hədəfi yerli xalqların, toplumların milli ənənələrini sıradan çıxarmaqdır. Amma onlar bir şeyi unudurlar ki, Azərbaycan güclü dövlətdir və o, suverenlyini də, milli dəyərlərini də qorumağa qadirdir. Bu isə onların ürəyincə olmayan bir presedent yaradır. Ona görə də Vaşinqtondan vaxtaşırı Azərbaycanı sıxışdırmaq, problem yaratmaq məqsədilə açıqlamalar, bəyanatlar səsləndirirlər. Azərbaycanı öz yolunu gedir və onu bu yoldan heç kim döndərə bilməz".

***



Rəsmi Vaşinqton son dörd ildə demokratiya, insan haqlarının müdafiəsi pərdəsi altında Bakıya çeşidli siyasi təzyiq metodlarından istifadə etməyə çalışdı. Hətta Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin iki görüşünə evsahibliyi edəndə, "sülh təşəbbüsçüsü"nə çevriləndə də Bakıya İrəvanla danışıqlarda güzəştə getməsi üçün təzyiq cəhdlərindən əl çəkmədi. İndi siyasi karyeralarının qürubunu yaşayan Prezident Bayden və onun baş diplomatı Blinkenin danışıqları Ermənistanın xeyrinə döndərmək niyyətini Azərbaycan Prezidenti İlham Əliyev yaxşı başa düşürdü. Dövlət başçımızın məhz Ağ Evin təşəbbüsü ilə 2024-cü il aprelin 5-də Brüsseldə keçirilən ABŞ–Avropa İttifaqı–Ermənistan görüşünü siyasi avantüra adlandırması, bunun ardınca Vaşinqtonun sülh vasitəçiliyindən, faktiki olaraq, imtina etməsi Bayden administrasiyasının gözləmədiyi siyasi iradənin və lider qətiyyətinin nümayişi idi. Blinken–Ursula Fon der Lyayen–Paşinyan "üçlüyü"nün məşvərətinin, əslində, Cənubi Qafqazda sülhə qarşı çevrildiyini ört-basdır etmək cəhdlərinin bir faydası olmadı. Bakı sözünü dedi və onu əməli ilə təsdiqlədi.

ABŞ-də hakimiyyətin demokratlardan respublikaçılara keçidi ilə "supergüc"ün xarici siyasətində müəyyən korrektələr edəcəyini söyləyən ekspertlər az deyil. Ağ Evin yeni xarici paketində Qafqazla bağlı mövqeyində də yeni konturlar artıq hiss olunmaqadır. Yəni, ötən dörd ildə Vaşinqtonun Azərbaycanın daxili işlərinə qarışmaq üçün atdığı qeyri-hüquqi, ədalətsiz və bir çox hallarda mənəviyyatdan uzaq "demarşları" başa çatır. ABŞ-nin hələlik dövlət katibi postunu tutan Antoni Blinkenin qərəzlə yüklənən əvvəlki bəyanatlarının praqmatik açıqlamalarla əvəzlənməsi də nəzərdən qaçmır. Onun hayların baş diplomatının Ermənistanın "ABŞ ilə siyasi dialoqu siyasi müttəfiqlik səviyyəsinə qaldıracaqları" barədə sərsəm bəyanatına cavabı Bakıda maraqla qarşılanıb. Blinkenin Vaşinqton üçün bu məsələnin müzakirə mövzusu olmadığını birmənalı şəkildə vurğulaması İrəvanda şok effekti yaradıb.

Beləliklə, Bayden adminstrasiyasının günahı ucbatından Azərbaycanla normal münasibətlərin pozulması ilə müşayiət olunan 4 il başa çatmaq üzrədir. Söhbət yalan, ikili yanaşma və səhvlərlə dolu son dörd ildən gedir. Doqquz gündən sonra Ağ Evə sahiblənəcək respublikaçı Donald Trampın demokrat sələfinin səhvlərini təkrarlamayacağına inanmaq istərdik. Azərbaycan ABŞ-dən, 2020-ci ilə qədər olduğu kimi, Sülh Naminə Tərəfdaşlıq proqramı çərçivəsində, eləcə də yeni transmilli layihələrin reallaşmasında qarşılıqlı faydalı əməkdaşlığın bərpa olunacağını, bərabərhüquqlu partnyor kimi əməkdaşlıq gözləyir. Son vaxtlar müşahidə etdiyimiz mənzərə odur ki, Azərbaycan ictimaiyyəti birinci prezidentlik dönəminin son aylarında 44 günlük müharibədə Zəfərimizə şahidlik etmiş Trampın bu gün verdiyi aydın və birmənalı mesajların böyük əksəriyyətini qəbul edir. Məhz bu siyasi kontekstdən yanaşanda Azərbaycan–ABŞ əlaqələrinun uğurlu perspektivə yönələcəyinə, qarşılıqlı faydalı əməkdaşlığın inkişafına ümidlər kifayət qədər böyükdür. İndi bu münasibətlərin, reallığın diktə etdiyi kimi, iki ölkə arasında strateji müttəfiqlik səviyyəsinə qalxması üçün bütün şərtlərin yetişdiyini əminliklə deyə bilərik.

*İmran BƏDİRXANLI*
*XQ*

# Makrona öz komandası da etiraz edir

**Fransa siyasətçiləri ölkə Prezidenti Emmanuel Makronu Afrikadakı dövlət siyasətini uğursuzluğa düçar etməkdə günahlandırıb. Onlar bildiriblər ki, son iki-üç ildə 4 Afrika ölkəsi – Niger, Mali, Mərkəzi Afrika Respublikası və Burkina Faso Fransa ilə əməkdaşlıqdan imtina edib. Onların sırası isə genişlənir.**

Qeyd olunub ki, bu ölkələr tədricən Parislə hərbi əməkdaşlığı məhdudlaşdırır və iqtisadi razılaşmalardan narazıdırlar. Bununla siyasətçilər Makronun Afrika siyasətindən narazılıqlarını açıq şəkildə bildiriblər. Çünki, adları çəkilən ölkələrlə yanaşı, Kot-d'İvuar və Seneqal kimi ənənəvi olaraq Fransaya yaxın hesab edilən dövlətlər də tədricən Parislə yaxınlaşmadan imtina edirlər. Bu ölkələrdə Fransaya qarşı kütləvi etirazlar keçirilir. Məsələn, Kot-d`İvuarın Prezidenti Alassan Uattara Fransa hərbi bazasının yanvar ayında ölkədən çıxarılacağını açıqlayıb. Kot-d`İvuarda Fransanın 600-ə yaxın əsgəri var. Həmçinin, Seneqal Prezidenti Bassirou Diomaye Faye də, təxminən, 350 fransız əsgərinin ölkəni tərk edəcəyini bildirib.

Çad hökuməti isə noyabrın 28-də Fransa ilə təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlıq sazişinin sona çatdığını açıqlayıb. Açıqlama Parisdə xoş qarşılanmayıb. "Le Monde" qəzetinin yazdığına görə, bu addım Fransanın keçmiş müstəmləkəsindəki hərbi mövcudluğuna "açıq təhqir" kimi qiymətləndirilir. Makron isə ölkəsinin xarici siyasəti ilə bağlı səfirlərin illik konfransındakı çıxışında Fransa ordusunun səyləri sayəsində bəzi Afrika Sahili ölkələrinin indi suveren dövlət olduqlarını bildirməsi əks-reaksiya verib və "Afrikaya və afrikalılara qarşı hörmətsizlik mövqeyi" kimi qiymətləndirilib.

Çadın xarici işlər naziri və hökumət sözçüsü Əbdürrəhman Kəlamullah bu barədə rəsmi sosial şəbəkə hesabında paylaşdığı bəyanatında yazıb: "Tarix sübut edir ki, Afrika, o cümlədən, Çad İkinci Dünya müharibəsi zamanı Fransanın azad edilməsində həlledici rol oynayıb. Lakin bu faktı Fransa heç vaxt qəbul etməyib". Bəyanatda, həmçinin iddiaların əksinə olaraq, Fransanın Çad ordusunu heç vaxt lazımi dərəcədə təchiz etmədiyi və onun struktur inkişafına töhfə vermədiyi qeyd olunub. Bəyanatda vurğulanıb ki, Prezident Makron Afrikaya "hücum" etmək əvəzinə, öz diqqətini Fransa xalqını narahat edən problemlərin həllinə yönəltsin.

Qarşılıqlı ittihamlara baxmayaraq fransız əsgərləri bu ölkədən çıxarılır. Artıq bir hissəsi keçən il dekabrın 10-da Çadı tərk edib. Onların bu ölkədən tam çıxarılması 2025-ci il yanvarın 31-də yekunlaşacaq. Bundan əvvəl Mali, Niger və Burkina Fasoda baş verən hərbi çevrilişlərdən sonra bu ölkələr Fransa ilə hərbi əməkdaşlıq müqavilələrini ləğv edərək, fransız əsgərlərini ölkələrindən göndəriblər. Xüsusilə, Nigerdəki hadisələr Makron üçün ağrılı olub. Çünki Malidəki çevrilişdən sonra Makron onu Fransanın bölgədəki varlığının mərkəzinə çevirməyə çalışırdı. Niger Afrikadakı radikal qruplara qarşı Fransa hərbi əməliyyatının "ürəyi" olmalı idi. Buna baxmayaraq avropalıların kəşfiyyatı hadisələrin inkişafını proqnozlaşdıra bilmədilər.

Nəzərə alaq ki, Fransanın Əlcəzairlə tarixən mürəkkəb, Mərakeş və Tunislə isə çətin münasibətləri var. Burada törədilən qətliamlar unudulmayıb. Parisdəki Etnoqrafiya Muzeyi bunun sübutudur. Muzey bura gələn hər kəsi dəhşətə salır. Çünki eksponatlar yalnız insan kəllələri və insan skletlərindən ibarətdir.

Bundan başqa, eksponatlar arasında Fransa işğalına (1830-1962) qarşı mübarizə aparan Əlcəzair azadlıq müharibəsində şəhid olan liderlərin və üzvlərin də skeletləri var. Muzey rəsmiləri sözügedən skeletlərin antropoloqlar tərəfindən tədqiqat üçün toplanıldığını desələr də, buna inananların sayı azdır.

***



Fransa maraqlarına uyğun olaraq, Afrikada bir çox hərbi çevrilişlərin təşkilatçısı və ilhamverici olub. Ümumilikdə, son 50 ildə 26 Afrika ölkəsində 67 dövlət çevrilişi törədib. Bu 26 ölkədən 16-sı Fransanın keçmiş koloniyalarıdır.

Yuxarıda qeyd olunanlar Fransanın keçmiş müstəmləkələrinə təsirinin getdikcə zəiflədiyini ortaya qoyur. Beləliklə, Afrika ölkələrinin çoxunu tərk etmək məcburiyyətində qalan Fransa yalnız Cibutidə 1 min 500, Qabonda 350 əsgərlə qitədəki varlığını qorumalı olacaq.

Dünənki "Fransa Afrikası" hərbi "Rusiya Afrikası", iqtisadi "Çin Afrikası" və diplomatik "Amerika Afrikası" ilə əvəzlənir. Bu, bir həqiqətdir. Son 10 ildə Fransanın Afrikada üzləşdiyi ugursuzluqlar, itirdiyi mövqelər onun sürətlə dəyişməkdə olan siyasi şərait və iqtisadi proseslərə adekvat cavab verə bilməməsi, hadisələri qabaqlamaq deyil, əksinə onların ardınca sürünməsinə səbəb olur. Parisin regiondakı təsirinin zəifləməsi həm də fransız şirkətlərinin və sərmayələrinin Afrika ölkələrindən kütləvi şəkildə çıxması, dil və mədəni əlaqələrin pozulması fonunda baş verib. Bu, Fransanın diplomatik ambisiyaları ilə hərbi mövcudluğu arasında uçurum yaradır. Nəticədə, Fransa öz nüfuz dairəsində olan ölkələrdə Çin, Rusiya, ABŞ şirkətləri ilə qarşıdurmada mövqelərini itirir. Adıçəkilən Afrika ölkələrinin iqtisadiyyatında bəlli dövlətlərin, xüsusən də Çinin çəkisi artır. Hazırda keçmiş "Fransa Afrikası"-nın enerji təchizatında Rusiyaya məxsus "Qazprom"un və digər şirkətlərin rolu durmadan yüksəlir. Moskva Saheldə (Afrikada Şimali Saxara ilə Cənubi Saxara arasında özünəməxsus keçid olan məhsuldar torpaqlara malik tropik savanna) hərbi sahədə dominant mövqe qazanmağa çalışır. Aydındır ki, bu, Fransanı qıcıqlandırır.

Paris Afrika qitəsində artan anti-Fransa əhval-ruhiyyəsini Rusiyanın təsirinin artması ilə əlaqələndirir və bu ölkəni "Fransanı "ovlamaq" üçün müəyyən layihələr həyata keçirməkdə" ittiham edir. Bununla belə, Rusiya regionda təsirini artıran yeganə ölkə deyil.

Çin şirkətləri bir sıra xammal yataqlarını işlədir. Qitənin infrastruktur təşəbbüslərinin böyük bir hissəsi bu ölkənin şirkətləri tərəfindən idarə olunur və ya maliyyəsi ilə dəstəklənir. "Huawei" və ZTE kimi böyük texnologiya şirkətləri Afrika ölkələrində telekommunikasiya infrastrukturları qurur. Müvafiq şirkətlər yeni nəsli "ağıllı şəhər" və ya "yaşıl enerji" kimi sahələrdə əməkdaşlıq edir. Pekinin təsiri təkcə iqtisadiyyatla məhdudlaşmır. Bu təsir mediadan səhiyyəyə, mədəniyyətdən təhlükəsizliyə qədər geniş spektri əhatə edir. ABŞ-nin strategiyası isə Çin və Rusiya kimi qlobal rəqiblərin təsirini tarazlaşdırmaq, daha çox siyasi və iqtisadi üstünlüklər qazanmağa xidmət edir. Türkiyənin təsirini də unutmaq olmaz.

Belə bir şəraitdə siyasətçilər bildirirlər ki, Makron Afrikaya baxışını yenidən nəzərdən keçirməlidir: "Vaxt gəlib çatıb ki, Fransa üçün dost olan Afrika, artıq Fransanı anlamır və getdikcə onun roluna və mövcudluğuna meydan oxuyur. Biz, öz növbəmizdə, bütün qitədən tədricən yoxa çıxmağımızla barışa bilmərik".

Bəli, Fransa Afrikada mövqeyni itirmək istəmir. Birincisi, bu, böyük ölçüdə resurs faktoru ilə bağlıdır. Söhbət Nigerdəki uran mədənlərindən gedir. Onun atom sənayesi üçün lazım olan uranın 35 faizi ancaq Nigerdə hasil edilən uranın hesabına təmin edilir. Paris Qvineya körfəzindəki neft və qaz yataqlarına da nəzarət etmək istəyir. Təsadüfi deyil ki, Fransa rəhbərliyi indi ən çox diqqətini Sahel yerinə həmin bölgəyə yönəldir. O, kənd təsərrüfatı məhsullarına olan tələbatın 40 faizindən çoxunu bu ölkələrdən idxal hesabına əldə edir.

Rəsmi Parisin ayırdığı maliyyə onların iqtisadi inkişafına dəstəkdən deyil, əksinə bu ölkələrin müstəqilliyə olan səylərinin qarşısını almaq, yeraltı və yerüstü sərvətlərini talmaq, insanlarını istismar etməkdən irəli gəlir. Onlara ucuz xammal mənbəyi və fransız mallarının satışı üçün bazar kimi yanaşır. Fransa, əslində tam bərabərhüquqlu münasibətlərdə maraqlı deyil.

Yeri gəlmişkən, Emmanuel Makron ölkəsinin Afrikada nüfuzu azalandan sonra yeni dayaq nöqtələri axtarışına çıxıb. Makron Qazaxıstandan sonra Özbəkistana səfər edib. Görünür, Makron Afrikanı Orta Asiya ilə dəyişmək istəyir Artıq o, Qazaxıstana və Özbəkistana uran xammalı ilə bağlı müraciət edib. Amma bir şeyi unudur ki, sözügedən coğrafiyada Azərbaycanın razılığı olmadan Fransa heç bir addım ata bilməz. Bu halda, Azərbaycanla münasibətlər normallaşdırılmalıdır. Mərkəzi Asiyadan uran almaq və yaxud "Orta dəhliz"-də iştirak etmək istəyirsə, o zaman yollar Azərbaycan üzərindən keçir. Əks halda, Fransanın Orta Asiyada möhkəmlənməsi mümkün deyil.

Deməli, Fransa Azərbaycanla münasibətləri normallaşdırmalı olacaq. Son bir neçə ay ərzində Parisin Bakı ilə təmaslar qurulması üçün cəhdləri də bu məqsədə xidmət edir.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

# Liderlik strategiyasında yeni nüanslar



## II məqalə

### Çağırışı uğura çevirmək

Prezident İlham Əliyevin liderlik fəaliyyətinin COP29 fraqmenti başlıca siyasi-diplomatik məqamı dövlət başçısının hər bir yeni situasiyada düzgün addımlar atması ilə bağlıdır. Dövlət başçımız yerli telelekanallara verdiyi müsahibədə vurğulamışdır ki, "...2023-cü ilin dekabrında, COP29-a evsahibliyi etmək imkanını əldə edən kimi bu mövzunun mahiyyəti ilə daha dərindən məşğul olmağa başladıq. Səmimi desəm, buna qədər biz prosesdə o qədər də fəal iştirak etmirdik... biz hazırlıq işlərinə başladıq və Qlobal Cənub çərçivəsində olduqca fəal iş apardıq... Biz dərhal iki istiqamətdə işə başladıq - hazırlıq və məzmun. Hər iki istiqamətdə çoxsaylı çətinliklər var idi, lakin yekun nəticə bunun uğur hekayəsi olduğunu sübut etdi. Hazırlıq bizim üçün böyük çağırış idi, çünki əvvəlki COP-lardan fərqli olaraq hazırlıq üçün 2 il deyil, cəmi 11 ay vaxtımız var idi. Biz stadion və onun ətrafında nəhəng qurğular inşa etməli idik – bu, 200 min kvadratmetrə yaxın qapalı məkan idi. Tədbirin təşkilatçılığı hər kəsdə məmnunluq doğurdu".

Bununla aydın olur ki, COP29 təcrübəsini "Bakının nailiyyəti" hesab edənlər tam haqlıdırlar. Cənubi Qafqazın müstəqil bir dövləti qısa zamanda həm yeni qlobal xarakterli vəzifənin mahiyyətinə varmış, həm də onun həyata keçməsi üçün nəticəverici fəaliyyət istiqamətini düzgün müəyyən etmişdir. Onun ümumi aspektdə təməlində liderin realpolitika ilə idealpolitikanın başlıca xüsusiyyətlərini konkret situasiyada uyğunlaşdırmaq qabiliyyəti dayanır. COP29 istənilən postsovet məkanı ölkəsi üçün tam yeni siyasi, geosiyasi və elmi situasiyadır. Onun tələb etdiyi şərtləri öncələr bu məkan dövlətləri görməmişlər. Deməli, söhbət faktiki olaraq qlobal mahiyyəti olan elə yeni vəzifədən gedir ki, nəticəsi bütün dünyaya təsir edir. Buna görə də "Bakının nailiyyəti", ilk növbədə, liderlik nümunəsinin ifadəsidir.

Bütövlükdə, çağırışı uğura çevirmək bacarığı Prezident İlham Əliyevin fəaliyyətinin mahiyyətinə aid olan reallıqdır. Bu baxımdan 2024-cü ildə başqa bir nümunəni də göstərmək olar. Həmin nümunə D8-ə Azərbaycanın üzvlüyüdür. Bu hadisənin siyasi-politoloji anlamı COP29-la prinsipial məqamlarda səsləşir.

### D8-ə üzvlük

Azərbaycanın dövlət başçısı jurnalistin ölkəmizin D8-ə üzvlüyünün əhəmiyyəti ilə bağlı sualına dəqiq cavab vermişdir: "Bu, bizim üçün növbəti uğurlu addım oldu. Çünki Azərbaycanın bu təşkilata qəbul edilməsi ölkəmizin nüfuzunu bir daha göstərir. Siz də yaxşı bilirsiniz ki, bu təşkilat 30 il yaxın bundan əvvəl yaranmışdı, Türkiyənin təşəbbüsü ilə və səkkiz ölkədən ibarət idi. Bu illər ərzində əlavə üzv qəbul edilməmişdi. Birinci genişlənmə qərarından sonra qəbul edilən üzv Azərbaycan oldu. Əlbəttə ki, bu, ölkəmizin nüfuzunu, eyni zamanda, beynəlxalq aləmdə rolumuzu göstərir".

Bu fikirlərdən aydın görünür ki, Azərbaycanın D8-ə üzvlüyünün başlıca motivi ölkəmizin nüfuzunun müsəlman aləmində və bütövlükdə dünyada yüksəlməsi ilə əlaqəlidir. D8 nümunəsində də COP29-da vurğuladığımız məqam mövcuddur. Yəni D8-ə üzvlük prinsipial olaraq regionlararası miqyasda Azərbaycanın tamamilə yeni geosiyasi şərtlərlə işləmili olacağını əks etdirir. D8-in bu baxımdan COP29-dan geosiyasi və siyasi kontekstdə prinsipial fərqi vardır.

Hər şeydən öncə, COP tədbirləri bir ölkə üçün təşkiletmək baxımından daimi deyildir. Bundan başqa, istənilən dövlət COP-dan çıxa bilər və ya onda passiv iştirakçı mövqeyinə keçər.

Eyni zamanda, COP BMT kimi beynəlxalq bir təşkilatın tədbiridir. Onun struktur və funksional özəllikləri həmin aspektdə daimi fəaliyyət göstərən hər hansı təşkilatın fəaliyyətindən fərqlənir.

D8 vurğulanan faktorlara görə COP-dan ciddi fərqlənir. D8 qarşısına konkret məqsəd qoymuş 8 dövlətin yaratdığı bir təşkilatdır. Onları birləşdirən məqam müsəlman ölkələri olmalarıdır. Bundan başqa, D8 dinamik inkişaf edən dövlətləri əhatə edir. Deməli, öncədən avtomatik belə bir şərt qoyulur ki, bu təşkilata elə müsəlman ölkəsi üzv ola bilər ki, müəyyən edilmiş tələblərə uyğun inkişaf dinamikasına və nüfuza sahib olsun. Həmin ölkə praktikada inkişafla beynəlxalq nüfuzunu yüksəltmək arasında real əlaqəni nümayiş etdirə bilsin.

Belə alınır ki, 30 illik fəaliyyətdən sonra D8-də Azərbaycanı öz sıralarına qatmağı uyğun görmüşlərsə, bu, ilk növbədə, dövlətimizin əldə etdiyi davamlı nailiyyətlərin dünyada etiraf edilməsi ilə bağlıdır. Məhz həmin səbəbdən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın təşkilata üzv qəbul edilməsini bəyan edəndə, onu da vurğuladı ki, "Azərbaycan D8-i gücləndirəcək"!

Bu cür ədalətli, nikbin və incə yanaşmaya Azərbaycan Prezidentinin münasibəti liderlik baxımından çox fəzilətlidir! Çünki İlham Əliyevin cavabında həm təşəkkür, həm də məsuliyyəti dərindən dərk etmək əlaməti özünü göstərmişdir. İlham Əliyev realpolitikanın prinsipinə uyğun gerçək situasiyanı dərindən bildiyini və eyni zamanda idealpolitikanın da mənəvi, əxlaqi, nəzəri və konseptual-ideoloji qaydalarını konstruktiv ruhda qəbul etdiyini göstərmişdir.

Azərbaycan Prezidenti həmin bağlılıqda demişdir: "D8 müsəlman ölkələrini birləşdirən ən böyük təşkilatdır. Bir milyardan çox əhalisi olan və müsəlman ölkələrinin iqtisadiyyatının 60 faizini təşkil edən bir təşkilatdır. Əgər biz bu təşkilatın ümumdaxili məhsulunu götürsək, bu, 5 trilyon dollardan çoxdur. Dünyada 60-a yaxın müsəlman ölkəsi var və məhz Azərbaycan yeni üzv seçilmişdir. Əlbəttə ki, bu, bizim üçün həm böyük şərəfdir, həm də böyük məsuliyyətdir. Artıq bütün göstərişlər verilib ki, Azərbaycan bu təşkilatda fəal olsun və öz töhfəsini verə bilsin".

Deməli, Azərbaycan hansı səviyyədə D8-in nə dərəcədə potensiallı bir təşkilat olduğuna tam əmindir. Buna görə də Azərbaycan bu təşkilatda da fəal olacaq və öz töhfəsini verəcək.

### İki nümunəyə bir yanaşma

COP və D8-in təşkilati prosessual vahidlər kimi fərqləri göz qabağındadır. COP-a üzvlük üçün dövlətin atmosferi nə dərəcədə çirkləndirməsinin əhəmiyyəti yoxdur – ən zərərli dövlətlə yanaşı, minimum zərər verən dövlət də ona üzv ola bilər. Sonra, COP-un institusional vahid kimi formalaşması D8 kimi təşkilatların institusionallaşmasından ciddi surətdə fərqlənir. Əgər COP başlıca olaraq bir problemə – iqlim dəyişikliyinə fokuslanmış tam açıq və mərkəzləşmiş institutları olmayan təşkilatdırsa, D8 bütövlükdə müasir mərhələdə dövlətlər qrupunun siyasi, geosiyasi, sosial, iqtisadi, mədəni, ekoloji və s. istiqamətlərdə inkişaflarını təmin etmənin dinamik formasıdır. Bununla bağlı Prezident İlham Əliyevin aşağıdakı qiymətləndirməsi prosesi adekvat müəyyən edir: "Əsas məsələ D8-in gələcək fəaliyyəti ilə bağlı olacaq. Əlbəttə ki, bizim öz fikirlərimiz, öz gündəliyimiz var. Biz üzv ölkələrlə daim təmasda olaraq öz təkliflərimizi verəcəyik. Düşünürəm ki, D8-in təşkilat olaraq daha böyük nüfuza malik olması məsələsi tam realdır. Hesab edirəm ki, bir halda, artıq genişlənməyə start verildi, bu, Azərbaycanla məhdudlaşmayacaq və ola bilsin ki, digər ölkələr dəvət ediləcək. Əlbəttə ki, bu məsələlərə konsensus əsasında baxılacaq".

Vurğulanan müqayisələr prizmasında COP-la D8-i hansı politoloji xüsusiyyət birləşdirir? Bizcə, burada başlıca məqam dövlətin hər iki nümunəyə necə reaksiya verməsi ilə əlaqədardır. Konkret olaraq, Azərbaycan rəhbərliyi COP və D8-ə çevik, siyasi-diplomatik tələblərin fonunda, hüquqi əsasda və konstruktiv ruhda reaksiya vermişdir! Məhz bu cür yanaşma həm bu iki nümunədə Azərbaycanın uğurlu olmasına əsas yaratmışdır, həm də hər iki prosesə öz töhfəsini vermək fürsətini meydana gətirmişdir.

### Yeni dünya nizamının diktəsi

Azərbaycan rəhbərliyinin hər iki nümunəyə "fürsət" kimi yanaşmasının dərin siyasi və geosiyasi anlamı vardır. Burada İlham Əliyev dövlətimizin bütün dünyaya təsiri ola biləcək fəaliyyət səviyyəsinə keçmək üçün yaxşı bazanın yarandığını vurğulayır.

D8-in timsalında bu, iki aspekti daha çox qabardır. Onlardan biri İslam həmrəyliyinə töhfə ilə bağlıdır. Digəri isə yeni dünya nizamının formalaşmasında D8-in mümkün iştirakı məsələsidir.

Hər iki istiqaməti İlham Əliyev eyni məntiq altında gözəl ifadə etmişdir. Dövlət başçısı vurğulamışdır ki, "bütün müsəlman ölkələrinin maraqlarını biz öz maraqlarımız kimi qəbul edirik, bəlkə də o cümlədən buna görə D8-in genişlənməsi siyasətindən sonra birinci seçim Azərbaycan olmuşdur. Əlbəttə, burada ölkəmizin həm iqtisadi potensialı, siyasi çəkisi, hərbi gücü nəzərə alınıbdır. Bax, dediyim İslam həmrəyliyi ilə bağlı siyasətimiz nəzərə alınıbdır və eyni zamanda, bu təşkilat öz coğrafiyasına da genişləndirir. Artıq D8 həm Qafqaz, həm də Xəzər regionuna genişlənib və coğrafiyamız nə qədər geniş olsa, imkanlarımız da o qədər geniş olacaq".

Burada XXI əsrin zidddiyətli şərtləri daxilində realpolitika ilə idealpolitikanın sintezinin yeni çalarları öz əksini tapmışdır. Həmin çalarlar dövlətlər qrupunun qlobal miqyasda düzənin formalaşmasına verə biləcəyi faydalarla bağlıdır. Bunun üçün rəsmi Bakı bütün tərəflərin qarşılıqlı faydalı əməkdaşlıq fəlsəfəsinə söykənməsi şərtini əsas hesab edir.

Buradan Azərbaycan Prezidenti ziddiyyətsiz məntiqlə yeni dünya nizamının formalaşması perspektivi məsələsinə keçid edir. İlham Əliyev deyir: "İndi heç kimə sirr deyil ki, yeni dünya nizamı formalaşdırılır. Hesab edirəm ki, biz bu prosesin başlanğıcındayıq, bir çox boşluqlar yaranmaqdadır və yaranacaq. İkinci Dünya müharibəsindən sonra yaranmış sistem artıq öz potensialını itirib. Bunu bir çox yerlərdə gedən proseslər, münaqişələr, müharibələr və sair hadisələr göstərir. Eyni zamanda, aparıcı Qərb ölkələrində siyasi və mənəvi böhran da göz qabağındadır...bu sistem artıq tükənib. Bunu mən demirəm. Bunu Amerikanın hər hansı bir neçə gündən sonra Prezidenti olacaq cənab Tramp deyir. Təbii olaraq, bu boşluqlar daha da genişlənəcək və burada yeni aktorun, yeni, ciddi oyunçunun ciddi gündəlikllə daxil olması zərurətdir".

Fikirlərini inkişaf etdirərək Azərbaycanın dövlət başçısı yeni ciddi oyunçu kimi Türk Dövlətləri Təşkilatı (TDT) və D8-in adını çəkir. Bu da son dərəcə böyük siyasi mənası olan tezisdir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# "Böyük manipulyator"

**Mark ENDEVELD**




*(əvvəli qəzetin 17, 18, 19, 20, 21, 22, 24, 25, 26, 27 və 30 dekabr 2024-cü il tarixli saylarında)*

"Lüdovik çox qapalı bir adam idi", – deyə onunla hərdən Tur şəhərində qeyri-rəsmi görüşlərdə iştirak edən köhnə bir polis məmuru təəssüratlarını bizimlə bölüşdü. Ovaxtlar Tur şəhəri, xarici casuslarla mübarizə aparan fransız agentlərini çox maraqlandırırdı. DCRI (daxili kəşfiyyat) əsli Tayvandan olan, Tur şəhərinin meriyasında Fransa–Çin münasibətləri üzrə müşavir Liz Han ilə bağlı araşdırmalar aparır. Yeri gəlmişkən, bu qadın həm də Tur şəhərinin meri və şəhər universitetinin keçmiş prezidenti Jan Jermanın məşuqəsidir. Tur həm də çox vacib bir sənaye mərkəzidir – orada Fransa və İtaliyanın birgə istehsal etdiyi çip STMikroelektronik zavodu, eləcə də Hutchinson və Michelin şirkətlərinə məxsus kauçuk zavodları yerləşir... Bütün bu şirkətlər, Tur şəhər universitetinin tədqiqat laboratoriyaları ilə birgə fəaliyyət göstərirlər. Taleyin ironiyasına bax ki, elə həmin vaxt Le Canard enchaîné qəzeti "Çin nikahları" ilə bağlı məqalə dərc edir və bu məqalə ölkədə böyük skandal yaradır. İstintaq nəticəsində məlum olur ki, olmağını arzulayan adamlara qoşulub. (Adam Plowright, The French Exception Emmanuel Makron! The Extraordinary Rise and Risk, icon Books, septembre 2017!) O zaman hamıdan gizlin İsmael Emelien, İqtisadiyyat naziri Emmanuel Makron və onun kabinetinin direktor müavini Jülien Denormandi ilə birlikdə "Hərəkətdə!" hərəkatının təməlini qoyur. Gizli görüşlər paytaxtın 11-ci rayonunda



bu qondarma "nikahları" təşkil edən Tur meriyasında müşavir kimi çalışan, eləcə də Turun meri Jan Jermanın məşuqəsi Liz Handır. Bu qadın ədalət məhkəməsi tərəfindən mühakimə olunacaq və bu skandalda adı mətbuatda hallanan Tur şəhərinin meri Jan Jerman bütün bu biabırçılıqlara dözməyib intihar edəcək.

Bu kontekstdə, 2011-ci ilin yayında Lüdovik Şaker Jue-le-Tur şəhərini tərk edir. Görəsən, Turan bölgəsində işləyəndə bu adam fürsətdən istifadə edib özünə siyasi şəbəkə yarada bilibmi? Bu cavan oğlan üzəyində "makronçudur", baxmayaraq ki, camaatın içində solçular partiyasına mənsub olduğunu təsdiqləyir... eyni zamanda isə kənarda özünə sağçı partiyasından çevrə yığır. (!) Bu da təsadüfi deyil, çünki Turan torpaqları əsl şəbəkə zonasıdır, ona görə ki, burada neçə illərdir frank-masonlar at oynadır. Lap əvvəllərdən bu Turan torpağı sağçılar bölgəsi sayılıb – özü də həmişə. Əsasən də 1974–1981-ci illərdə Fransanın prezidenti olmuş Valeri Jiskard d'Estanın siyasətini dəstəkləyib. Tur şəhərinin intihar edən keçmiş meri Jan Jerman, Lion şəhərinin meri Jerard Kollombun yaxın adamı idi, özü də frank-mason gizli cəmiyyətinə mənsub olduğunu heç kimdən gizlətmirdi. Hələ bu harasıdır, o, frank-mason olmağını Sosialist Partiyasının üzvü olduğundan daha yüksək tuturdu. Jan Jerman həm də əvvəllər Nikola Sarkozinin seçki kampaniyasının xəzinədarı olan Filip Briand ilə yaxın təmasda idi. Onunla həm sözləri, həm də işləri yaxşı tuturdu. Bundan başqa, Jan Jerman uzun müddət qonşu Puatu-Şarant bölgəsinin prezidenti olan Jan-Pier Raff aran ilə də yaxın idi. İkisinin də Asiyaya, xüsusən də Çin tarixinə və mədəniyyətinə böyük maraqları vardı. Tur şəhəri, eləcə də Jan-Pier Raff aranın keçmiş naziri Fransua Leotardın da məskənidir. (Fransua Leotard – fransız siyasətçisi. İyirmi ilə yaxın Var bölgəsinin deputatı və Frejus şəhərinin meri olub. 1986-1988 illərdə Mədəniyyət naziri, 1993-1995 ci illərdə isə Müdafiə naziri olub)

Və nəhayət, 2011-2012-ci illər arasında bu bölgəyə 1993-1994-cü illərdə Fransa Sosialist partiyasının baş katibi Mişel Rokard ilə Dominik Stros-Kanın şəbəkəsinin döyünən ürəyi olan Marisol Turan rəhbərlik etmişdi. Xatırladaq ki, sonralar onların ikisi də Makronu dəstəklədilər...

Bir neçə ildən sonra tamamilə təbii olaraq Lüdovik Şaker "Hərəkətdə!" hərəkatının birinci rəsmi məvacibli işçisinə çevrilir. Bu işi ona dostu, həm də Emmanuel Makronun xüsusi müşaviri olan İsmael Emelien təklif edir. Adam Plovraytın yazdığı kitabdan öyrənirik ki, Şaker 2015-ci ilin sonunda "Fransanın İraqdakı ordusundakı müvəqqəti işindən" sonra Parisə qayıdıb və gələn kimi də Makronun gələcəkdə prezident yerləşən, adətən Paris burjuaziyasının yığışdığı Sqare Gardett e barında təşkil olunur; ancaq həmişə yox, çünki bu məxfi qrup çox ehtiyatlı tərpənir, ona görə də istəmirlər onları burda tez-tez görsünlər. "O vaxt hamımız bir az paranoyak idik", – deyə Lüdovik Şaker özü etiraf edir. Söhbətlərinin tam məxfiliyi təmin etmək üçün Lüdovik dostlarına tövsiyə edir ki, telefonla danışanda o vaxt hələ az tanınan Teleqram proqramından istifadə etsinlər. Sonrakı aylarda Lüdovik Şaker yenicə doğulan bu hərəkatın ("Hərəkətdə!") "baş katibi", daha sonra isə Makronun seçki kampaniyası zamanı onun "əməliyyat direktoru" olur. Bu vəzifələr bir az "dəb-dəbəli" səslənsə də, onların real məsuliyyəti var. Şaker, əsasən, Makronun strateji görüşlərini təşkil edir.

Aleksandr Benallanı da işə götürən bu adamdır. 2016-cı ilin dekabrında, seçki kampaniyasının təhlükəsizlik komandasını tərtib edəndə, Lüdovik Şaker Benallanı, Makronun cangüdəni götürür. O vaxt təbii ki, prezidentliyə namizəd olan Makronun təhlükəsizliyini dövlət polis təmin edir. Ona görə də özəl təhlükəsizlik şirkətindən istifadə etmək lazım gəlir. Ancaq kampaniyanın xəzinəsi hələ ki, boşdur, təhlükəsizliyi təmin edən agentlərə pul çatışmır və elə bu səbəbdən, onların birinci müraciət etdikləri təhlükəsizlik şirkəti, prezidentliyə namizədi qorumaqdan imtina edir. O vaxt yalnız bircə nəfər – GIGN-in keçmiş üzvü Kristian Qedon, demək olar ki, pulsuz-parasız prezidentliyə namizəd Makronun təhlükəsizliyini qorumağa razılıq verir. (GİGN – Milli Jandarmeriyanın Müdaxilə Qrupu) Onun bu fədakarlığının ödənişi yaxşı olacaq. Emmanuel Makron prezident seçiləndən sonra Kristian Qedon, əvvəllər GIGN-in üzvü olduğuna görə Yelisey sarayının GSPR qrupuna daxil ediləcək. (GSPR – Respublika Prezidentinin Təhlükəsizlik Qrupu) Bu kontekstdə Aleksandr Benalla nəinki özünü prezidentliyə namizədə sevdirməyi bacarır, hətta özünü namizəd üçün əvəzolunmaz bir şəxs kimi göstərir. Benalla Makronu bütün xarici səfərlərində müşayiət edir və namizədlə yaxınlığından istifadə edib, Vənsan Qras adlı dostuna da seçki kampaniyasında işə düzəldir. Benalla Ör departamentində ehtiyatda olan jandarm kimi bəzi missiyalar həyata keçirəndə Vənsan Qras onun rəhbəri olub. 2017-ci ilin əvvəllərində Benallanın ayağı o qədər yer alır ki, o utanıb-çəkinmədən prefekturaya müraciət edir ki, Emmanuel Makronun ölkə daxilindəki səyahətlərini müşayiət etdiyinə görə ona odlu silah gəzdirməyə icazə versinlər. Le Monde qəzeti yazır ki, Benalla odlu silahı nəinki özü üçün, eləcə də Makronun təhlükəsizlik xidmətinin beş başqa üzvü, o cümlədən dostu Vənsan Qras və Lüdovik Şaker üçün də tələb edir.

**(ardı var)**

# Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin vəsaitindən istifadə

# QAYDASI

**1. Ümumi müddəalar**

1.1. Bu Qayda Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin (bundan sonra – Nazirlik) tabeliyində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (bundan sonra – Agentlik) vəsaitindən istifadə mexanizmini və şərtlərini müəyyən edir.

1.2. Agentliyin vəsaitindən ölkə üzrə rəqəmsal inkişafın təmin edilməsi, o cümlədən yerli sahibkarlıq subyektlərinə müasir texnologiyaların və texnoloji həllərin əldə olunmasına yardım göstərilməsi və onların transferinin təşkili, innovasiyayönümlü elmi tədqiqatların dəstəklənməsi, innovativ layihələrin (həmçinin startapların) təşviqi, habelə innovasiya təşəbbüskarlığının təbliği məqsədilə istifadə edilir.

1.3. Bu Qaydanın məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə edilir:

1.3.1. innovasiya – iqtisadi və ya sosial səmərə əldə etmək məqsədilə yeni yaradılmış və ya təkmilləşdirilmiş məhsul (iş, xidmət), texnoloji proses, həmçinin ictimai münasibətlərin müxtəlif sahələrində (təşkilati-texniki, maliyyə-iqtisadi və digər sahələrdə) tətbiq edilən inzibati, kommersiya, texnoloji və digər xarakterli yeniliklər;

1.3.2. innovasiya fəaliyyəti – iqtisadi və ya sosial səmərə əldə etmək məqsədilə elmi tədqiqat, təcrübə-konstruktor işləri və onların nəticələrinin tətbiqi əsasında yeni və ya təkmilləşdirilmiş malın (işin, xidmətin), texnoloji prosesin, eləcə də inzibati, kommersiya, texnoloji və digər xarakterli yeniliklərin yaradılmasına, reallaşdırılmasına istiqamətlənmiş fəaliyyət;

1.3.3. rəqəmsallaşma – məlumatların və ya verilənlərin rəqəmsal formata çevrilməsi prosesi;

1.3.4. vençur maliyyələşdirilməsi – rəqəmsal texnologiyaların və innovasiya məhsulunun hazırlanmasını və istehsalını həyata keçirən, mikro, kiçik və orta sahibkarlıq subyekti olan, habelə Azərbaycan Respublikasında "Startap" şəhadətnaməsini və ya texnologiyalar parkının və texnoloji biznes inkubatorunun qeydiyyat şəhadətnaməsini alan fərdi sahibkarların innovativ layihələrinə, hüquqi şəxslərin isə nizamnamə kapitalına, qiymətli kağızlarına və iştirak paylarına onların fəaliyyətinin ilkin mərhələsində mənfəət əldə etmək, eləcə də həmin şəxslərin sahibkarlıq fəaliyyətini inkişaf etdirmək və genişləndirmək məqsədilə uzunmüddətli və yüksəkriskli investisiya qoyuluşu.

1.4. Bu Qaydada istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

1.5. Agentliyin vəsaiti onun dövlət sifarişi əsasında ayrılan məqsədli vəsaitləri, büdcədənkənar vəsaitləri, o cümlədən cəlb etdiyi kreditlər, qrantlar, ianələr, bu Qaydanın 9.1-ci bəndində qeyd edilən, eləcə də qanunla qadağan edilməyən digər mənbələrdən daxil olan vəsaitlər hesabına formalaşır.

1.6. Agentliyin vəsaitindən, bu Qaydanın 1.2-ci bəndində qeyd edilən məqsədlərə uyğun olaraq, aşağıdakı istiqamətlər üzrə istifadə olunur:

1.6.1. ölkənin rəqəmsal infrastrukturunun qurulması, yerli rəqəmsal texnologiyaların, eləcə də rəqəmsal platformaların, həllərin, tətbiqlərin və kontentlərin hazırlanması;

1.6.2. informasiya infrastrukturunun informasiya təhlükəsizliyinin təmini, eləcə də elektron təhlükələrin qabaqlanması və ya qarşısının alınması üçün rəqəmsal məhsulların (rəqəmsal və ya elektron mühitdə müasir, o cümlədən də rəqəmsal texnologiyalar əsasında (rəqəmsal formatda) yaradılan, təqdim edilən, saxlanılan və istifadə olunan məhsul və ya xidmət) hazırlanmasının dəstəklənməsi;

1.6.3. xidmətlərin rəqəmsallaşdırılması yolu ilə əlçatanlığının və keyfiyyətinin artırılması;

1.6.4. fərdi məlumatların işlənilməsi və mühafizəsi ilə bağlı proseslərin rəqəmsallaşdırılması;

1.6.5. innovasiya təşəbbüskarlığının təbliğinin həyata keçirilməsi və belə təşəbbüslərin dəstəklənməsi;

1.6.6. innovativ ekosistemin inkişafının, yerli innovasiya məhsullarının istehsalının və ixracının dəstəklənməsi;

1.6.7. rəqəmsal inkişaf və innovasiyalar sahəsində mütəxəssis hazırlığının dəstəklənməsi.

**2. Vəsaitdən istifadə formaları**

2.1. Agentliyin vəsaitinin istifadəsi aşağıdakı formalarda həyata keçirilir:

2.1.1. investisiyalar;

2.1.2. güzəştli kreditlər;

2.1.3. qrantlar;

2.1.4. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 21 oktyabr tarixli 1862 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin Nizamnaməsi"ndə (bundan sonra – Agentliyin Nizamnaməsi) qeyd edilən fəaliyyət istiqamətlərinə uyğun olaraq, bu Qaydanın 7-ci hissəsində nəzərdə tutulan formalarda maliyyələşdirmə.

2.2. Agentlik tədbirlərin və layihələrin maliyyələşdirilməsi ilə bağlı tələb olunan vəsaiti Nazirliklə razılaşdırmaqla ayırır.

**3. İnvestisiya maliyyələşməsi**

3.1. İnvestisiya maliyyələşməsi aşağıdakı formalarda həyata keçirilir:

3.1.1. hüquqi şəxsin nizamnamə kapitalına sərmayə qoyuluşu;

3.1.2. hüquqi şəxsin səhmlərinin və ya istiqrazlarının, eləcə də əmlakının, o cümlədən əmlak hüquqlarının və pul dəyəri olan digər hüquqlarının əldə edilməsi;

3.1.3. innovativ layihələrin (startapların) vençur maliyyələşdirilməsi.

3.2. Agentliyin İdarə Heyətinin (bundan sonra – İdarə Heyəti) investisiya maliyyələşməsi barədə qərarı Nazirliklə razılaşdırmaqla, habelə investisiya maliyyələşməsinin edilməsi nəzərdə tutulan hüquqi şəxslərin fəaliyyətinin kommersiya səmərəliliyini əks etdirən biznes planlarının təhlili, həmin şəxslərin təsisçilərinin, habelə digər iştirakçılarının sahibkarlıq fəaliyyəti sahəsində malik olduqları təcrübə və əldə etdikləri nəticələr əsasında qəbul olunur.

3.3. Agentlik sərmayə qoyduğu hüquqi şəxsin nizamnamə kapitalında 50 (əlli) faiz və daha çox paya malik olmamalıdır.

3.4. Nazirliklə razılaşdırmaqla, Agentlik investisiya maliyyələşməsi üzrə bu Qaydanın 3.1.1-ci və 3.1.2-ci yarımbəndlərinə uyğun olaraq əldə etdiyi aktivləri bazar qiyməti ilə sataraq investisiya maliyyələşməsinə İdarə Heyətinin qərarı əsasında xitam verə bilər.

**4. İnvestisiya qoyuluşu qaydası**

4.1. İnvestisiya qoyuluşu hüquqi şəxsin və fərdi sahibkarın Agentliyə yazılı müraciəti (hüquqi şəxsin – adı, hüquqi ünvanı, fərdi sahibkarın – soyadı, adı, ata adı, onların VÖEN-i, fəaliyyət sahəsi, investisiya qoyuluşu təklifi və əsaslandırılması qeyd olunmaqla) və ya Agentliyin təşəbbüsü əsasında həyata keçirilir.

4.2. Bu Qaydanın 3.1.1-ci və 3.1.2-ci yarımbəndlərində qeyd edilən formalarda investisiya qoyuluşu aşağıdakı meyarlardan azı üçü üzrə (4.2.1-ci yarımbənd mütləq nəzərə alınmaqla) müsbət göstəricilərə malik olan hüquqi şəxslərə münasibətdə 5–15 illik müddətdə həyata keçirilir:

4.2.1. hüquqi şəxsin fəaliyyətinin bu Qaydanın 1.6-cı bəndində qeyd edilən istiqamətlərlə bağlı olması;

4.2.2. hüquqi şəxsin "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsi ilə müəyyən edilmiş tələblərə uyğun olması, eləcə də informasiya-kommunikasiya texnologiyaları sahəsində təcrübəyə malik azı 2 əməkdaşının (təsisçilər də daxil olmaqla) olması;

4.2.3. hüquqi şəxsin son 1 (bir) il müddətində fəaliyyətini mənfəətlə başa vurması;

4.2.4. hüquqi şəxsin maliyyə hesabatlarının beynəlxalq standartlara uyğun aparılması (100 000 (yüz min) manat və daha çox investisiya məbləğinin ayrılması halında nəzərdə tutulur).

4.3. Bu Qaydanın 3.1.3-cü yarımbəndində qeyd edilən formada investisiya qoyuluşu aşağıdakı meyarlardan azı altısı üzrə (4.3.1-ci yarımbənd mütləq nəzərə alınmaqla) müsbət göstəricilərə malik olan fərdi sahibkarlara və hüquqi şəxslərə münasibətdə 5–15 illik müddətdə həyata keçirilir:

4.3.1. innovativ layihələrin (startapların) bu Qaydanın 1.6-cı bəndində qeyd edilən istiqamətlərlə bağlı olması;

4.3.2. innovativ layihələrin (startapların) iqtisadi səmərəliliyi və mənfəətliliyi, habelə oxşar innovasiya layihələri (startaplar) ilə müqayisədə üstünlüyü;

4.3.3. hüquqi şəxsin son 1 (bir) il müddətində fəaliyyətini mənfəətlə başa vurması;

4.3.4. fərdi sahibkarın və hüquqi şəxsin "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsi ilə müəyyən edilmiş tələblərə uyğun olması, eləcə də informasiya-kommunikasiya texnologiyaları sahəsində təcrübəyə malik azı 2 əməkdaşının (təsisçilər də daxil olmaqla) olması;

4.3.5.innovativ layihələrin (startapların) nəticəsinin sosial effektivliyi;

4.3.6. fərdi sahibkarın və hüquqi şəxsin ipoteka, girov və ya digər maliyyə öhdəliklərinin olmaması;

4.3.7. fərdi sahibkarın və hüquqi şəxsin maliyyə hesabatlarının beynəlxalq standartlara uyğun aparılması (100 000 (yüz min) manat və daha çox investisiya məbləğinin ayrılması halında nəzərdə tutulur);

4.3.8. innovativ layihələrin (startapların) həyata keçirilməsi nəticəsində texnika və texnologiyaların, məhsul və proseslərin prinsipcə yeni, qənaətcil növlərinin işlənib hazırlanması, yayılması və tətbiq edilməsi sayəsində əlavə dəyər yaradılması;

4.3.9. fərdi sahibkarın və hüquqi şəxsin bazara çıxış strategiyasının mövcudluğu;

4.3.10. innovativ layihələrin (startapların) 18 (on səkkiz) aylıq icra planının mövcudluğu;

4.3.11. Agentlik tərəfindən fəaliyyətinə investisiya qoyulan fərdi sahibkar və hüquqi şəxsin həmin investisiya vəsaiti ilə hansı hədəflərə çatacağına dair əsas fəaliyyət göstəriciləri.

4.4. Bu Qaydanın 4.2-ci və 4.3-cü bəndləri ilə müəyyən edilmiş meyarlar üzrə sənədlər (Agentlik tərəfindən müəyyən edilmiş sənədlərin siyahısı Agentliyin rəsmi internet informasiya ehtiyatında yerləşdirilir) araşdırma aparılması üçün fərdi sahibkarlar və ya hüquqi şəxslər tərəfindən Agentliyə kağız daşıyıcıda və ya elektron formada təqdim edilir. İnvestisiya qoyuluşu Agentliyin təşəbbüsü əsasında həyata keçirildikdə, qeyd edilən sənədlər Agentliyin verdiyi sorğu əsasında həmin şəxslər (maliyyələşdirmədə maraqlı olduğu təqdirdə) tərəfindən 10 (on) iş günü müddətində kağız daşıyıcıda və ya elektron formada təqdim edilir. Araşdırmanın həyata keçirilməsinə Agentlik əlavə ekspertlər və mütəxəssislər cəlb edə bilər.

4.5. Bu Qaydanın 4.4-cü bəndinə əsasən təqdim olunması tələb olunan sənədlərin (məlumatların) Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda Agentlik həmin sənədləri (məlumatları) fərdi sahibkar və ya hüquqi şəxsdən tələb etmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi fərdi sahibkarın və ya hüquqi şəxsin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya fərdi sahibkar və ya hüquqi şəxs tərəfindən təmin edilir.

4.6. İnvestisiya qoyuluşu ilə bağlı müraciətlərə 30 (otuz) iş günü müddətində baxılaraq investisiya qoyuluşunun məqbul hesab olunduğu və ya investisiya qoyuluşundan imtina edildiyi barədə qərar qəbul edilir və qəbul edildiyi gündən 2 (iki) iş günü müddətində müvafiq fərdi sahibkara və ya hüquqi şəxsə sifarişli poçt göndərişi və elektron poçt vasitəsilə göndərilir. İnvestisiya qoyuluşu məbləği 1 000 000 (bir milyon) manat və daha çox olduğu təqdirdə, müraciətlərə baxılma müddəti 10 (on) iş gününədək uzadıla bilər.

4.7. Bu Qaydanın 4.2-ci və 4.3-cü bəndlərində qeyd olunan meyarlar üzrə araşdırma nəticəsində fərdi sahibkarın və hüquqi şəxsin müsbət göstəricilərə malik olmadığı müəyyən edildikdə, Agentlik tərəfindən investisiya qoyuluşundan imtina olunur.

4.8. Bu Qaydanın 2.2-ci bəndinə uyğun olaraq, Nazirliklə razılaşdırmaqla, investisiya qoyuluşu haqqında qərar qəbul edildikdən sonra 15 (on beş) iş günü müddətində investisiya maliyyələşməsinin həyata keçirilməsi üçün fərdi sahibkar və hüquqi şəxslə Agentlik arasında müqavilə imzalanır. Həmin müqavilənin forması Agentlik tərəfindən təsdiq edilir.

4.9. İnvestisiya qoyuluşu Agentliyin təşəbbüsü əsasında həyata keçirildikdə, bu barədə qəbul edilmiş qərar 5 (beş) iş günü müddətində həmin qərarla müəyyən edilmiş fərdi sahibkarlara və hüquqi şəxslərə göndərilir.

**5. Güzəştli kreditlərin verilməsi**

5.1. Agentliyin vəsaitindən sahibkarlıq subyektlərinə güzəştli kreditlərin (bundan sonra – kredit) verilməsi müvəkkil banklar və bank olmayan kredit təşkilatları (bundan sonra – müvəkkil kredit təşkilatı) vasitəsilə onların öz adından və öz riskləri hesabına həyata keçirilir.

5.2. Müvəkkil kredit təşkilatları Nazirlik tərəfindən aşağıda göstərilən meyarlara uyğun olaraq müəyyən edilir:

5.2.1. kreditlərin verilməsi ilə bağlı fəaliyyətin həyata keçirilməsinə dair Azərbaycan Respublikasının Mərkəzi Bankı (bundan sonra – Mərkəzi Bank) tərəfindən verilmiş lisenziyanın olması və həmin lisenziyanın alınması tarixindən etibarən azı 3 (üç) il kreditlərin verilməsi ilə bağlı fəaliyyətinin, o cümlədən mikro, kiçik və orta sahibkarlıq subyektlərinin kreditləşdirilməsi üzrə iş təcrübəsinin olması;

5.2.2. mikro, kiçik və orta sahibkarlıq subyektlərinin maliyyə vəziyyətinin qiymətləndirilməsi üzrə təsdiq edilmiş metodikasının olması;

5.2.3. kredit təşkilatlarının prudensial normativlərə və tələblərə cavab verməsi, habelə kredit təşkilatlarına qarşı tətbiq edilən təsir (təshih) tədbirlərinə əməl edilməsi.

5.3. Agentlik müvəkkil kredit təşkilatlarının bu Qaydanın 5.2-ci bəndində qeyd edilən meyarlara uyğunluğunu yoxlayarkən onlardan maliyyə fəaliyyətinin yekunlarına dair son 3 (üç) hesabat ili üzrə auditor yoxlamasından keçməsi barədə sənədləri (maliyyə hesabatı, statistik göstəricilər və s.), eləcə də bu Qaydanın 5.2.3-cü yarımbəndində qeyd edilən meyara uyğunluq haqqında sənədləri əldə edir. Müvəkkil kredit təşkilatları ilə Agentlik arasında vəsaitin ayrılması şərtlərini nəzərdə tutan müqavilə imzalanır. Kredit vəsaiti müqavilənin şərtlərindən asılı olaraq sahibkarlara tam və ya mərhələli şəkildə verilir.

5.4. Kredit vəsaiti bu Qaydanın 5.10–5.12-ci bəndlərində göstərilən həcmdə və müddətə verilir.

5.5. Müvəkkil kredit təşkilatlarına kreditlərin verilməsi zamanı aşağıdakılar nəzərə alınmalıdır:

5.5.1. müvəkkil bankların Agentlikdən cəlb etdikləri vəsaitlərin ümumi məbləğinin qalığı onların məcmu kapitalının, bank olmayan kredit təşkilatlarının kapitalının isə 100 (yüz) faizinədək ola bilər;

5.5.2. müvəkkil kredit təşkilatları istifadə etdikləri vəsait üzrə əsas borcu (bu Qaydanın 5.16-cı bəndinin şərtləri nəzərə alınmaqla) və hesablanmış faizləri hər ay üzrə növbəti ayın ilk 3 (üç) əməliyyat günündən gec olmayaraq Agentliyə ödəməlidirlər;

5.5.3. müvəkkil kredit təşkilatlarının Agentlik qarşısında öhdəliyi onların sahibkarlıq subyektləri ilə münasibətlərindən asılı deyildir. Sahibkarlıq subyektləri tərəfindən kreditlər, faizlər və digər öhdəliklər üzrə ödənişlərin həyata keçirilməsindən asılı olmayaraq, müvəkkil kredit təşkilatları Agentlik qarşısında öz öhdəliklərini müqavilə şərtlərinə uyğun olaraq yerinə yetirməlidirlər. Müvəkkil kredit təşkilatları Agentlik qarşısında öhdəliklərinin gecikdirildiyi hər gün üçün köçürülməyən vəsaitin 0,1 faizi həcmində, lakin 120 (yüz iyirmi) gündən çox olmamaq şərtilə dəbbə pulu ödəyirlər. Müvəkkil kredit təşkilatları 1 (bir) ay müddətində öhdəliklərini icra etmədikdə, Agentlik vəsaitlərin qaytarılması üçün tədbirlər görür;

5.5.4. müvəkkil kredit təşkilatlarının sahibkarlıq subyektlərindən "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda və bu sahədə münasibətləri tənzimləyən digər hüquqi aktlarda nəzərdə tutulmayan, eləcə də Agentlik tərəfindən müəyyən olunmuş şərtlərdən başqa digər şərtləri (əlavə faizlərin ödənilməsi və s.) tələb etməsi barədə faktların mövcud olub-olmamasını müəyyən etmək üçün Agentlik Mərkəzi Banka müraciət edə bilər. Belə müraciət daxil olduğu təqdirdə, Mərkəzi Bank yoxlama zamanı həmin faktları aşkar etdikdə, bu barədə Agentliyə məlumat verir. İdarə Heyəti həmin məlumat əsasında müvəkkil kredit təşkilatına yeni vəsait ayrılmasını dayandırır və ya müvəkkil kredit təşkilatı kimi onun xidmətindən imtina edir.

5.6. Kredit almaq üçün sahibkarlıq subyektləri ilkin olaraq müvəkkil kredit təşkilatına rəsmi qaydada müraciət edirlər. Müvəkkil kredit təşkilatı müraciətləri qeydiyyata alır və sahibkara müraciətin qeydiyyata alınmasını təsdiq edən müvafiq sənəd təqdim edir. Müvəkkil kredit təşkilatı müraciətin qeydiyyata alındığı andan etibarən 10 (on) iş günündən gec olmayaraq öz biznes maraqları və Agentliyin müəyyən etdiyi investisiya layihələrinin tərtib olunmasına dair minimal tələblər, həmçinin qiymətləndirilmə meyarları əsasında investisiya layihələrini təhlil edərək layihənin maliyyələşdirilməsi, yaxud maliyyələşdirmədən imtina barədə qərarını sahibkara bildirir. Müvəkkil kredit təşkilatı müsbət qiymətləndirdiyi layihələrə dair Agentliyin müəyyən etdiyi məlumatları və sənədləri Agentliyə təqdim edir.

5.7. Agentlik 10 (on) iş günü müddətində Agentliyin vəsaiti hesabına maliyyələşdirilmək üçün təqdim olunmuş layihələri ekspertizadan keçirir və kiçikhəcmli kreditlər istisna olmaqla, müvəkkil kredit təşkilatlarının təqdim etdiyi investisiya layihələrinin bilavasitə yerində ilkin monitorinqini həyata keçirir. Ekspertizanın və monitorinqin nəticəsindən asılı olaraq Agentlik müraciətlərin təmin olunmasına, yaxud ondan imtina edilməsinə dair İdarə Heyətinin qərarı barədə müvəkkil kredit təşkilatına rəsmi məlumat verir.

5.8. Sahibkarlıq subyekti ilə kreditləşməyə dair bütün sənədləşmə yekunlaşdıqdan sonra müvəkkil kredit təşkilatı kredit vəsaitinin ayrılması barədə Agentliyə sifariş göndərir. Müvəkkil kredit təşkilatının sifarişi əsasında Agentlik 3 (üç) əməliyyat günü müddətində vəsaitin müvəkkil kredit təşkilatına ayrılmasını təmin edir. Ayrılmış vəsait müvəkkil kredit təşkilatının müxbir hesabına daxil olduqdan sonra kredit təşkilatı 2 (iki) əməliyyat günü müddətində vəsaiti sahibkarlıq subyektinin hesabına köçürür və bu barədə Agentliyə, həmçinin sahibkarlıq subyektinə məlumat verir.

5.9. Müvəkkil kredit təşkilatları Agentliyin vəsaiti hesabına verilən kreditlərdən istifadə etmək üçün müraciət etmiş bütün sahibkarlıq subyektləri haqqında məlumatları hər rüb bitdikdən sonra növbəti ayın ilk 5 (beş) iş günündən gec olmayaraq Agentliyə təqdim edirlər. Təqdim olunacaq məlumatın formasını Agentlik müəyyənləşdirir.

5.10. Sahibkarlıq subyektlərinə Agentliyin vəsaitindən aşağıdakı hədlərdə kredit vəsaiti verilir:

5.10.1. 5 000 manatdan 50 000 manatadək – kiçikhəcmli kreditlər;

5.10.2. 50 001 manatdan 1 000 000 manatadək – ortahəcmli kreditlər;

5.10.3. 1 000 001 manatdan 10 000 000 manatadək – böyükhəcmli kreditlər.

5.11. Agentliyin vəsaiti hesabına hər bir sahibkarlıq subyektinə verilən kreditin (o cümlədən bir investisiya layihəsi üzrə) maksimum həddi 10 000 000 (on milyon) manatdan artıq ola bilməz.

5.12. Agentliyin kreditlərinin müddətləri aşağıdakı kimi müəyyən edilir:

5.12.1. kiçikhəcmli kreditlər üçün – 3 (üç) ilədək;

5.12.2. ortahəcmli kreditlər üçün – 5 (beş) ilədək;

5.12.3. böyükhəcmli kreditlər üçün – 10 (on) ilədək.

5.13. Agentliyin vəsaiti (cəlb etdiyi kreditlər istisna olmaqla) hesabına verilən kreditlərin illik faiz dərəcəsi 1 (bir) faiz, müvəkkil kredit təşkilatlarının tətbiq etdikləri illik faiz dərəcəsi isə 4 (dörd) faizdən artıq olmamaq şərtilə, ümumilikdə kreditlərin illik faiz dərəcəsi 5 (beş) faizədək müəyyən edilir.

5.14. Agentliyin digər mənbələrdən (o cümlədən dövlət borcalmalarının həyata keçirilməsi sahəsində normativ hüquqi aktlara uyğun olaraq) vəsait cəlb edilməsi ilə əlaqədar bağladığı müqavilələrdə nəzərdə tutulmuş faizlər və həmin vəsaitlərin cəlbi məqsədilə Agentliyin xərcləri nəzərə alınmaqla, bu Qaydanın 5.13-cü bəndi tətbiq edilir.

5.15. Kreditlərdən istifadə üzrə güzəşt müddəti kreditdən istifadə müddətinin ilk ½ dövrünü (böyükhəcmli kreditlərdə 3 (üç) ildən çox olmamaqla) əhatə edir. Güzəşt müddətində sahibkarlıq subyektləri yalnız faiz borclarını ödəyir, əsas borc üzrə isə hər hansı ödəniş həyata keçirmirlər. Müvəkkil kredit təşkilatları hər bir kreditdən istifadə üzrə güzəşt müddəti barədə Agentliyə məlumat verməlidirlər.

5.16. Sahibkarlıq subyektləri aldıqları kreditlər üzrə faiz borclarını hər ay ödəməlidirlər. Əsas borc isə güzəşt müddəti bitdikdən sonra qalan müddət ərzində növbəti aydan etibarən bərabər hissələrə bölünməklə ödənilir. Sahibkarlıq subyektlərinin vaxtından əvvəl ödədiyi faizlər və ya əsas borc müvəkkil kredit təşkilatı tərəfindən 3 (üç) əməliyyat günündən gec olmayaraq Agentliyin bank hesabına köçürülür. Müvəkkil kredit təşkilatı həmin vəsaitin Agentliyin bank hesabına köçürülməsini gecikdirdikdə, onlar bu Qaydanın 5.5.3-cü yarımbəndinə uyğun olaraq dəbbə pulu ödəyir. Gecikdirmə 30 (otuz) əməliyyat günündən çox olduqda, İdarə Heyəti müvəkkil kredit təşkilatına yeni vəsaitin ayrılmasını buna əsaslar aradan qaldırılana qədər dayandırır və ya onu müvəkkil kredit təşkilatları sırasından çıxarır.

5.17. Agentlik sahibkarlıq subyektləri tərəfindən əsas borc və faizlərin müvəkkil kredit təşkilatına ödənilməsi müddəti ilə müvəkkil kredit təşkilatlarının Agentliyə köçürməsi müddətinin üzləşməsini apara və ya bunun üçün Mərkəzi Banka müraciət edə bilər. Belə müraciət daxil olduğu təqdirdə, Mərkəzi Bank müvəkkil kredit təşkilatında yoxlama aparan zaman bu məsələni araşdırır və Agentliyə məlumat verir.

5.18. Müvəkkil kredit təşkilatı və həmin təşkilatın lisenziyası ləğv edildikdə, Agentliyin vəsaiti hesabına maliyyələşdirilən kredit portfelinin kompensasiyası "Banklar haqqında" və "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikası qanunlarının tələblərinə uyğun olaraq həyata keçirilir.

**6. Qrant maliyyələşməsi**

6.1. Agentlik fiziki və hüquqi şəxslərin qrant maliyyələşməsini "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müsabiqə əsasında həyata keçirir.

6.2. Müsabiqə üzrə müraciətlərin qəbulunu, ilkin təhlilini və qiymətləndirilməsini, habelə bunun üçün müstəqil ekspertlərin seçilməsini Agentlik həyata keçirir. Qrant maliyyələşməsinin prioritet istiqamətlərini, müsabiqə üzrə müraciətlərin qəbulu müddətlərini, müsabiqə şərtlərini, eləcə də layihələrin qiymətləndirilmə qaydalarını Agentlik müəyyən edir.

6.3. Müsabiqənin keçirilməsi üçün Agentlik tərəfindən rəsmi internet informasiya ehtiyatında və sosial media platformalarında, həmçinin media vasitəsilə ərizələrin təqdim edilməsi üçün müəyyənləşdirilmiş son tarixdən azı 10 (on) iş günü əvvəl elan verilir. Müsabiqə elanında müsabiqəni keçirən dövlət qurumunun adı, müsabiqədə iştirak etmək üçün müraciətlərin təqdim edilməsi üsulu, yeri, son tarixi və saatı, müraciətə əlavə edilməli olan sənədlərin siyahısı, habelə müsabiqənin keçirilməsi şərtləri ilə tanışolma yeri və qaydası barədə məlumatlar qeyd olunur.

6.4. Müsabiqədə iştirak üçün hər bir fiziki və ya hüquqi şəxsin, forması Agentlik tərəfindən müəyyən edilən ərizəsinə aşağıdakı sənədlər əlavə edilir:

6.4.1. müsabiqəyə təqdim olunan layihə (layihənin təqdim edilməsi mümkün olmadıqda isə həmin layihə haqqında məlumat);

6.4.2. layihənin icrasına cəlb ediləcək şəxslərin tərcümeyi-halı və işinin təsviri;

6.4.3. ərizəçi fiziki şəxs olduqda – şəxsiyyətini təsdiq edən sənədin surəti;

6.4.4. ərizəçi hüquqi şəxs olduqda – hüquqi şəxslərin dövlət reyestrindən çıxarışının və nizamnaməsinin surəti;

6.4.5. layihəyə tərəfdaş (tərəfdaşlar) cəlb edildiyi təqdirdə, tərəfdaşla (tərəfdaşlarla) birgə fəaliyyətə dair imzalanmış müqavilə;

6.4.6. layihə üzrə əqli mülkiyyət hüquqlarının qeydiyyatı barədə sənəd (olduğu təqdirdə);

6.4.7. ərizə hüquqi və fiziki şəxsin nümayəndəsi tərəfindən verildikdə həmin nümayəndənin şəxsiyyətini təsdiq edən sənədin surəti və etibarnaməsi;

6.4.8. layihənin icra planı;

6.4.9. layihənin xərclər smetası.

6.5. Bu Qaydanın 6.4.3-cü, 6.4.4-cü və 6.4.6-cı yarımbəndlərində qeyd olunan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda Agentlik həmin sənədləri ərizəçidən tələb etmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.

6.6. Müsabiqəyə təqdim olunan layihə, layihənin icra planı və xərclər smetası Agentlik tərəfindən müəyyən edilən formaya uyğun tərtib edilməlidir.

6.7. Layihələr Azərbaycan dilində, layihə xarici ekspertlər tərəfindən qiymətləndirməyə təqdim olunduqda isə xarici dilə (ingilis və rus dillərinə) tərcümə olunaraq tərtib edilməlidir.

6.8. Müsabiqə iştirakçısının Agentlik tərəfindən keçirilən hər müsabiqə çərçivəsində yalnız bir layihə təqdim etmək hüququ vardır.

6.9. Müsabiqəyə təqdim olunan layihələrə dair tələblər aşağıdakılardır:

6.9.1. layihə və ona əlavə olunan sənədlər Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının qanunları və digər normativ hüquqi aktları, habelə bu Qaydanın müddəaları ilə ziddiyyət təşkil etməməlidir;

6.9.2. layihə Agentlik tərəfindən bu Qaydanın 1.6-cı bəndində qeyd edilən rəqəmsal inkişaf üzrə istiqamətlər və normativ hüquqi aktlar əsas götürülməklə, müəyyən edilən prioritet istiqamətlərə və müsabiqə şərtlərinə uyğun olmalıdır;

6.9.3. layihənin icra müddəti 36 (otuz altı) aydan çox olmamalıdır;

6.9.4. layihənin məqsəd və vəzifələri aydın olmalıdır.

6.10. Müsabiqəyə təqdim edilmiş layihələrin ekspertizasının keçirilməsi məqsədilə Agentlik tərəfindən Ekspertiza Komissiyası (bundan sonra – Komissiya) yaradılır. Komissiyanın üzvləri rəqəmsal inkişaf sahəsində fəaliyyət göstərən müstəqil ekspertlərdən və Agentliyin əməkdaşları sırasından Agentlik tərəfindən təyin edilir. Komissiyanın üzvləri haqqında məlumatlar müsabiqə dövrü ərzində müsabiqə iştirakçılarına açıqlanmır.

6.11. Komissiya tək sayda və 3 (üç) üzvdən az, 9 (doqquz) üzvdən çox olmayan tərkibdə formalaşdırılır. Komissiyanın fəaliyyətinə Agentlik tərəfindən müəyyən olunan (Agentliyin Komissiyaya üzv olan əməkdaşları sırasından) şəxs sədrlik edir.

6.12. Komissiyanın iclasları onun üzvlərinin yarıdan çoxu, üzvlərin sayı 3 (üç) nəfər olduqda isə tam tərkibdə iştirak etdikdə baş tutmuş hesab olunur. Komissiyanın iclaslarında qərarlar açıq səsvermə yolu ilə sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı Komissiya üzvlərinin bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda, Komissiyanın sədrinin səsi həlledici sayılır. Komissiyanın sədri axırıncı səs verir.

6.13. Müsabiqəyə təqdim olunan bütün layihələrin ekspertizası iki mərhələdə həyata keçirilir:

6.13.1. layihələrin ilkin ekspertizası;

6.13.2. layihələrin qiymətləndirməsi üçün kompleks ekspertizası.

6.14. Layihələrin ilkin ekspertizası Komissiya tərəfindən 15 (on beş) iş günü müddətində keçirilir, nəticələr sistemləşdirilir və qərar qəbul edilir.

6.15. Layihələrin ilkin ekspertizası zamanı aşağıdakı məsələlər həll olunur:

6.15.1. müsabiqəyə təqdim edilmiş layihələrin və əlavə olunmuş sənədlərin bu Qaydanın 6.4-cü, 6.6–6.9-cu bəndlərinin tələblərinə uyğunluğu yoxlanılır;

6.15.2. təkrar təqdim olunmuş və ya oxşar layihələr müəyyən edilir;

6.15.3. layihəni təqdim etmiş şəxsin Agentliyin maliyyə dəstəyi ilə əvvəl icra etdiyi layihələrin başa çatdırılma, hesabatlılıq, eləcə də həmin layihələr üzrə ayrılan vəsaitdən təyinatı üzrə istifadə etmə vəziyyəti araşdırılır.

*(ardı 7-ci səhifədə)*

# Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin vəsaitindən istifadə QAYDASI

**(əvvəli 6-cı səhifədə)**

6.16. İlkin ekspertizası aparılmış hər bir layihəyə dair rəy hazırlanır. Bu Qaydanın 6.4-cü, 6.6 – 6.9-cu bəndlərində qeyd olunan tələblərə uyğun gəlməyən (bu Qaydanın 6.5-ci bəndinin tələbi nəzərə alınmaqla), müsabiqəyə təqdim edilən digər layihələrlə oxşar və ya təkrar olan, eləcə də barəsində bu Qaydanın 6.15.3-cü yarımbəndinə əsasən aparılan araşdırmanın nəticəsi mənfi olan müsabiqə iştirakçısının təqdim etdiyi layihələr müsabiqədən kənarlaşdırılır. Kompleks ekspertiza mərhələsinə keçən layihələr qiymətləndirilməsi məqsədilə anonimləşdirilməklə (müsabiqə iştirakçısının şəxsiyyətinin müəyyənləşdirilməsinə imkan verən məlumatların layihə sənədlərindən çıxarılması yolu ilə) Komissiyaya təqdim edilir.

6.17. Komissiya kompleks ekspertiza mərhələsində layihələri, qiymətləndirmə qaydasına uyğun olaraq, 20 (iyirmi) iş günü müddətində qiymətləndirir və nəticəsi barədə rəyi Agentliyə təqdim edir.

6.18. Bu Qaydanın 6.17-ci bəndində qeyd edilən rəy hər bir layihənin qrant layihələrinin qiymətləndirilmə qaydalarına uyğunluğu, ictimai əhəmiyyətliliyi və səmərəliliyi, eləcə də icrası üçün təklif edilən büdcənin təhlili ilə bağlı ekspertizanın nəticələrini özündə əks etdirir.

6.19. Komissiya üzvləri layihələrin kommersiya sirri hesab edilən məlumatlarını qorumağa borcludurlar. Bu məlumatlar ancaq "Kommersiya sirri haqqında" Azərbaycan Respublikasının Qanununda və digər normativ hüquqi aktlarda nəzərdə tutulan hallarda açıqlana bilər.

6.20. Layihələrin qrant maliyyələşdirilməsinə dair qərar bu Qaydanın 6.4-cü bəndində qeyd edilən sənədlər, 6.17-ci bəndində qeyd edilən rəy, habelə qeyri-hökumət təşkilatlarına və gənclər siyasəti sahəsində qrantlara münasibətdə Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli 652 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanları tərəfindən qeyri-hökumət təşkilatlarına qrant verilməsinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə, gənclər siyasəti sahəsində qrantlara münasibətdə isə həmçinin Azərbaycan Respublikasının Gənclər Fondu ilə razılaşdırılması Qaydası"nın 4-cü hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin, gənclər siyasəti sahəsində qrantlara münasibətdə isə həmçinin Gənclər Fondunun rəyləri əsasında İdarə Heyəti tərəfindən qəbul edilir.

6.21. Müsabiqənin nəticələri haqqında məlumat müsabiqə iştirakçılarına Agentlik tərəfindən kompleks ekspertiza bitdikdən sonra 2 (iki) iş günü müddətində sifarişli poçt göndərişi və elektron poçt vasitəsilə təqdim edilir. Eyni zamanda, Agentliyin rəsmi internet informasiya ehtiyatında və sosial media platformalarında yerləşdirilir, həmçinin media vasitəsilə açıqlanır.

6.22. Müsabiqənin nəticələri açıqlandıqdan sonra Agentlik tərəfindən qrant müqaviləsinin 10 (on) iş günü müddətində imzalanması barədə qalib iştirakçılara yazılı məlumat göndərilir. Qeyd edilən müddətdə qrant müqaviləsini üzrlü səbəb olmadan imzalamamış müsabiqə iştirakçıları qrantdan imtina etmiş hesab olunurlar. Bu zaman qrant müqaviləsinin imzalanması müsabiqədə ikinci yeri tutan iştirakçıya, ikinci yeri tutan iştirakçı qrant müqaviləsinin imzalanmasından imtina etdikdə isə üçüncü yeri tutan iştirakçıya təklif edilə və onların razılığı olduqda qrant müqaviləsi həmin iştirakçılarla imzalana bilər.

6.23. Qrant müqaviləsində tərəflərin öhdəlikləri, hüquq və vəzifələri, müsabiqənin adı, layihənin məqsədi, qısa məzmunu, həll olunması nəzərdə tutulan məsələlər, icra mərhələləri və müddəti, gözlənilən nəticələr və tətbiq imkanları, layihənin maliyyələşdirilməsi həcmi və qaydası, layihə üzrə ayrılan qrant vəsaitindən subqrantların ayrılıb-ayrılmayacağı barədə qeyd, habelə layihə üzrə ayrılan qrant vəsaiti tam xərclənmədikdə, qalıq məbləğdən istifadə qaydası, hesabatların təqdim edilməsi müddəti və layihənin icrasına dair monitorinq qaydaları öz əksini tapır.

6.24. Qrant müqaviləsi Azərbaycan Respublikası Mülki Məcəlləsinin, "Qrant haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qaydanın 6.23-cü bəndinin tələbləri nəzərə alınmaqla Agentlik tərəfindən hazırlanır, tərəflərə və qrant müqaviləsini qeydə alan orqana (kommersiya qurumlarına, publik hüquqi şəxslərə münasibətdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, dini qurumlara münasibətdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, digər qeyri-kommersiya qurumlarına və fiziki şəxslərə münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi) təqdim olunması üçün eyni hüquqi qüvvəyə malik olan 3 (üç) nüsxədə imzalanır.

6.25. Hər bir qalibə layihə üzrə qrant ödənişlərinin mərhələlərini və məbləğlərini Agentlik müəyyən edir və müsabiqə şərtlərində əks etdirir. Bir layihə üçün ayrılmış qrant məbləğinin dəyəri 500.000 (beş yüz min) manatdan artıq olmamalıdır.

6.26. Müsabiqədən uğurla keçmiş layihələrin həyata keçirilməsinin nəticələri ictimaiyyətə çatdırılarkən həmin layihənin Agentlik tərəfindən dəstəklənməsi barədə aşağıdakı məlumat qeyd edilməlidir:

"Bu layihə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin maliyyə yardımı ilə həyata keçirilmişdir – Qrant №__".

6.27. Resipiyentlər layihələrin icrasının yekunu ilə bağlı tələb edilən maliyyə və təsviri hesabatları müsabiqə şərtləri ilə müəyyən edilmiş forma və qaydada layihələrin icrası başa çatdıqdan sonra 20 (iyirmi) iş günündən gec olmayaraq təsdiqləyici sənədlərlə birlikdə Agentliyə təqdim edirlər.

6.28. Agentlik hesabatların yoxlanılması zamanı layihənin icrası və nəticələri barədə daha ətraflı məlumat əldə etmək üçün resipiyentdən əlavə məlumat və (və ya) sənədlər tələb etmək hüququna malikdir.

6.29. Müsabiqədə iştirak edən layihə üzrə müsabiqənin keçirildiyi müddətdə digər qurumdan hər hansı məbləğdə qrant və ya digər vəsait alınarsa, müsabiqə iştirakçısı bu haqda dərhal Agentliyi yazılı şəkildə məlumatlandırır. Bu zaman həmin layihə tam məbləğdə maliyyələşdirildikdə, Agentlik tərəfindən müsabiqədən kənarlaşdırılır. Sözügedən layihə qismən maliyyələşdirildiyi və müsabiqə nəticəsində qalib elan edildiyi halda isə Agentlik digər qurum tərəfindən maliyyələşdirilməyən hissəyə mütənasib məbləğdə vəsait ayırır.

6.30. Müsabiqənin qalibi olan layihənin müsabiqənin keçirildiyi müddətdə və ya müsabiqədən əvvəl digər mənbələrdən hər hansı məbləğdə maliyyələşdirildiyi aşkar edildikdə, bu hal Agentlik tərəfindən həmin məbləğə mütənasib ayrılan vəsaitin geri qaytarılması üçün əsasdır.

**7. Digər maliyyələşmə formaları**

7.1. Agentliyin vəsaitindən həmçinin aşağıdakı istiqamətlər üzrə tədbirlərin və layihələrin maliyyələşdirilməsi məqsədilə istifadə edilir:

7.1.1. yerli sahibkarlıq subyektlərinə müasir texnologiyaların və texnoloji həllərin əldə olunmasına yardım göstərilməsi və onların transferinin təşkili;

7.1.2. innovasiyayönümlü elmi tədqiqatların, innovativ layihələrin (o cümlədən startapların) həyata keçirilməsi ilə bağlı tədbirlərin və müsabiqə qaliblərinin qrant maliyyələşməsindən kənar maliyyələşdirilməsi;

7.1.3. innovasiya və rəqəmsal inkişaf sahələrində dövlət–özəl tərəfdaşlığının inkişafı və təşviqi, habelə qanuna uyğun olaraq dövlət–özəl tərəfdaşlığı layihələrinin özəl investisiyaların cəlb edilməsi yolu ilə həyata keçirilməsi üçün tədbirlər görülməsi;

7.1.4. innovasiya infrastrukturunun əsas elementləri olan fondların, texnologiyalar parklarının, inkubatorların, innovasiya, akselerasiya, tədqiqat və araşdırma mərkəzlərinin, habelə laboratoriyaların, texnologiya və biliklər transferi qurumlarının və digər təsisatların yaradılmasının maliyyələşdirilməsi və onların fəaliyyətində iştirak;

7.1.5. robot və bulud texnologiyalarına, irihəcmli məlumatların emalı, təhlili və ötürülməsinə, açıq məlumatlara, süni intellektə əsaslanan həllərin dəstəklənməsi;

7.1.6. müsabiqə yolu ilə yeni nəsil innovatorların yetişdirilməsi, onların (o cümlədən gənclərin) təcrübə və tədqiqat bacarıqlarının yüksəldilməsi məqsədilə müddətli, tam və ya qismən maliyyələşdirilən fərdi proqramların dəstəklənməsi;

7.1.7. innovativ layihələr çərçivəsində elmi araşdırmaların həyata keçirilməsi ilə əlaqədar təqaüd, təcrübə proqramlarının və bilik yarışlarının təşkili;

7.1.8. ali təhsil müəssisələrinin elmi tədqiqat infrastrukturunun formalaşmasının tam və ya qismən maliyyələşdirilməsi;

7.1.9. innovativ layihələr (o cümlədən startaplar), innovativ məhsul və xidmətlər üzrə əqli mülkiyyət hüquqlarının qorunması və əldə edilməsinin dəstəklənməsi;

7.1.10. rəqəmsal inkişaf sahəsində tədqiqatlar aparan istedadlı əcnəbi və vətəndaşlığı olmayan şəxslərin cəlb edilməsi;

7.1.11. innovativ və rəqəmsal inkişaf layihələrinin icrası məqsədilə yüksək texnoloji infrastrukturun əldə edilməsi və yüksəkixtisaslı işçi heyətinin cəlb olunması;

7.1.12. innovativ layihələr, texnologiyalar, xidmətlər, maliyyələşdirilmiş elmi tədqiqatlar barədə ictimaiyyətin məlumatlandırılması, həmçinin yerli və beynəlxalq təşkilatlarla, vətəndaş cəmiyyəti institutları ilə birlikdə və ya onların cəlb edilməsi yolu ilə innovasiya həftəsi, forum, konfrans, seminar, treninq, təlim və digər tədbirlərin təşkili;

7.1.13. innovatorların və innovasiyalara maraq göstərən könüllülərin cəmiyyətin bütün sahələrində fəal iştirakına şərait yaradılması, onların (o cümlədən gənclərin) yaradıcı və innovativ potensialının aşkarlanması üçün tədbirlərin keçirilməsi;

7.1.14. innovasiya fəaliyyətinə başlayan şəxslər və startaplar üçün ilkin zəruri infrastruktur, həmçinin əlverişli şərait yaradılmasının dəstəklənməsi;

7.1.15. startaplara aidiyyəti sahə ilə bağlı beynəlxalq elmi nəşrlərlə tanış olmaq imkanının təmin edilməsi;

7.1.16. rəqəmsal inkişaf və innovasiya sahələrində həyata keçirilən layihələrə xarici investisiyaların cəlb edilməsi;

7.1.17. mikro, kiçik və orta sahibkarlıq subyektlərinin zəruri rəqəmsal alətlər, biliklər və resurslarla gücləndirilməsi;

7.1.18. Agentliyin Nizamnaməsində nəzərdə tutulmuş digər hüquq və vəzifələrin icrasının təmin edilməsi istiqamətində layihələrin (o cümlədən pilot layihələrin) və təşəbbüslərin həyata keçirilməsi.

**8. Agentliyin vəsaitindən istifadənin monitorinqi**

8.1. Vəsaitdən təyinatı üzrə istifadəyə nəzarət məqsədilə Agentlik maliyyələşdirdiyi layihələr üzrə monitorinqlər aparır.

8.2. Agentliklə investisiya maliyyələşməsi barədə müqavilə bağlamış hüquqi şəxslər və fərdi sahibkarlar investisiya maliyyələşməsi ilə bağlı rüblük hesabatı (Agentliyin müəyyən etdiyi formada) tərtib edir və hər rübdən sonrakı ayın 10-dək Agentliyə təqdim edirlər.

8.3. Agentlik layihələrin monitorinqinə müstəqil ekspertləri və mütəxəssisləri cəlb edə bilər.

8.4. Agentlik kreditlər üzrə ildə 1 (bir) dəfədən az olmayaraq, qrantlar üzrə isə layihə müddətində 2 (iki) dəfədən az olmayaraq monitorinqlər keçirir.

8.5. Layihələrin monitorinqi zamanı layihənin maliyyə və icra vəziyyəti qiymətləndirilir.

8.6. Monitorinq aparılması üçün əvvəlcə monitorinqlərin keçirilmə qrafiki tərtib edilir.

8.7. Monitorinqin başlamasından azı 5 (beş) iş günü əvvəl monitorinq barədə sahibkarlıq subyekti və ya layihə rəhbəri məlumatlandırılır.

8.8. Agentliyin apardığı monitorinq zamanı vəsaitdən təyinatı üzrə, habelə bu Qaydada nəzərdə tutulmuş qaydada və şərtlərlə istifadə edilməməsi halları aşkar edildikdə, maliyyələşmə dərhal dayandırılır və vəsaitin geri qaytarılması üçün tədbirlər görülür.

8.9. Müvəkkil kredit təşkilatları, ildə 2 (iki) dəfədən az olmayaraq, Agentliyin vəsaitinin hər bir sahibkarlıq subyektinin layihəsi üzrə monitorinqini aparır və bu barədə Agentliyə monitorinq bitdikdən sonra 7 (yeddi) iş günü müddətində hesabat verirlər.

8.10. Müvəkkil kredit təşkilatının apardığı monitorinq zamanı kredit vəsaitindən təyinatı üzrə istifadə edilməməsi halları aşkar edildikdə, müvəkkil kredit təşkilatı kreditin və hesablanmış faiz borcunun vaxtından əvvəl ödənilməsini sahibkarlıq subyektindən tələb etməlidir. Sahibkarlıq subyektinin öz öhdəliyini yerinə yetirib-yetirməməsindən asılı olmayaraq, müvəkkil kredit təşkilatı 10 (on) əməliyyat günü müddətində bu layihə üzrə əsas kredit və faiz borcunu bütövlükdə Agentliyin hesabına köçürməlidir.

8.11. Agentliyin apardığı monitorinq zamanı kredit vəsaitindən təyinatı üzrə istifadə edilməməsi halları aşkar edildikdə, Agentliyin yazılı tələbinə əsasən, həmin sahibkarlıq subyektinə verilmiş kredit və faiz borcu müvəkkil kredit təşkilatı tərəfindən sahibkarlıq subyektinin onun qarşısında öhdəliklərini icra edib-etməməsindən asılı olmayaraq 10 (on) əməliyyat günü müddətində bütövlükdə Agentliyin hesabına köçürülür. Agentliyin tələbindən sonra müvəkkil kredit təşkilatı vəsaitin köçürülməsini gecikdirərsə, bu Qaydanın 5.5.3-cü yarımbəndinə uyğun olaraq dəbbə pulu ödəyir. Tələb edilən vəsaitin köçürülməsi 30 (otuz) təqvim gününü keçdiyi təqdirdə, Agentlik gecikdirilən məbləğin qaytarılması üçün tədbirlər görür.

8.12. Agentlik müvəkkil kredit təşkilatı tərəfindən bu Qaydanın 8.9-cu və 8.10-cu bəndlərinin tələblərinə riayət olunmadığını aşkar etdikdə, müvəkkil kredit təşkilatına layihə üzrə yeni vəsait ayrılmasını dayandırır və ya onu müvəkkil kredit təşkilatları sırasından çıxarır.

8.13. Monitorinqin nəticəsinin rəsmiləşdirilməsi üçün 2 (iki) nüsxədə akt hazırlanır və monitorinqin iştirakçıları tərəfindən hər 2 (iki) nüsxə imzalanır.

**9. Yekun müddəalar**

9.1. Müvəkkil kredit təşkilatının Agentliyin hesabına qaytardığı kredit vəsaitindən, habelə investisiya qoyuluşu üzrə daxilolmalardan Agentliyin Nizamnaməsinə uyğun olaraq onun hüquq və vəzifələrinin həyata keçirilməsi və bu Qaydanın 1.2-ci bəndində nəzərdə tutulmuş sahələrin maliyyələşdirilməsi üçün istifadə edilir.

9.2. Agentliyin maliyyə vəsaiti hesabına həyata keçirilən layihələr və hazırlanan məhsullar barədə informativ və təbliğat materiallarında onların Agentliyin dəstəyi ilə həyata keçirilməsinə dair qeyd olmalıdır.

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 1** **Bakı şəhəri, 7 yanvar 2025-ci il**

**"Mərkəzi icra hakimiyyəti orqanlarının və dövlətə məxsus hüquqi şəxslərin Azərbaycan Respublikasının adından və ya Azərbaycan Respublikası Nazirlər Kabinetinin adından aldıqları qrantların reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 noyabr tarixli 649-VIQD nömrəli Qanununun tətbiqi, Azərbaycan Respublikası Prezidentinin "Qrant haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 13 iyun tarixli 720 nömrəli və "Texniki yardım və qrant alınmasına dair sazişlərin bağlanması və təsdiq edilməsi Qaydalarının təsdiq edilməsi haqqında" 2006-cı il 17 aprel tarixli 388 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 21 yanvar tarixli 1986 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** "Mərkəzi icra hakimiyyəti orqanlarının və dövlətə məxsus hüquqi şəxslərin Azərbaycan Respublikasının adından və ya Azərbaycan Respublikası Nazirlər Kabinetinin adından aldıqları qrantların reyestrinin aparılması Qaydaları" təsdiq edilsin (əlavə olunur).

**2** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti bu Qərarın 1-ci hissəsi nəzərə alınmaqla "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

**3** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının və dövlətə məxsus hüquqi şəxslərin Azərbaycan Respublikasının adından və ya Azərbaycan Respublikası Nazirlər Kabinetinin adından aldıqları qrantların reyestrinin formalaşdırılması, aparılması, həmçinin fəaliyyətinin təşkili və inkişaf etdirilməsi üçün zəruri tədbirlər görsün.

**4** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə birgə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının və dövlətə məxsus hüquqi şəxslərin Azərbaycan Respublikasının adından və ya Azərbaycan Respublikası Nazirlər Kabinetinin adından aldıqları qrantların reyestrinin "Hökumət buludu"nda yerləşdirilməsini təmin etsin.

**5** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 2** **Bakı şəhəri, 7 yanvar 2025-ci il**

**"Digər dövlətdə yerləşən aviasiya personalının hazırlığı ilə məşğul olan tədris-təlim mərkəzlərinin tanınması Qaydası"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 2.3.18-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Digər dövlətdə yerləşən aviasiya personalının hazırlığı ilə məşğul olan tədris-təlim mərkəzlərinin tanınması Qaydası" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 3** **Bakı şəhəri, 7 yanvar 2025-ci il**

**"Hava gəmisində daşınması qadağan edilən əşya və maddələrin siyahısı"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 2.3.23-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

"Hava gəmisində daşınması qadağan edilən əşya və maddələrin siyahısı" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

***Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

# Baş prokuror Salyanda vətəndaşları qəbul edib



**Baş prokuror Kamran Əliyev Salyan rayon prokurorluğunun inzibati binasında Salyan, Biləsuvar, Neftçala, Hacıqabul rayon, Şirvan şəhər və digər bölgələrdən olan vətəndaşları qəbul edib.**

Qeyd edilib ki, qəbulda iştirak edən 41 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib.

Vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb, eləcə də "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.

**XQ**

**Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli Fərmanı ilə təsdiq edilmişdir**

# "Milli Məkan Məlumatları" informasiya sistemi haqqında əsasnamə

**1. Ümumi müddəalar**

1.1. Bu Əsasnamə "Milli Məkan Məlumatları" informasiya sisteminin (bundan sonra – Sistem) fəaliyyətinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir.

1.2. Sistem rəqəmsal texnologiyalardan, o cümlədən informasiya-kommunikasiya texnologiyalarından istifadə yolu ilə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, dövlət adından yaradılan publik hüquqi şəxslərin və digər büdcə təşkilatlarının, həmçinin yerli özünüidarəetmə orqanlarının (bundan sonra – qurumlar) fəaliyyətinin, habelə digər fiziki və hüquqi şəxslərlə əlaqələrinin operativliyini, səmərəliliyini, şəffaflığını, eləcə də göstərilən xidmətlərin, Sistemdə saxlanılan məlumatların sistemliliyini və əlçatanlığını təmin edir.

1.3. Sistemin formalaşdırılmasının məqsədi dövlət idarəetməsinin optimallaşdırılmasından, eləcə də müvafiq sahə üzrə təhlil aparılmasından, proqnoz və hesabatların hazırlanmasından, habelə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsindən ibarətdir. Sistemin tətbiqi aşağıdakı hədəflərə xidmət edir:

1.3.1. milli məkan məlumatları üzrə texniki tələblər toplusunun, milli məkan məlumatlarının, metaməlumatların formalaşdırılması və inteqrasiyası;

1.3.2. milli məkan məlumatlarının yaradılmasında təkrarçılığın aradan qaldırılması baxımından Azərbaycan Respublikasının dövlət büdcəsindən milli məkan məlumatlarının yaradılmasına ayrılan pul vəsaitinin səmərəli idarə edilməsi;

1.3.3. yaradılmış milli məkan məlumatlarına əlçatanlığın təmin edilməsi;

1.3.4. milli məkan məlumatları üzrə xidmətlərin real vaxt rejimində, keyfiyyətli və operativ göstərilməsi.

1.4. Sistemdə yaradılan, əldə edilən, toplanılan informasiya və elektron sənədlər Azərbaycan Respublikasının mülkiyyətidir.

1.5. Sistemin sahibi və operatoru Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyidir.

1.6. Fərdi məlumatların Sistemdə toplanılmasının və işlənilməsinin məqsədi bu Əsasnamənin 1.2-ci bəndində qeyd olunanları təmin etməkdir. Fərdi məlumatların Sistemdə toplanılması, işlənilməsi və mühafizəsi "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına uyğun olaraq həyata keçirilir.

1.7. Sistemin fəaliyyətinin təşkili, idarə olunması və təkmilləşdirilməsi ilə bağlı xərclər dövlət büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

1.8. Sistem Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın (bundan sonra – Qaydalar) 2.1-ci bəndində qeyd edilən prinsiplər əsasında formalaşdırılır və fəaliyyət göstərir.

1.9. Bu Əsasnamə əldə edilməsi qanunla məhdudlaşdırılmış informasiyanı ehtiva edən informasiya ehtiyatlarına və sistemlərinə, habelə kritik informasiya infrastrukturu obyektinə həmin sahəni tənzimləyən normativ hüquqi aktlara uyğun olaraq tətbiq edilir.

1.10. Bu Əsasnamənin məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.10.1. açıqlanan milli məkan məlumatları – əldə olunması, işlənilməsi, verilməsi və ya istifadəsi normativ hüquqi aktlarla məhdudlaşdırılmayan, maşınla oxuna bilən və ictimaiyyətə təkrar istifadə üçün təqdim edilən milli məkan məlumatları;

1.10.2. aidiyyəti dövlət qurumları – Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş milli məkan məlumatlarının siyahısında və təsnifatında əks olunmuş məlumatların sahibi olan dövlət orqanları (qurumları).

1.11. Bu Əsasnamədə istifadə olunan digər anlayışlar "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda, Qaydalarda, həmçinin Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında müəyyən edilmiş mənaları ifadə edir.

**2. Sistemin texniki-texnoloji infrastrukturu**

2.1. Sistemin texniki-texnoloji infrastrukturu aşağıdakı əsas komponentlərdən ibarətdir:

2.1.1. proqram-texniki vasitələr və proqram təminatı;

2.1.2. telekommunikasiya qurğuları və kanalları;

2.1.3. informasiya ehtiyatı və onu idarəetmə paneli;

2.1.4. ehtiyat nüsxələr;

2.1.5. istismaraqədərki formalaşma mühitləri.

2.2. Proqram-texniki vasitələr və proqram təminatı vətəndaş və biznes yönümlü həllər əsasında "Mobil Prioritetli Tərtibat" prinsipi ilə qurularaq, Sistemin funksiyalarının həyata keçirilməsini, fəaliyyətinin etibarlılığını, təhlükəsizliyini, habelə həmin informasiya ehtiyatlarından və sistemlərindən istifadəni və məlumat mübadiləsini təmin edir.

2.3. Sistem fəaliyyətinin etibarlılığını, təhlükəsizliyini, operativ və keyfiyyətli xidmətlər göstərilməsini, habelə məlumat mübadiləsini təmin edən dayanıqlı, mühafizəli, yüksəkötürücülü fiber-optik əsas və digər ehtiyat telekommunikasiya qurğularına və kanallarına malikdir.

2.4. Qurulma topologiyasına uyğun olaraq, Sistemin telekommunikasiya qurğuları və kanalları iki səviyyədə təşkil edilir:

2.4.1. Sistemin fəaliyyətinin təşkili üçün müvafiq qurumdaxili telekommunikasiya qurğuları və kanalları – Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin struktur bölmələri tərəfindən;

2.4.2. Sistemin digər dövlət informasiya ehtiyatları və sistemləri ilə qarşılıqlı fəaliyyətinin təşkili üçün istifadə edilən telekommunikasiya qurğuları və kanalları – Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (bundan sonra – XRİTDX) tərəfindən.

2.5. Sistemdə formalaşdırılan, Sistemə daxil edilən və ötürülən məlumatlar dövlət informasiya ehtiyatlarının və sistemlərinin informasiya ehtiyatında saxlanılır.

2.6. İdarəetmə paneli Sistemin informasiya ehtiyatının formalaşdırılmasını və idarə edilməsini, o cümlədən həmin informasiya ehtiyatından istifadəni təmin edir.

2.7. Fəaliyyətinin dayanıqlılığının və təhlükəsizliyinin təmin edilməsi məqsədilə Sistem, habelə onda toplanılan məlumatların ehtiyat nüsxələri "Hökumət buludu"nda saxlanılır.

2.8. Sistemdə aparılan dəyişikliklərin yoxlanılması istismaraqədərki formalaşma mühitlərində həyata keçirilir.

**3. Sistemin altsistemləri**

3.1. Sistem aşağıdakı altsistemlərdən ibarətdir:

3.1.1. iştirakçıların təqdim etdiyi orijinal məlumatları vahid formata və struktura çevirən, informasiya sistemlərinə və ehtiyatlarına malik olmayan iştirakçıların milli məkan məlumatlarının Sistemə daxil edilməsini təmin edən "inteqrasiya pəncərəsi" altsistemi;

3.1.2. iştirakçılar tərəfindən Sistemə daxil edilən milli məkan məlumatlarının və metaməlumatların emalını, habelə onların bir-biri ilə əlaqəliliyini təmin edən "milli məkan məlumatlarının emalı" altsistemi;

3.1.3. iştirakçılar tərəfindən Sistemə daxil edilən milli məkan məlumatlarının və metaməlumatların müəyyən edilmiş texniki tələblərə və ya məlumat modellərinə uyğunluğunu, aktuallığını yoxlayan, uyğun olmayan məlumatların düzəliş aparılaraq yenidən təqdim edilməsi üçün geri göndərilməsini təmin edən "milli məkan məlumatlarının monitorinqi" altsistemi;

3.1.4. Sistemin məlumat bazasında toplanılan milli məkan məlumatları əsasında yeni çoxməqsədli xəritələrin yaradılmasını təmin edən "rəqəmsal xəritə" altsistemi;

3.1.5. Sistemin məlumatları barədə statistik hesabatların alınmasını təmin edən "hesabatlılıq" altsistemi;

3.1.6. iştirakçıların və istifadəçilərin Sistemdən istifadəsini təmin edən "idarəetmə" altsistemi.

3.2. Sistemin altsistemləri təyinatı üzrə müvafiq sahədə idarəetmənin təmin edilməsi üçün zəruri olan məlumatların toplanılmasını, emalını, dövlət informasiya ehtiyatlarının və sistemlərinin inteqrasiyasını, monitorinq və təhlil aparılmasını, proqnozlar hazırlanmasını, habelə müvafiq sahədə mərkəzləşdirilmiş elektron xidmətlər göstərilməsini təmin edir.

**4. Sistemə daxil edilən və ötürülən məlumatlar**

4.1. Sistemə daxil edilən və ötürülən milli məkan məlumatlarının tərkibi "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Elektron imza və elektron sənəd haqqında", "Dövlət sirri haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunları, Qaydalar, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 dekabr tarixli 448 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Milli məkan məlumatlarının formalaşdırılması və inteqrasiyası Qaydaları" (bundan sonra – "Milli məkan məlumatlarının formalaşdırılması və inteqrasiyası Qaydaları") ilə və digər normativ hüquqi aktlarla müəyyən olunur.

4.2. Sistemin digər dövlət informasiya ehtiyatları və sistemləri ilə inteqrasiyası, habelə məlumat mübadiləsinin təşkili Qaydalara uyğun olaraq həyata keçirilir.

4.3. Sistemlə digər dövlət informasiya ehtiyatları və sistemləri arasında məlumat mübadiləsini real vaxt rejimində həyata keçirmək mümkün olmadıqda, Sistemə sənədlər (məlumatlar) aidiyyəti qurumlar tərəfindən təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq edilməklə onların elektron kabinetləri vasitəsilə daxil edilir.

4.4. Sistemdə formalaşdırılan sənədlər "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərə uyğun olaraq tərtib olunur və rəsmiləşdirilir.

**5. Sistemdən istifadə qaydası**

5.1. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə malik olan qurumların Sistemdən istifadəsi Qaydaların 4-cü hissəsinə və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra – EHİS) üzərindən məlumat mübadiləsinin həyata keçirilməsi yolu ilə təmin edilir.

5.2. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə malik olmayan qurumların Sistemdən istifadəsi "İnteqrasiya pəncərəsi" altsistemi vasitəsilə təmin edilir. Bu halda qurumların rəhbər şəxsi tərəfindən Sistemdə qeydiyyatdan keçirilən və müvafiq hüquqlar verilən məsul şəxslər Vahid Giriş Sistemi vasitəsilə identikləşdirildikdən sonra avtomatik qaydada yaradılan elektron kabinetlərə daxil olaraq Sistemdən istifadə edirlər.

5.3. Fiziki şəxslər Vahid Giriş Sistemi vasitəsilə identikləşdirildikdən sonra Sistemdə avtomatik qaydada yaradılan elektron kabinetlərinə daxil olaraq informasiya sistemindən istifadə edirlər.

5.4. Sistem vasitəsilə göstərilən elektron xidmətlərdən istifadə EHİS vasitəsilə, ödəniş edilməsi isə elektron kabinetdə ödəniş xidməti təchizatçıları vasitəsilə həyata keçirilir.

5.5. Sistem vasitəsilə təqdim edilən xidmət kanalları (mobil tətbiq, virtual köməkçi və digər) istifadəçilərin Sistemin fəaliyyətində iştirakını və onlardan istifadəsini, habelə elektron xidmətlərdən yararlanmasını təmin edir. Elektron xidmətlər, istifadəçi təcrübəsi və istifadəçi yönümlülüyü nəzərə alınmaqla, xidmət kanalları vasitəsilə təqdim edilir.

5.6. İstifadəçilər açıqlanan milli məkan məlumatları ilə tanış olmaq və mənbəyinə istinad verməklə açıqlanan milli məkan məlumatlarından təkrar istifadə imkanına malikdirlər.

**6. Sahibin vəzifələri və hüquqları**

6.1. Sistemin fəaliyyətini təmin etmək üçün sahibin vəzifələri aşağıdakılardır:

6.1.1. Sistemin idarə olunmasını təşkil etmək, təkmilləşdirilməsi və funksional imkanlarının artırılması istiqamətində tədbirlər görmək;

6.1.2. Sistemin dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestrinə, o cümlədən fərdi məlumatların toplanıldığı, işlənildiyi və mühafizə edildiyi ("Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun 3.2-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla) hallarda isə fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi və dövlət qeydiyyatından keçirilməsi üçün tədbirlər görmək;

6.1.3. fərdi məlumatların informasiya ehtiyatlarının və sistemlərinin, həmçinin fərdi məlumatların Sistemdə toplanılmasının, işlənilməsinin və mühafizəsinin bu sahədə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərinə uyğunluğunun təmin edilməsi üçün tədbirlər görmək;

6.1.4. Sistemin təşkili və fəaliyyəti üzrə qiymətləndirmə aparmaq üçün Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə (bundan sonra – Nazirlik) zəruri şərait yaratmaq, o cümlədən normativ hüquqi aktların tələblərinə uyğun olmasına nəzarət etmək məqsədilə Sistemə çıxış, habelə onun texnoloji infrastrukturu ilə tanışlıq (baxış) və test etmə imkanlarını təmin etmək;

6.1.5. Sistemin informasiya təhlükəsizliyini XRİTDX, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti (bundan sonra – DTX) və operator ilə, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə habelə Nazirliklə birlikdə təmin etmək;

6.1.6. Sistemin informasiya təhlükəsizliyi məqsədilə mövcud və yarana biləcək təhlükələr və ya baş vermiş təhlükəsizlik insidentləri aşkar edildikdə, bu barədə məlumatları dərhal DTX-yə, XRİTDX-yə, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə həmçinin Nazirliyə təqdim etmək, habelə DTX, XRİTDX və Nazirlik tərəfindən bu barədə sorğular verildikdə, həmin sorğuları dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavablandırmaq;

6.1.7. Sistemə daxil edilmiş və (və ya) ötürülmüş milli məkan məlumatlarının mühafizəsinin, habelə daxil edilmiş məlumatların aktuallığının, etibarlılığının, təhrifolunmazlığının, əlçatanlığının, tamlığının və konfidensiallığının təmin edilməsi ilə bağlı tədbirlər görmək;

6.1.8. Sistemə qarşı müdaxilə cəhdləri aşkar etdikdə, bu barədə məlumatları dərhal aidiyyəti hüquq mühafizə orqanına təqdim etmək;

6.1.9. Sistemin, o cümlədən onun ehtiyat nüsxələrinin "Hökumət buludu"nda saxlanılmasının və aparılmasının təmin edilməsi üçün Nazirlik və operator ilə birlikdə tədbirlər görmək;

6.1.10. elektron xidmətlərin "bir pəncərə" prinsipi əsasında EHİS vasitəsilə göstərilməsini təmin etmək;

6.1.11. EHİS-də yaradılan elektron imkanlar vasitəsilə istifadəçilərin tələbi əsasında onlar barəsində məlumatlarda aparılan düzəlişləri təsdiq və ya rədd etmək;

6.1.12. Sistemin çıxışı olan, habelə Sistemin aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

6.1.13. aidiyyəti qurumların Sistemin fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri məlumatları (sənədləri) onlara təqdim etmək;

6.1.14. dövlət xidmətləri göstərilməsi üçün tələb edilən sənədlər barədə informasiya digər dövlət informasiya ehtiyatlarında və sistemlərində olduqda, həmin informasiyanın ilkin mənbədən əldə edilməsi üçün operator və Nazirlik ilə birlikdə tədbirlər görmək;

6.1.15. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi və vəzifələrinin icrası zamanı əldə etdiyi zəruri məlumatları (sənədləri) Sistemə daxil etmək;

6.1.16. Sistemdən sərbəst və maneəsiz istifadənin, habelə onların dayanıqlı və fasiləsiz fəaliyyətinin təmin olunmasına nəzarət etmək;

6.1.17. Sistemdə dəyişikliklər edilməsi üçün operatora göstərişlər vermək və onların həyata keçirilməsinə nəzarət etmək;

6.1.18. Sistemin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərinin layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun olaraq həyata keçirilməsinə nəzarət etmək;

6.1.19. Sistemin funksiyaları barədə iştirakçıları və istifadəçiləri məlumatlandırmaq, onlara metodiki kömək göstərmək, bu sahədə mütəmadi olaraq bilik və bacarıqlarının artırılması məqsədilə iştirakçılar üçün təlimlər təşkil etmək;

6.1.20. iştirakçılarda və istifadəçilərdə yaranmış çətinliklərin müəyyən edilməsi və zəruri təlimatlandırma işlərinin aparılması üçün qaynar xətt təşkil etmək;

6.1.21. Sistemdə statistik hesabatlar hazırlamaq və onların əsasında təhlillər aparmaq;

6.1.22. normativ hüquqi aktlarla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

6.2. Sistemin fəaliyyətini təmin etmək üçün sahibin aşağıdakı hüquqları vardır:

6.2.1. Sistemin formalaşdırılması, istifadəsi və inkişaf etdirilməsi ilə bağlı beynəlxalq təcrübəni və standartları öyrənmək, bu sahədə beynəlxalq təşkilatlarla, habelə Azərbaycan Respublikasının və xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək;

6.2.2. Sistemdən istifadə və onların funksiyaları ilə bağlı maarifləndirmə və məlumatlandırma işləri aparmaq;

6.2.3. Sistemin fəaliyyətinin təmin olunması ilə bağlı zəruri milli məkan məlumatlarını (sənədləri) əldə etmək üçün aidiyyəti qurumlara sorğu vermək və həmin qurumlardan belə məlumatları (sənədləri) almaq;

6.2.4. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**7. Operatorun vəzifələri və hüquqları**

7.1. Operatorun vəzifələri aşağıdakılardır:

7.1.1. Sistemin informasiya təhlükəsizliyini XRİTDX, DTX və sahiblə, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə habelə Nazirliklə birlikdə təmin etmək;

7.1.2. Sistemin informasiya təhlükəsizliyi məqsədilə mövcud və yarana biləcək təhlükələr və ya baş vermiş təhlükəsizlik insidentləri aşkar edildikdə, bu barədə məlumatları dərhal DTX-yə, XRİTDX-yə, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə həmçinin Nazirliyə təqdim etmək, habelə DTX, XRİTDX və Nazirlik tərəfindən bu barədə sorğular verildikdə, həmin sorğuları dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavablandırmaq;

7.1.3. Sistemə qarşı müdaxilə cəhdləri aşkar etdikdə, bu barədə məlumatları dərhal aidiyyəti hüquq mühafizə orqanına təqdim etmək;

7.1.4. Sistemin, o cümlədən onun ehtiyat nüsxələrinin "Hökumət buludu"nda saxlanılmasının və aparılmasının təmin edilməsi üçün Nazirlik və sahiblə birlikdə tədbirlər görmək;

7.1.5. Sistemin təhlükəsizliyi pozulduqda, fəaliyyətində nasazlıq yarandıqda, əsas avadanlıqlarında hər hansı qəza (xəta) baş verdiyi halda dərhal aidiyyəti dövlət orqanlarını və sahibi məlumatlandırmaq, nasazlığın və qəzanın (xətanın) qeydiyyatını aparmaq, dərhal aradan qaldırılması üçün sahibin verdiyi göstərişlərə uyğun təcili tədbirlər görmək, bu mümkün olmadıqda isə Sistemin "Hökumət buludu"nun ehtiyat Data Mərkəzində fəaliyyətini davam etdirməsi üçün Nazirliklə birlikdə zəruri tədbirlər görmək;

7.1.6. Sistemin fəaliyyətinin idarə olunması, təkmilləşdirilməsi və onun funksional imkanlarının artırılması istiqamətində sahiblə razılaşdırmaqla, texniki tədbirlər görmək və bu barədə Sistemin fəaliyyətində iştirak edən aidiyyəti dövlət qurumlarını məlumatlandırmaq;

7.1.7. Sistemdən sərbəst və maneəsiz istifadəni, onların dayanıqlı və fasiləsiz fəaliyyətini təmin etmək məqsədilə Sistemin proqram kompleksinə nəzarəti həyata keçirmək və mütəmadi texniki baxış təşkil etmək;

7.1.8. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi və vəzifələrinin icrası zamanı əldə etdiyi zəruri məlumatları (sənədləri) Sistemə daxil etmək;

7.1.9. Sistemi EHİS-ə inteqrasiya etmək, digər dövlət informasiya ehtiyatı və sistemi ilə məlumat mübadiləsini EHİS vasitəsilə həyata keçirmək;

7.1.10. Sistemə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

7.1.11. Sistemin komponentlərinin və proqram təminatının təyinatı üzrə istismarını, texniki xidmətini, təmirini və yenilənməsini təmin etmək, təkmilləşdirilməsi üçün profilaktik iş aparmaq;

7.1.12. Nazirliyin və sahibin bu Əsasnamə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq verdikləri təkliflər əsasında Sistemdə dəyişikliklər edilməsi üçün tədbirlər görmək;

7.1.13. sahibin göstərişi ilə normativ hüquqi aktlarda edilən dəyişikliklərə əsasən proqram təminatında uyğunlaşdırmalar aparılmasını, eləcə də yeni proqram modullarının yazılmasını və sınaqlar keçirilməsini təmin etmək;

7.1.14. Sistemin formalaşdırılması, aparılması, inteqrasiyası və ya arxivləşdirilməsi ilə bağlı sənədləri, texniki məlumatları sahibə və Nazirliyə təqdim etmək;

7.1.15. Sistemin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərini layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun formada həyata keçirmək;

7.1.16. Sistemdən istifadəni, habelə onlar üzərindən göstərilən elektron xidmətlərin əlçatanlığını təmin etmək üçün formalaşdırılan mobil tətbiqi elektron marketlərdə yerləşdirmək;

7.1.17. aidiyyəti qurumların Sistemin fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri məlumatları (sənədləri) onlara təqdim etmək;

7.1.18. Sistemdə "açar söz" əsasında axtarış imkanı yaratmaq;

7.1.19. Sistemdə milli məkan məlumatlarının görüntülənməsi, götürülməsi, köçürülməsi, miqyasının artırılması və azaldılması, yüklənilməsi, formatının dəyişdirilməsi və birbaşa əldə edilməsi imkanını yaratmaq;

7.1.20. Sistemə qeyri-qanuni daxilolma, müdaxilə cəhdinin və saxtalaşdırma hallarının qarşısını almaq, habelə giriş və əməliyyat tarixçələrini (loqları) azı 5 (beş) il müddətində saxlamaq;

7.1.21. "Milli məkan məlumatlarının formalaşdırılması və inteqrasiyası Qaydaları"nın 3.13-cü bəndində göstərilmiş əsasdan əlavə, açıqlanan milli məkan məlumatlarından mənbəyinə istinad verilməyərək təkrar istifadə edildikdə və ya bu Əsasnamə ilə müəyyən edilmiş tələblər yerinə yetirilmədikdə, istifadəçinin Sistemdəki məlumatlarına giriş hüquqlarını məhdudlaşdırmaq;

7.1.22. normativ hüquqi aktlarla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

7.2. Operatorun aşağıdakı hüquqları vardır:

7.2.1. Sistemin fəaliyyətinin təmin olunması ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün aidiyyəti qurumlara sorğu vermək və həmin qurumlardan belə məlumatları (sənədləri) almaq;

7.2.2. Sistemin təkmilləşdirilməsi istiqamətində rəy və təkliflər vermək;

7.2.3. Sistemlə məlumat mübadiləsində iştirak edəcək digər informasiya ehtiyatları və sistemləri müəyyən edilmiş texniki və funksional tələblərə cavab vermədiyi hallarda onlarda zəruri dəyişikliklər edilməsi məqsədilə məsələ qaldırmaq;

7.2.4. Sistemin parametrlərində sahiblə razılaşdırmaqla dəyişiklik etmək və bütün mümkün parametrlər üzrə hesabatlar əldə etmək;

7.2.5. iştirakçılar və istifadəçilər Sistemin təhlükəsiz və effektiv fəaliyyətinin pozulmasına səbəb olan əməllərə yol verdikdə, Sistemə giriş imkanını sahiblə razılaşdırmaqla ləğv etmək və ya məhdudlaşdırmaq;

7.2.6. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**8. İştirakçıların vəzifələri və hüquqları**

8.1. İştirakçıların vəzifələri aşağıdakılardır:

8.1.1. Sistemə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

8.1.2. Sistemə daxil olmağa imkan verən elektron imza vasitələrinin konfidensiallığını (məxfiliyini) təmin etmək;

8.1.3. aktual, tam və etibarlı məlumatları (sənədləri) vaxtında və dolğun şəkildə Sistemə daxil etmək (ötürmək);

8.1.4. məlumatların mühafizəsini təmin edən avadanlıq və proqram vasitələrinə müdaxilə etməmək;

8.1.5. Sistemdən, Sistemdə olan məlumatlardan (sənədlərdən) yalnız xidməti məqsədlər üçün istifadə etmək;

8.1.6. Sistemdə saxlanılan milli məkan məlumatlarında (sənədlərdə) aşkar edilmiş səhvlərin aradan qaldırılması məqsədilə dərhal sahibə və ya operatora məlumat vermək;

8.1.7. sahibin və ya operatorun Sistemə daxil etdiyi və iştirakçının bilavasitə fəaliyyəti ilə bağlı olan yeni milli məkan məlumatlarını izləmək;

8.1.8. Sistemin fəaliyyətinə zərər gətirəcək, habelə onların fəaliyyətinin ləngiməsinə və ya dayanmasına səbəb ola biləcək hərəkətlərə yol verməmək;

8.1.9. məlumat mübadiləsi zamanı aşkar olunmuş çatışmazlıqların və yaranan nasazlıqların aradan qaldırılması ilə bağlı tədbirlər görmək, bu barədə sahibə və Nazirliyə məlumat vermək;

8.1.10. öz təşəbbüsləri, habelə Nazirliyin və sahibin bu Əsasnamə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq verdikləri təkliflər əsasında sahibi və ya operatoru olduğu informasiya sistemində zəruri dəyişikliklər etmək.

8.2. İştirakçıların aşağıdakı hüquqları vardır:

8.2.1. Sistemin fəaliyyəti ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün sahibə və ya operatora sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

8.2.2. Sistemin təkmilləşdirilməsi istiqamətində sahibə və ya operatora təkliflər vermək.

**9. İstifadəçilərin hüquqları**

9.1. İstifadəçilərin Sistemdən istifadə ilə bağlı aşağıdakı hüquqları vardır:

9.1.1. Sistemdə açıqlanan milli məkan məlumatları ilə tanış olmaq və onları əldə etmək;

9.1.2. qanunla müəyyən edilmiş hallar istisna olmaqla, özləri barəsində məlumatlarla tanış olmaq, onları əldə etmək, yaxud dəqiqləşdirilməsi üçün sahibə və ya operatora müraciət etmək;

9.1.3. elektron kabinetləri üzərindən müraciətlərini göndərmək, elektron xidmətlərdən istifadə etmək və ödənişləri həyata keçirmək;

9.1.4. sahiblə, operatorla, iştirakçılarla və digər istifadəçilərlə qarşılıqlı əlaqəni və sənəd (məlumat) mübadiləsini elektron qaydada həyata keçirmək;

9.1.5. Sistemin fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflər vermək;

9.1.6. Sistemdən istifadə ilə bağlı hüquqlarının pozulmasından inzibati qaydada və (və ya) məhkəməyə şikayət etmək;

9.1.7. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli Fərmanı ilə təsdiq edilmişdir**

# "Rəqəmsal ekologiya" informasiya sistemi haqqında əsasnamə

**1. Ümumi müddəalar**

1.1. Bu Əsasnamə "Rəqəmsal ekologiya" informasiya sisteminin (bundan sonra – REİS) fəaliyyətinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir.

1.2. REİS rəqəmsal texnologiyalardan, o cümlədən informasiya-kommunikasiya texnologiyalarından istifadə yolu ilə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (bundan sonra – ETSN) fəaliyyətinin, habelə digər fiziki və hüquqi şəxslərlə əlaqələrinin operativliyini, səmərəliliyini, şəffaflığını, eləcə də göstərilən xidmətlərin, həmin informasiya ehtiyatlarında və sistemlərində saxlanılan məlumatların sistemliliyini və əlçatanlığını təmin edir.

1.3. REİS-in formalaşdırılmasının məqsədi dövlət idarəetməsinin optimallaşdırılmasından, eləcə də müvafiq sahə üzrə təhlil aparılmasından, proqnoz və hesabatların hazırlanmasından və göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsindən ibarətdir.

1.4. REİS-də yaradılan, əldə edilən, toplanılan informasiya və elektron sənədlər Azərbaycan Respublikasının mülkiyyətidir.

1.5. Fərdi məlumatların REİS-də toplanılmasının və işlənilməsinin məqsədi bu Əsasnamənin 1.2-ci bəndində qeyd olunanları təmin etməkdir. Fərdi məlumatların REİS-də toplanılması, işlənilməsi və mühafizəsi "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına uyğun olaraq həyata keçirilir.

1.6. REİS-in fəaliyyətinin təşkili, onun saxlanılması, idarə olunması və təkmilləşdirilməsi ilə bağlı xərclər ETSN-nin sərəncamında olan məqsədli büdcə fondları və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

1.7. REİS Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın (bundan sonra – Qaydalar) 2.1-ci bəndində qeyd edilən prinsiplər əsasında formalaşdırılır və fəaliyyət göstərir.

1.8. Bu Əsasnamədə istifadə olunan anlayışlar "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda, Qaydalarda, həmçinin Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında müəyyən edilmiş mənaları ifadə edir.

**2. REİS-in texniki-texnoloji infrastrukturu**

2.1. REİS-in texniki-texnoloji infrastrukturu aşağıdakı əsas komponentlərdən ibarətdir:

2.1.1. proqram-texniki vasitələr və proqram təminatı;

2.1.2. telekommunikasiya qurğuları və kanalları;

2.1.3. informasiya ehtiyatı və onu idarəetmə paneli;

2.1.4. ehtiyat nüsxələr;

2.1.5. istismaraqədərki formalaşma mühitləri.

2.2. Proqram-texniki vasitələr və proqram təminatı vətəndaş və biznes yönümlü həllər əsasında "Mobil Prioritetli Tərtibat" prinsipi ilə qurularaq, REİS-in funksiyalarının həyata keçirilməsini, fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, habelə REİS-dən istifadəni və məlumat mübadiləsini təmin edir.

2.3. REİS fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, operativ və keyfiyyətli xidmətlər göstərilməsini, habelə məlumat mübadiləsini təmin edən dayanıqlı, mühafizəli, yüksəkötürücülü fiber-optik əsas və digər ehtiyat telekommunikasiya qurğularına və kanallarına malikdir.

2.4. Qurulma topologiyasına uyğun olaraq REİS-in telekommunikasiya qurğuları və kanalları iki səviyyədə təşkil edilir:

2.4.1. REİS-in fəaliyyətinin təşkili üçün qurumdaxili telekommunikasiya qurğuları və kanalları – ETSN-nin struktur bölmələri tərəfindən;

2.4.2. REİS-in digər dövlət informasiya ehtiyatları və sistemləri ilə qarşılıqlı fəaliyyətinin təşkili üçün istifadə edilən telekommunikasiya qurğuları və kanalları – Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (bundan sonra – XRİTDX) tərəfindən.

2.5. REİS-də formalaşdırılan, REİS-ə daxil edilən və ötürülən məlumatlar REİS-in informasiya ehtiyatında saxlanılır.

2.6. İdarəetmə paneli REİS-in informasiya ehtiyatının formalaşdırılmasını və idarə edilməsini, o cümlədən REİS-dən istifadəni təmin edir.

2.7. Fəaliyyətinin dayanıqlılığının və təhlükəsizliyinin təmin edilməsi məqsədilə REİS, o cümlədən REİS-də toplanılan məlumatlar, eləcə də REİS-in və həmin məlumatların ehtiyat nüsxələri "Hökumət buludu"nda saxlanılır.

2.8. REİS-də aparılan dəyişikliklərin yoxlanılması istismaraqədərki formalaşma mühitlərində həyata keçirilir.

**3. REİS-in altsistemləri**

3.1. REİS-in altsistemləri aşağıdakılardır:

3.1.1. "Meşə" altsistemi

3.1.2. "Ekoloji təhlükəsizlik" altsistemi

3.1.3. "Ekoloji ekspertiza" altsistemi

3.1.4. "Ekoloji monitorinq" altsistemi

3.1.5. "Tullantıların idarə olunmasına dövlət nəzarəti" altsistemi

3.1.6. "Bioloji müxtəliflik" altsistemi

3.1.7. "Hidrometeorologiya" altsistemi

3.1.8. "Geologiya" altsistemi

3.1.9. "Geodeziya və kartoqrafiya" altsistemi

3.1.10. "Yaşıllaşdırma və landşaft quruluşu" altsistemi

3.1.11. "İqlim" altsistemi

3.1.12. "Laboratoriya" altsistemi

3.1.13. "Vətəndaş müraciətləri ilə iş" altsistemi.

3.2. REİS-in altsistemləri təyinatı üzrə müvafiq sahədə idarəetmənin təmin edilməsi üçün zəruri olan məlumatların toplanılmasını və emalını, REİS-in inteqrasiyasını, monitorinq və təhlil aparılmasını, proqnozlar hazırlanmasını və müvafiq sahədə elektron xidmətlər göstərilməsini təmin edir.

3.3. REİS-in strukturuna daxil olan altsistemlər vasitəsilə aşağıdakılar təmin edilir:

3.3.1. "Meşə" altsistemi vasitəsilə – Azərbaycan Respublikasının Meşə Məcəlləsinə uyğun olaraq xidmətlərin elektronlaşdırılması, meşə quruluşu, meşə fondundan istifadə, onun mühafizəsi, qorunması, bərpası ilə əlaqədar məlumatların toplanılması və sistemləşdirilməsi, habelə dövlət meşə kadastrının aparılması;

3.3.2. "Ekoloji təhlükəsizlik" altsistemi vasitəsilə – ETSN-nin fəaliyyət istiqamətlərinə uyğun, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş inzibati xətalar aşkar edildikdən sonra bununla bağlı tədbirlər görülməsi, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş cinayət əlamətləri aşkarlandıqda isə aidiyyəti üzrə məlumatların təqdim edilməsi, ətraf mühitin çirkləndirilməsinə görə ödənişlərin tətbiqi proseslərinin idarə olunması, həmçinin ətraf mühitin mühafizəsi sahəsində dövlət nəzarətinin həyata keçirilməsi zamanı əldə edilmiş məlumatların toplanılması və sistemləşdirilməsi;

3.3.3. "Ekoloji ekspertiza" altsistemi vasitəsilə – "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Yaşıllıqların mühafizəsi haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası qanunlarına uyğun olaraq, təsərrüfat fəaliyyətinin və digər fəaliyyətlərin dövlət ekoloji ekspertizasından keçirilməsi də daxil olmaqla, ekoloji təhlükəsizliyin tələblərinə uyğunluğunu müəyyən edən xidmətlərin elektronlaşdırılması, sənədlər üzrə məlumatların toplanılması və sistemləşdirilməsi;

3.3.4. "Ekoloji monitorinq" altsistemi vasitəsilə – "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ETSN-nin fəaliyyət istiqamətləri üzrə keçirilən monitorinqlərlə əlaqədar məlumatların toplanılması, emalı və sistemləşdirilməsi;

3.3.5. "Tullantıların idarə olunmasına dövlət nəzarəti" altsistemi vasitəsilə – "Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tullantıların əmələ gəldiyi fəaliyyət prosesinə, habelə tullantıların yığılması (toplanması), çeşidlənməsi, daşınması, yerləşdirilməsi, emalı, istifadəsi, utilizasiyası, zərərsizləşdirilməsi və basdırılması üzrə fəaliyyətə nəzarət çərçivəsində əldə edilmiş məlumatların toplanılması və sistemləşdirilməsi;

3.3.6. "Bioloji müxtəliflik" altsistemi vasitəsilə – "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında", "Ovçuluq haqqında", "Heyvanlar aləmi haqqında", "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq xidmətlərin elektronlaşdırılması, bioloji müxtəlifliyin, genetik fondun və təbii ekoloji sistemin qorunub saxlanılması, bərpası, artırılması, davamlı inkişafı, monitorinqi, xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərindən məqsədli istifadə, heyvanlar aləminin və ovçuluq təsərrüfatlarının, ekoturizmin inkişafı üzrə məlumatların toplanılması və sistemləşdirilməsi, həmçinin xüsusi mühafizə olunan təbiət ərazilərinin, dövlət ovçuluq kadastrının, heyvanlar aləminin dövlət kadastrının aparılması;

3.3.7. "Hidrometeorologiya" altsistemi vasitəsilə – "Hidrometeorologiya fəaliyyəti haqqında", "Atmosfer havasının mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq hidrometeoroloji məlumatların toplanılması, monitorinqi və sistemləşdirilməsi;

3.3.8. "Geologiya" altsistemi vasitəsilə – "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, ETSN-nin yerin təki sahəsində fəaliyyəti ilə bağlı məlumatların toplanması və sistemləşdirilməsi, geoloji informasiyanın rəqəmsal idarə edilməsi ilə bağlı proseslərin aparılması;

3.3.9. "Geodeziya və kartoqrafiya" altsistemi vasitəsilə – "Geodeziya və kartoqrafiya haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla), topoqrafiya və kartoqrafiya işlərinin təşkili ilə bağlı məlumatların və onların nəticəsi olan elmi-texniki materialların, rəqəmsal kartoqrafiya məlumatı banklarının, elektron xəritələrin, geodeziya məlumatları və coğrafi adlar üzrə kataloqların yaradılması, ETSN-nin fəaliyyət istiqamətlərinə uyğun məkan məlumatlarının toplanılması və sistemləşdirilməsi;

3.3.10. "Yaşıllaşdırma və landşaft quruluşu" altsistemi vasitəsilə – yaşıllaşdırma sahəsinə dair məlumatların toplanılması və sistemləşdirilməsi;

3.3.11. "İqlim" altsistemi vasitəsilə – atmosfer havasına atılan istixana effekti yaradan qazlara dair məlumatların toplanılması, monitorinqi və sistemləşdirilməsi;

3.3.12. "Laboratoriya" altsistemi vasitəsilə – kimyəvi, bioloji, radioloji, geoloji analizlərin aparılması fəaliyyəti ilə bağlı məlumatların toplanılması və sistemləşdirilməsi;

3.3.13. "Vətəndaş müraciətləri ilə iş" altsistemi vasitəsilə – müxtəlif kommunikasiya kanalları (e-poçt, çağrı mərkəzi, sosial şəbəkə hesabları) ilə ETSN-yə müraciət etmiş şəxslərin müraciətlərinə dair məlumatların "Vətəndaşların müraciətləri haqqında" və "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq toplanılması, cavablandırılması və sistemləşdirilməsi.

**4. REİS-ə ötürülən məlumatlar**

4.1. REİS-ə ötürülən məlumatlar aşağıdakılardır:

4.1.1. Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi məlumatları (şəxsin soyadı, adı, atasının adı, doğum tarixi, qeydiyyat ünvanı, fotoşəkli, FİN-i);

4.1.2. ov silahından istifadəyə dair icazə sənədinin məlumatları (icazə sənədinin nömrəsi, qeydiyyat tarixi, etibarlılıq müddəti, silahın markası, nömrəsi, kalibri, istehsal tarixi);

4.1.3. vergi ödəyicisi barədə məlumatlar (VÖEN, hüquqi şəxsin adı);

4.1.4. şəxsin pensiya və qüvvədə olan əmək müqaviləsi üzrə məlumatlar (şəxsin pensiyaçı olub-olmaması barədə məlumat, şəxsin qüvvədə olan əmək müqaviləsi üzrə cari iş yeri barədə məlumat).

4.2. REİS-in digər dövlət informasiya ehtiyatları və sistemləri ilə inteqrasiyası, habelə məlumat mübadiləsinin təşkili Qaydalara uyğun olaraq həyata keçirilir.

4.3. REİS ilə digər dövlət informasiya ehtiyatları və sistemləri arasında məlumat mübadiləsini real vaxt rejimində həyata keçirmək mümkün olmadıqda, sənədlər (məlumatlar) həmin informasiya ehtiyatlarına və sistemlərinə aidiyyəti qurumlar tərəfindən təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq edilməklə onların elektron kabinetləri vasitəsilə daxil edilir.

4.4. REİS-də formalaşdırılan sənədlər "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərə uyğun olaraq tərtib olunur və rəsmiləşdirilir.

**5. REİS-dən istifadə qaydası**

5.1. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə malik olan qurumların REİS-dən istifadəsi onların informasiya ehtiyatları və sistemləri Qaydaların 4-cü hissəsinə və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Elektron Hökumət İnformasiya Sisteminə (bundan sonra – EHİS) inteqrasiya edildikdən sonra məlumat mübadiləsinin həyata keçirilməsi yolu ilə təmin edilir.

5.2. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə malik olmayan qurumların və digər hüquqi şəxslərin REİS-dən istifadəsi onların elektron kabinetləri vasitəsilə təmin edilir. Bu halda qurumların və digər hüquqi şəxslərin rəhbər şəxsi tərəfindən REİS-də qeydiyyatdan keçirilən və müvafiq hüquqlar verilən məsul şəxslər Vahid Giriş Sistemi vasitəsilə identikləşdirildikdən sonra avtomatik qaydada yaradılan elektron kabinetlərə daxil olaraq həmin informasiya ehtiyatlarından və sistemlərindən istifadə edirlər.

5.3. Fiziki şəxslər Vahid Giriş Sistemi vasitəsilə REİS-də identikləşdirildikdən sonra avtomatik qaydada yaradılan elektron kabinetlərinə daxil olaraq REİS-dən istifadə edirlər.

5.4. "Elektron xidmətlər" portalı vasitəsilə ETSN-nin fəaliyyəti ilə bağlı elektron xidmətlərin göstərilməsi, müraciətlərin normativ hüquqi aktlarla müəyyən edilmiş müddətlərdə qəbulu və aidiyyəti üzrə yönəldilməsi, habelə müraciət etmiş fiziki və hüquqi şəxslərə nəticənin təqdim edilməsi ilə bağlı proseslərin idarə olunması təmin edilir.

5.5. REİS vasitəsilə göstərilən elektron xidmətlərdən istifadə REİS-in rəsmi internet informasiya ehtiyatı (EHİS-ə keçid verilməklə) və EHİS vasitəsilə, ödəniş edilməsi isə elektron kabinetdə ödəniş xidməti təchizatçıları vasitəsilə həyata keçirilir.

5.6. REİS vasitəsilə təqdim edilən xidmət kanalları (portal, mobil tətbiq, virtual köməkçi və digər) istifadəçilərin REİS-in fəaliyyətində iştirakını və onlardan istifadəsini, habelə elektron xidmətlərdən yararlanmasını təmin edir. Elektron xidmətlər, istifadəçi təcrübəsi və istifadəçi yönümlülüyü nəzərə alınmaqla, xidmət kanalları vasitəsilə təqdim edilir.

**6. Sahibin vəzifələri və hüquqları**

6.1. REİS-in fəaliyyətini təmin etmək üçün sahibin vəzifələri aşağıdakılardır:

6.1.1. REİS-in idarə olunmasını təşkil etmək, təkmilləşdirilməsi və funksional imkanlarının artırılması istiqamətində tədbirlər görmək;

6.1.2. REİS-in dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestrinə, o cümlədən REİS-də toplanılan, işlənilən və mühafizə edilən fərdi məlumatların ("Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun 3.2-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla) fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi və dövlət qeydiyyatından keçirilməsi üçün tədbirlər görmək;

6.1.3. fərdi məlumatların REİS-də toplanılmasının, işlənilməsinin və mühafizəsinin bu sahədə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərinə uyğunluğunun təmin edilməsi üçün tədbirlər görmək;

6.1.4. REİS-in təşkili və fəaliyyəti üzrə qiymətləndirmə aparmaq üçün Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə (bundan sonra – Nazirlik) zəruri şərait yaratmaq, o cümlədən normativ hüquqi aktların tələblərinə uyğun olmasına nəzarət etmək məqsədilə REİS-ə çıxış, habelə onların texnoloji infrastrukturu ilə tanışlıq (baxış) və testetmə imkanlarını təmin etmək;

6.1.5. REİS-in informasiya təhlükəsizliyini XRİTDX, operator, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə habelə Nazirliklə birlikdə təmin etmək;

6.1.6. REİS-in informasiya təhlükəsizliyi məqsədilə mövcud və yarana biləcək təhlükələr və ya baş vermiş təhlükəsizlik insidentləri aşkar edildikdə, bu barədə məlumatları dərhal XRİTDX-ya, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə həmçinin Nazirliyə təqdim etmək, habelə XRİTDX və Nazirlik tərəfindən bu barədə sorğular verildikdə həmin sorğuları dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavablandırmaq;

6.1.7. REİS-ə daxil edilmiş və (və ya) ötürülmüş məlumatların mühafizəsinin, habelə daxil edilmiş məlumatların aktuallığının, etibarlılığının, təhrifolunmazlığının, əlçatanlığının, tamlığının və konfidensiallığının təmin edilməsi ilə bağlı tədbirlər görmək;

6.1.8. REİS-ə qarşı müdaxilə cəhdləri aşkar etdikdə, bu barədə məlumatları dərhal aidiyyəti hüquq mühafizə orqanına təqdim etmək;

6.1.9. REİS-in, o cümlədən onun ehtiyat nüsxələrinin "Hökumət buludu"nda saxlanılmasının və aparılmasının təmin edilməsi üçün Nazirlik və operatorla birlikdə tədbirlər görmək;

6.1.10. elektron xidmətlərin "bir pəncərə" prinsipi əsasında EHİS vasitəsilə göstərilməsini təmin etmək;

6.1.11. EHİS-də yaradılan elektron imkanlar vasitəsilə istifadəçilərin tələbi əsasında onlar barəsində məlumatlarda aparılan düzəlişləri təsdiq və ya rədd etmək;

6.1.12. REİS-ə çıxışı olan, habelə onların aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

6.1.13. aidiyyəti qurumların REİS-in fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri məlumatları (sənədləri) onlara təqdim etmək;

6.1.14. dövlət xidmətləri göstərilməsi üçün tələb edilən sənədlər barədə informasiya digər dövlət informasiya ehtiyatlarında və sistemlərində olduqda, həmin informasiyanın ilkin mənbədən əldə edilməsi üçün operator və Nazirliklə birlikdə tədbirlər görmək;

6.1.15. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi və vəzifələrinin icrası zamanı əldə etdiyi zəruri məlumatları (sənədləri) REİS-ə daxil etmək;

6.1.16. REİS-dən sərbəst və maneəsiz istifadənin, habelə onun dayanıqlı və fasiləsiz fəaliyyətinin təmin olunmasına nəzarət etmək;

6.1.17. REİS-də dəyişikliklər edilməsi üçün operatora göstərişlər vermək və onların həyata keçirilməsinə nəzarət etmək;

6.1.18. REİS-in formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərinin layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun formada aparılmasına nəzarət etmək;

6.1.19. normativ hüquqi aktlarla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

6.2. REİS-in fəaliyyətini təmin etmək üçün sahibin aşağıdakı hüquqları vardır:

6.2.1. REİS-in formalaşdırılması, istifadəsi və inkişaf etdirilməsi ilə bağlı beynəlxalq təcrübəni və standartları öyrənmək, bu sahədə beynəlxalq təşkilatlarla, habelə Azərbaycan Respublikasının və xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək;

6.2.2. REİS-dən istifadə və onun funksiyaları ilə bağlı maarifləndirmə və məlumatlandırma işləri aparmaq;

6.2.3. REİS-in fəaliyyətinin təmin olunması ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün aidiyyəti qurumlara sorğu vermək və həmin qurumlardan belə məlumatları (sənədləri) almaq;

6.2.4. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**7. Operatorun vəzifələri və hüquqları**

7.1. Operatorun vəzifələri aşağıdakılardır:

7.1.1. REİS-in informasiya təhlükəsizliyini XRİTDX və sahiblə, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə habelə Nazirliklə birlikdə təmin etmək;

7.1.2. REİS-in informasiya təhlükəsizliyi məqsədilə mövcud və yarana biləcək təhlükələr və ya baş vermiş təhlükəsizlik insidentləri aşkar edildikdə, bu barədə məlumatları dərhal XRİTDX-ya, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə həmçinin Nazirliyə təqdim etmək, habelə XRİTDX və Nazirlik tərəfindən bu barədə sorğular verildikdə həmin sorğuları dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavablandırmaq;

7.1.3. REİS-ə qarşı müdaxilə cəhdləri aşkar etdikdə, bu barədə məlumatları dərhal aidiyyəti hüquq mühafizə orqanına təqdim etmək;

7.1.4. REİS-in, o cümlədən onun ehtiyat nüsxələrinin "Hökumət buludu"nda saxlanılmasının və aparılmasının təmin edilməsi üçün Nazirlik və sahiblə birlikdə tədbirlər görmək;

7.1.5. REİS-in təhlükəsizliyi pozulduqda, fəaliyyətində nasazlıq yarandıqda, əsas avadanlıqlarında hər hansı qəza (xəta) baş verdiyi halda dərhal aidiyyəti dövlət orqanlarını və sahibi məlumatlandırmaq, nasazlığın və qəzanın (xətanın) qeydiyyatını aparmaq, dərhal aradan qaldırılması üçün sahibin verdiyi göstərişlərə uyğun təcili tədbirlər görmək, bu mümkün olmadıqda isə həmin informasiya ehtiyatlarının və sistemlərinin "Hökumət buludu"nun ehtiyat Data Mərkəzində fəaliyyətini davam etdirməsi üçün Nazirliklə birlikdə zəruri tədbirlər görmək;

7.1.6. REİS-in fəaliyyətinin idarə olunması, təkmilləşdirilməsi və onun funksional imkanlarının artırılması istiqamətində, sahiblə razılaşdırmaqla, texniki tədbirlər görmək və bu barədə həmin informasiya ehtiyatlarının və sistemlərinin fəaliyyətində iştirak edən aidiyyəti dövlət qurumlarını məlumatlandırmaq;

7.1.7. REİS-dən sərbəst və maneəsiz istifadəni, onun dayanıqlı və fasiləsiz fəaliyyətini təmin etmək məqsədilə REİS-in proqram kompleksinə nəzarəti həyata keçirmək və mütəmadi texniki baxışı təşkil etmək;

7.1.8. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi və vəzifələrinin icrası zamanı əldə etdiyi zəruri məlumatları (sənədləri) REİS-ə daxil etmək;

7.1.9. REİS-i EHİS-ə inteqrasiya etmək, digər dövlət informasiya ehtiyatı və sistemi ilə məlumat mübadiləsini EHİS vasitəsilə həyata keçirmək;

7.1.10. REİS-ə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

7.1.11. REİS-in komponentlərinin və proqram təminatının təyinatı üzrə istismarını, texniki xidmətini, təmirini və yenilənməsini təmin etmək, təkmilləşdirilməsi üçün profilaktik iş aparmaq;

7.1.12. Nazirliyin və sahibin bu Əsasnamə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq verdikləri təkliflər əsasında REİS-də dəyişikliklər edilməsi üçün tədbirlər görmək;

7.1.13. sahibin göstərişi ilə normativ hüquqi aktlarda edilən dəyişikliklərə əsasən proqram təminatında uyğunlaşdırmalar aparılmasını, eləcə də yeni proqram modullarının yazılmasını və sınaqlar keçirilməsini təmin etmək;

7.1.14. REİS-in formalaşdırılması, aparılması, inteqrasiyası və ya arxivləşdirilməsi ilə bağlı sənədləri və texniki məlumatları sahibə və Nazirliyə təqdim etmək;

7.1.15. REİS-in formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərini layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun formada aparmaq;

7.1.16. REİS-dən istifadəni, habelə onun üzərindən göstərilən elektron xidmətlərin əlçatanlığını təmin etmək üçün formalaşdırılan mobil tətbiqi elektron marketlərdə yerləşdirmək (mobil tətbiq olduğu halda);

7.1.17. aidiyyəti qurumların REİS-in fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri məlumatları (sənədləri) onlara təqdim etmək;

7.1.18. normativ hüquqi aktlarla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

7.2. Operatorun aşağıdakı hüquqları vardır:

7.2.1. REİS-in fəaliyyətinin təmin olunması ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün aidiyyəti qurumlara sorğu vermək və həmin qurumlardan belə məlumatları (sənədləri) almaq;

7.2.2. REİS-in təkmilləşdirilməsi istiqamətində rəy və təkliflər vermək;

7.2.3. REİS-lə məlumat mübadiləsində iştirak edəcək digər informasiya ehtiyatları və sistemləri müəyyən edilmiş texniki və funksional tələblərə cavab vermədiyi hallarda onlarda zəruri dəyişikliklər edilməsi məqsədilə məsələ qaldırmaq;

7.2.4. REİS-in parametrlərində sahiblə razılaşdırmaqla dəyişiklik etmək və bütün mümkün parametrlər üzrə hesabatlar əldə etmək;

7.2.5. iştirakçılar və istifadəçilər REİS-in təhlükəsiz və effektiv fəaliyyətinin pozulmasına səbəb olan əməllərə yol verdikdə, informasiya ehtiyatlarına və sistemlərinə giriş imkanını sahiblə razılaşdırmaqla ləğv etmək və ya məhdudlaşdırmaq;

7.2.6. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**8. İştirakçıların vəzifələri və hüquqları**

8.1. İştirakçıların vəzifələri aşağıdakılardır:

8.1.1. REİS-ə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

8.1.2. REİS-ə daxil olmağa imkan verən elektron imza vasitələrinin konfidensiallığını (məxfiliyini) təmin etmək;

8.1.3. aktual, tam və etibarlı məlumatları (sənədləri) vaxtında və dolğun şəkildə REİS-ə daxil etmək (ötürmək);

8.1.4. məlumatların mühafizəsini təmin edən avadanlıq və proqram vasitələrinə müdaxilə etməmək;

8.1.5. REİS-dən, habelə REİS-də olan məlumatlardan (sənədlərdən) yalnız xidməti məqsədlər üçün istifadə etmək;

8.1.6. REİS-də saxlanılan məlumatlarda (sənədlərdə) aşkar edilmiş səhvlərin aradan qaldırılması məqsədilə dərhal sahibə və ya operatora məlumat vermək;

8.1.7. sahibin və operatorun REİS-ə daxil etdiyi və iştirakçının bilavasitə fəaliyyəti ilə bağlı olan yeni məlumatları izləmək;

8.1.8. REİS-in fəaliyyətinə zərər gətirəcək, habelə onların fəaliyyətinin ləngiməsinə və ya dayanmasına səbəb ola biləcək hərəkətlərə yol verməmək;

8.1.9. məlumat mübadiləsi zamanı aşkar olunmuş çatışmazlıqların və yaranan nasazlıqların aradan qaldırılması ilə bağlı tədbirlər görmək, bu barədə sahibə və Nazirliyə məlumat vermək;

8.1.10. öz təşəbbüsləri, habelə Nazirliyin və sahibin bu Əsasnamə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq verdikləri təkliflər əsasında sahibi və ya operatoru olduğu dövlət informasiya ehtiyatlarında və sistemlərində zəruri dəyişikliklər etmək.

8.2. İştirakçıların aşağıdakı hüquqları vardır:

8.2.1. REİS-in fəaliyyəti ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün sahibə və ya operatora sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

8.2.2. REİS-in təkmilləşdirilməsi istiqamətində sahibə və ya operatora təkliflər vermək.

**9. İstifadəçilərin hüquqları**

9.1. İstifadəçilərin REİS-dən istifadə ilə bağlı aşağıdakı hüquqları vardır:

9.1.1. REİS-dəki açıq məlumatlarla tanış olmaq və onları əldə etmək;

9.1.2. qanunla müəyyən edilmiş hallar istisna olmaqla, özləri barəsində məlumatlarla tanış olmaq, onları əldə etmək və ya dəqiqləşdirilməsi üçün sahibə və ya operatora müraciət etmək;

9.1.3. elektron kabinetləri üzərindən müraciətlərini göndərmək, elektron xidmətlərdən istifadə etmək və ödənişləri həyata keçirmək;

9.1.4. sahiblə, operatorla, iştirakçılarla və digər istifadəçilərlə qarşılıqlı əlaqəni və sənəd (məlumat) mübadiləsini elektron qaydada həyata keçirmək;

9.1.5. REİS-in fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflər vermək;

9.1.6. REİS-dən istifadə ilə bağlı hüquqlarının pozulmasından inzibati qaydada və (və ya) məhkəməyə şikayət etmək;

9.1.7. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

# Azərbaycanın yolları dünyaya qovuşub

## *Ötən il ərazimizdən 14,8 milyon ton yük daşınıb*

**Yola saldığımız 2024-cü ildə ölkəmizin ərazisi ilə 14,8 milyon ton tranzit yük daşınıb. İl ərzində dəmir yolu vasitəsilə daşınan tranzit yüklərin həcmi rekord həddə çataraq 7,3 milyon ton təşkil edib. Bu və digər məsələlər barədə dünən nəqliyyat sahəsində 2024-cü ildə həyata keçirilmiş tədbirlərə və 2025-ci il üçün nəzərdə tutulmuş planlara həsr olunmuş mətbuat konfransında ətraflı məlumat verilib.**




Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümbətov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində Bakı şəhərinin nəqliyyat infrastrukturu, xüsusilə Bakı Metropoliteninin inkişafı ilə bağlı vacib məsələlərə toxunaraq müvafiq tapşırıqlar verib. Diqqətə çatdırılıb ki, ölkə başçısının tapşırıqlarına əsasən, Bakı şəhərində nəqliyyat sıxlığının azaldılması və şəhər mobilliyinin inkişafında mühüm rol oynayan Bakı metropoliteninin genişləndirilməsi və mövcud infrastrukturun müasirləşdirilməsi istiqamətində əhəmiyyətli işlər görülür. Yeni nəqliyyat proqramı çərçivəsində paytaxtın ekoloji cəhətdən təmiz, sürətli və birləşdirici ictimai nəqliyyat sistemi olaraq metropolitenin daha geniş əhatə dairəsinə malik olması hədəflənib. Bu çərçivədə yerli və xarici mütəxəssislərin iştirakı ilə paytaxtın nəqliyyat proqramı hazırlanır. Proqramda şəhərin cari və gələcək inkişaf tələbləri nəzərə alınaraq metropolitenin digər nəqliyyat vasitələri ilə inteqrasiyasına xüsusi diqqət ayrılır. Xüsusilə “Yaşıl” və “Bənövşəyi” xətlərin inkişaf etdirilməsi ilə nəqliyyat sistemində balanslı və effektiv hərəkətin təmin edilməsi əsas məqsədlərdən biridir.

Son illərdə Bakıda 7 metrostansiyanın və 1 deponun inşa edilərək istifadəyə verildiyini xatırladan R.Hümbətov bildirib ki, Metroplitenin 2030-cu ilə qədər inkişafına dair yenilənmiş proqramına əsasən, 2 stansiyanın tikintisinin tamamlanması planlaşdırılır. Bu da sərnişin axınını 88 milyon nəfərədək artırmağa imkan yaradacaq. Bununla yanaşı, yaxın gələcəkdə 1 stansiyanın təmirinin başa çatdırılması və 8 yeni stansiyanın inşası nəzərdə tutulur.

Ötən müddətdə paytaxtımıza 150 yeni nəsil vaqon gətirilərək istismara verildiyini xatırladan nazir müavini deyib ki, bunun da hesabına metroda istifadə olunan vaqonların yarısı yenilənib. Onun sözlərinə görə, 2025-ci ildə Bakı metrosuna daha 20 yeni nəsil vaqonun gətirilməsi planlaşdırılır. Diqqətə çatdırılıb ki, yaxın 3 ildə Rusiyanın “Transmaşholdinq” şirkəti ilə imzalanmış müqaviləyə əsasən metroda 65 yeni nəsil vaqon və yaxud hər biri 5 vaqondan ibarət olan 13 qatar xəttə buraxılacaq. Ötən il üçün nəzərdə tutulan 7 qatardan 4-ü artıq Bakıya çatdırılıb. Bu qatarlar, əsasən, “Həzi Aslanov – Dərnəgül” xətti üzrə hərəkət edəcək. Beləliklə, bu il 4 qatarın, 2026-cı ildə isə daha 2 qatarın Bakıya çatdırılması planlaşdırılır. Metropolitenin dəmir yolu təsərrüfatında da mühüm işlərin görüldüyünü bildirən nazir müavini qeyd edib ki, artıq inşa edilən və modernizasiya olunan dəmir yolu xətlərinin ümumi uzunluğu 1500 kilometri keçib.

Nazir müavini yükdaşıma sahəsində əldə olunmuş göstəriciləri diqqətə çatdıraraq bildirib ki, 2024-cü ilin yanvar–noyabr aylarında Azərbaycanda dəmir yolu nəqliyyatı ilə 16,9 milyon ton yük və 7 milyon 672,6 min sərnişin daşınıb. 2023-cü ilin eyni dövrü ilə müqayisədə yük daşınmasında 1,1 faiz, sərnişin daşınmasında isə 21 faiz artım müşahidə olunub. Qeyd olunub ki, sutkada orta hesabla 375 vaqon yüklənib, 437 vaqon isə boşaldılıb. Sutka ərzində dəmir yolunun şimal istiqaməti üzrə 17,4 min ton, qərb istiqaməti üzrə 4,2 min ton, cənub istiqaməti üzrə isə 0,7 min ton yüklənmə işi yerinə yetirilib.

Ötən il hava nəqliyyatı ilə sərnişindaşımanın əvvəlki illə müqayisədə 31 faiz artaraq rekord həddə çatdığını bildirən nazir müavininin sözlərinə görə, hesabat dövründə 7,5 milyon sərnişinə xidmət göstərilib. Diqqətə çatdırılıb ki, 2024-cü ildə metroda sərnişindaşıma pandemiyadan sonra ən yüksək həddə, yəni 30 milyon nəfərə yüksəlib. İl ərzində avtobuslar vasitəsilə daşınan sərnişin sayı isə 20 faiz artaraq 148 milyon nəfərə çatıb.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Azərbaycan hökumətinin Bakıda tramvay nəqliyyatının bərpası istiqamətində həyata keçirdiyi tədbirlər barədə məlumat verərək deyib ki, artıq tramvayların effektiv olacağı ərazilər müəyyənləşdirilib: “Tramvay kütləvi daşıma üçündür və onlar üçün, ilk növbədə, uyğun yer olmalıdır. Təhlillər aparmışıq və paytaxtda tramvay xətlərinin inşasının faydalı ola biləcəyi yerləri araşdırmışıq. Şəhər mərkəzində insanların hərəkəti üçün ən səmərəli vasitə metropolitendir. Tramvay Mehdiabad qəsəbəsindən Azadlıq prospektinə doğru, Binəqədidən keçməklə “28 May” metrostansiyasına qədər əhəmiyyətli ola bilər. “Seabreeze” ətrafında yeni yaşayış məntəqələri yaradıldığına görə həmin istiqamətdə də tramvay özünü doğrulda bilər”.

Nazir müavini işğaldan azad olunmuş ərazilərin yol-nəqliyyat infrastrukturu sahəsində həyata keçirilən tədbirlər barədə də media nümayəndələrinə məlumat verib. Qeyd olunub ki, hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ümumi uzunluğu 3,4 min kilometrə yaxın olan avtomobil yolları inşa edilir. Ümumilikdə isə, 2004-cü ildə ölkədə 21 min kilometr uzunluğunda avtomobil yolları, 335 körpü və 45 tunel inşa edilib.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi İdarə Heyətinin sədri Anar Rzayev ölkənin avtobus parkının yenilənməsi istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verib. O deyib ki, 2024-cü ildə 200 avtobus təmir edilərək xəttə qaytarılıb, 165 ədəd elektrik avtobusu isə daşımalara cəlb edilib. Agentlik sədrinin sözlərinə görə, il ərzində özəl daşıyıcılar tərəfindən ölkəyə 60 yeni avtobus gətirilib və bunun bir hissəsi artıq istismara buraxılıb. Bununla yanaşı, 11 marşrut üzrə 154 avtobus yenilənib. Tam yeni avtobusların fəaliyyət göstərdiyi 2 yeni marşrut yaradılıb. Qeyd olunub ki, bu il Azərbaycandakı özəl daşıyıcıların ölkəyə daha 100-dən artıq avtobus gətirilərək istismara buraxılması gözlənilir.

Bakıda avtobusla sərnişindaşımada nağdsız ödəniş hallarının sayının 17 faiz artdığını diqqətə çatdıran A.Rzayev bildirib ki, 2024-cü ildə paytaxtda daşınmış 476 milyon sərnişinin 77,5 faizi ödənişi nağdsız qaydada həyata keçirib: “Əgər 2022-ci ildə paytaxtda 1000 avtobus nağdsız ödəniş sisteminə qoşulmuşdusa, bu göstərici 2023 və 2024-cü illərdə müvafiq olaraq 1400 və 2 min təşkil edib”.

Agentlik sədri onu da deyib ki, son zamanlar ölkədə mikromobillik sahəsində qanunvericilik təkmilləşdiriib, “kiçik elektrik nəqliyyat vasitəsi” və “kiçik elektrik nəqliyyat vasitəsinin operatoru” anlayışları qanunvericiliyə daxil edilib, bu sahədə nəzarət tədbirləri təkmilləşdirilib. Onun sözlərinə görə, ötən müddətdə Bakıda 31 küçə və prospekt üzrə 35 kilometr uzunluğunda velosiped yolları yaradılıb, bu rəqəmin mərhələlərlə, təxminən, 100 kilometrə çatdırılması nəzərdə tutulur. Qeyd olunub ki, hazırda Bakıda icarəyə verilən 476 mikromobillik vasitəsinin 77 faizini kiçik elektrik nəqliyyat vasitələri (skuter), 18 faizini velosiped, 5 faizini elektrik velosipedi təşkil edir.

Sonda media nümayəndələrinin çoxsaylı sualları cavablandırılıb.

# “Azıx” yedək gəmisi suya buraxılıb

**“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin “Zığ” Gəmi Təmiri və Tikintisi Zavodunda inşa olunan növbəti gəmi istismara verilib. Gəmiçilikdən aldığımız məlumatda bildirilir ki, uzunluğu 24,72, eni 6,60, bortunun hündürlüyü 3, suya oturumu 1,6 metr olan və göyərtəsi 3 tonadək yük qəbul etmək imkanına malik “Azıx” yedək gəmisi Xəzər Dəniz Neft Donanmasının balansına qəbul edilib.**



Müəssisədə “Azıx”dan əvvəl “ASCO 1”, “Tərtərçay”, “Həkəriçay” və “Bərgüşadçay” adlı eyni tipli 4 gəmi tikilərək təhvil verilib. Hazırda bu seriyadan olan daha bir gəminin inşası həyata keçirilir. Həmin gəmilərin mərhələli şəkildə istismara verilməsi planlaşdırılır.

Beynəlxalq standartların tələblərinə cavab verən gəmilərin layihələndirilməsini “ASCO Mühəndislik” MMC-nin əməkdaşları yerinə yetiriblər.

Xatırladaq ki, “Zığ” Gəmi Təmiri və Tikintisi Zavodunda geniş həcmdə peşəkar gəmi təmiri və dəniz mühəndislik xidmətləri ilə yanaşı, müvafiq sertifikatlaşma əsasında 2017-ci ildən gəmilərin tikintisi də həyata keçirilir.

# İnflyasiya bu il də ən aşağı həddə olacaq



**BMT-nin “2025-ci il üçün dünya iqtisadi vəziyyəti və perspektivləri” hesabatında Azərbaycanda orta illik inflyasiyanın cari il 3,6 faiz, gələn il isə 3,1 faiz olacağı proqnozlaşdırılır.**

Bu beynəlxalq qurumun hesablamalarına görə, 2024-cü ildə ölkədə orta illik inflyasiya 2023-cü ildəki 8,8 faizdən 3,7 faizə, 2026-cı ildə 3,1 faizə qədər azalacaq.

Azərbaycan İqtisadiyyat Nazirliyi 2024-cü il üçün orta illik inflyasiyanı 2,7 faiz, 2025-ci il üçün 4,6 faiz, 2026-cı il üçün isə 4 faiz səviyyəsində proqnozlaşdırıb.



# Biznes aləmində yeniliklər davam edir

**İqtisadi və Sosial Araşdırmalara Yardım İctimai Birliyinin sədri Eyyub Kərimli ölkədə biznesin dövlət qeydiyyatı sahəsində 2024-cü ildə başlanan mühüm yeniliklərin 2025-ci ildə də davam edəcəyini bildirib.**

İqtisadçı-ekspertin sözlərinə görə, 2024-cü ildə ölkədə biznesin qeydiyyatı sahəsində bir sıra əhəmiyyətli yeniliklər edilib. Bunlardan ən önəmlisi xarici və yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin (MMC) elektron dövlət qeydiyyatı prosedurlarının eyniləşdirilməsi, yerli və xarici investisiyalı MMC-lərin təsis sənədlərində edilmiş dəyişikliklərin və qeydə alınmış faktların sonrakı dəyişikliyinin elektron qaydada qeydiyyata alınması imkanının yaradılmasıdır.

Qeyd edək ki, bu yeniliklər ölkəmizdə biznesin təsis olunması praktikasının qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsi prosesi çərçivəsində həyata keçirilib. Nəticədə hazırda biznesin qeydiyyatı prosesi üzrə Azərbaycan dünyada mövcud ən yaxşı təcrübələrdən birinə malikdir.

Ölkəmizdə biznesin qeydiyyatı prosesinin sadələşdirilməsi prosesi Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Biznesə daxilolma” İşçi qrupunun təhlilləri əsasında aparılır. Sözügedən işçi qrupuna İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti rəhbərlik edir. Hazırda bu qrup biznes qeydiyyatının səmərəliliyinin daha da artırılması üçün müvafiq Yol Xəritəsi çərçivəsində intensiv layihələr gerçəkləşdirir.

Ekspert bildirib ki, son bir ildə biznesin qeydiyyatının sadələşdirilməsi məqsədilə “Biznesə daxilolma” işçi qrupunun təşəbbüsü və müvafiq qurumların birgə səyi ilə “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Qanunda, Əmək, Mülki və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi barədə qanun layihələri hazırlanaraq qəbul olunaraq təsdiqlənib.

Bu addımlar nəticəsində kommersiya qurumlarının dövlət qeydiyyatı sahəsində qüvvədə olan qanunvericiliyin beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi, xarici və yerli investisiyalı MMC-lərin elektron dövlət qeydiyyatı prosedurlarının eyniləşdirilməsi prosesinə başlanılıb.

Eyyub Kərimlinin sözlərinə görə, xarici biznes üçün dövlət qeydiyyatının sadələşdirilməsi Azərbaycanda investisiya və biznes mühitinin cəlbediciliyinin artırılması ilə yanaşı, ölkəmizin beynəlxalq reytinqlərdə mövqeyinə də müsbət təsir göstərəcək.

2024-cü ildə bu sahədə daha bir mühüm addım yerli və xarici investisiyalı MMC-lərin təsis sənədlərində edilən dəyişikliklərin və qeydə alınan faktların sonrakı dəyişikliyinin elektron qaydada qeydiyyata alınması imkanının yaradılmasıdır.

MMC-lərin təsis sənədlərində edilmiş dəyişikliklərin və qeydə alınmış faktların sonrakı dəyişikliyinin elektron qaydada qeydiyyata alınması imkanı biznesin vaxt itkisinin əhəmiyyətli azalmasına şərait yaradır.

Buna qədər ilkin qeydiyyatın elektron şəkildə qeydiyyatı yalnız yalnız yerli investisiyalı şirkətlər üçün mümkün idi. Amma “Biznesə daxilolma” işçi qrupu tərəfindən aparılan hüquqi, təşkilati və texniki tədbirlərdən sonra artıq yerli və xarici investisiyalı MMC-lər təsis sənədlərində edilmiş dəyişikliklərin və qeydə alınmış faktların sonrakı dəyişikliyinin elektron qaydada qeydiyyata alınması üçün elektron ərizə ilə müraciət edə bilərlər.

Ekspertin fikrincə, bu sahədə aparılan islahatların 2025-ci ildə də davam edəcəyi gözlənilir. Belə ki, hazırda kommersiya qurumlarının benefisiar mülkiyyətçiləri barədə məlumatların dövlət qeydiyyatına alınması və həmin məlumatların reyestrinin aparılması ilə bağlı işlər həyata keçirilir, müvafiq normativ sənədlər hazırlanır və qüvvəyə mindikdən sonra texniki imkanlar yaradılacaq.

“Beləliklə, ölkəmizin biznesin qeydiyyatı prosesi üzrə təkmilləşməkdə olan təcrübəsi ona dünya ölkələri arasında ən yaxşılardan biri kimi öz yerini saxlamağa imkan verəcək”, – deyə Eyyub Kərimli bildirib.

# “Sənaye və yaşıl layihələrə dəstək”

## *Bu müsabiqədə 311 layihəyə 67 milyon manat güzəştli kredit ayrılıb*



**İqtisadiyyat Nazirliyi Sahibkarlığın İnkişafı Fondunun təşəbbüsü ilə sənaye, o cümlədən kənd təsərrüfatı məhsullarının emalı sahələrində fəaliyyət göstərən, eləcə də “yaşıl” layihələr həyata keçirən sahibkarlara güzəştli kreditlərin verilməsinin stimullaşdırılması məqsədilə müvəkkil kredit təşkilatlarının nümayəndələri arasında keçirilən “Sənaye və yaşıl layihələrə dəstək” müsabiqəsinin qalibləri ilə görüş keçirilib.**

Fonddan redaksiyamıza bildirilib ki, görüşdə 2024-cü ildə 2 dəfə keçirilən müsabiqə nəticəsində müvafiq istiqamət üzrə 311 layihəyə, ümumilikdə, 67 milyon manata yaxın güzəştli kredit ayrıldığı qeyd edilib. Həmin layihələrdən 175-i ikinci yarım il üzrə keçirilən müsabiqə çərçivəsində maliyyələşdirilib və ümumilikdə, 40 milyon manata yaxın güzəştli kreditlə təmin olunub.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Sabitlik, davamlı inkişaf və yüksələn rifah

## *Son 22 ilin siyasi, iqtisadi və sosial yekunu belədir*

**Son illərdə ölkəmizin sosial inkişaf strategiyasının formalaşdırılması, müasir və dayanıqlı sosial müdafiə sisteminin qurulması istiqamətində çoxsaylı layihələr gerçəkləşdirilib, uğurlu sosial islahatlar proqramının yüksək səviyyədə reallaşdırılması ilə bu sahənin inkişafının davamlı xarakter almasına, vətəndaş rifahının təminatı sahəsində mühüm nailiyyətlərin əldə edilməsinə nail olunub.**



















Həyata keçirilən bütün bu tədbirlər nəticəsində xalqımızın rifahı getdikcə yaxşılaşıb, yoxsulluq səviyyəsi azalıb, yeni iş yerləri yaradılıb. Prezident İlham Əliyevin strateji inkişaf kursunun uğurla icrası respublikamızın yuxarı orta gəlirli ölkələr qrupuna daxil olmasını şərtləndirib. Paytaxtda, eləcə də regionlarda infrastruktur, kommunal, enerji, su, qazlaşma və digər sosial xidmət sahələrində keyfiyyətin yüksəldilməsi diqqətdə saxlanılıb, məktəblərin və yolların təmiri, eləcə də bu qəbildən olan məsələlərin həlli sürətləndirilib.

“Azərbaycan sosial dövlətdir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır”. Dövlət başçısının bu sözləri onun tapşırıqları əsasında ardıcıl həyata keçirilən, son illər bir-birinin ardınca reallaşdırılan, hər biri vətəndaşların rifahının dəstəklənməsində önəmli rol oynayan sosial islahatların yekununda aydın və əməli təsdiqini tapır. Ölkə rəhbərinin müvafiq fərman və sərəncamları əsasında 2018–2024-cü illərdə 4 milyondan çox vətəndaşı əhatə edən 4 sosial islahat paketinin gerçəkləşdirilməsi, nəzərdə tutulan islahatların icrası məqsədilə 7 milyard manat əlavə illik vəsait ayrılması da Azərbaycanın sosial dövlət olmasından xəbər verir.

2018–2024-cü illərdə ölkədə minimum pensiyanın 2,5 dəfə, orta aylıq pensiyanın 2,4 dəfə, müavinət və təqaüd ödənişlərinin 5 dəfə, ünvanlı yardımın orta aylıq məbləğinin 2,7 dəfə, minimum əməkhaqqının 2,7 dəfə, orta aylıq əməkhaqqının 2 dəfəyədək, medianın əməkhaqqının 2,2 dəfə, əmək haqqı fondunun 3 dəfə və əmək müqavilələrinin sayının 609 min (48 faiz) artması yuxarıda qeyd edilən fikrin bariz ifadəsidir.

Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı “Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında” Sərəncama uyğun olaraq bu il yanvarın 1-dən ölkədə minimum aylıq əməkhaqqının məbləği 345 manatdan 16 faiz artımla 400 manata çatdırılıb. Dövlət başçısının digər sərəncamı ilə ehtiyac meyarı 270 manatdan 285 manata qədər artırılıb. Belə bir göstərici isə ünvanlı sosial yardımın aylıq məbləğinin artırılmasını və bu istiqamətdə müraciətin genişləndirilməsini şərtləndirib. Bu kontekstdən ehtiyac meyarının artırılması ünvanlı sosial yardım proqramı çərçivəsində vətəndaşların aldığı yardım məbləğinin bu ildən çoxalmasına (məsələn, 900 manat gəliri və 5 üzvü olan ailədə aylıq sosial yardım məbləğinin orta hesabla 450 manatdan 525 manatadək yüksəlməsi) zəmin yaradıb.

2025-ci il yanvarın 1-dən qüvvəyə minən “Yaşayış minimumu haqqında” Qanuna əsasən, cari il üçün yaşayış minimumu ölkə üzrə 285 manat, əmək qabiliyyətli əhali üçün 305 manat, pensiyaçılar üçün 232 manat, uşaqlar üçün 246 manat məbləğində müəyyənləşdirilib.

Qeyd edək ki, yeni sosial islahat paketində digər sosial ödənişlərin artırılması da yer alıb. Sərəncamla Nazirlər Kabinetinə bu il sosial müavinətlərin və təqaüdlərin məbləğlərinin artırılması ilə bağlı təklifləri 3 ay ərzində ölkə Prezidentinə təqdim etmək tapşırılıb. Bununla da müavinət və təqaüd ödənişlərində artım dinamikasının cari ildə də davam edəcəyi qərara alınıb. Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə aylıq tarif (vəzifə) maaşlarının minimum aylıq əməkhaqqının artırılan yeni məbləğinə uyğunlaşdırılması qarşıya mühüm vəzifə kimi qoyulub.

Ekspertlər bildirirlər ki, elm, təhsil, səhiyyə, mədəniyyət, gənclər, idman, kənd təsərrüfatı, ekologiya, ətraf mühitin mühafizəsi, mənzil-kommunal, nəqliyyat, rabitə, meliorasiya, su təsərrüfatı və digər sosial sahələr üzrə 19 pillədən ibarət Vahid Tarif Cədvəlinin ilk pilləsindəki maaşın 400 manata çatdırılması digər pillələr üzrə maaşlarda da buna uyğun artımların baş verməsinə imkan yaradacaq. Sözügedən yeni sosial paket çərçivəsində cari ilin əvvəlindən pensiyaların indeksləşdirilərək artırılması da nəzərə alınmaqla, ümumən, 3 milyon insana yönələn əməkhaqqı, pensiya, müavinət və təqaüdlər artacaq və həmin artımlar üçün illik əlavə olaraq 1,4 milyard manat ayrılacaq.

Dövlət başçısı İlham Əliyevin prezidentlik fəaliyyəti dövründə dövlət büdcəsində sosialyönlü xərclərin ardıcıl və ciddi artımı da sosial dövlətin mühüm cəhətlərindən biri kimi diqqət çəkib. Məsələn, bu xərclər 2021-ci ildəki 10,3 milyard manatdan 2024-cü ildə 15,5 milyard manata çatıb və 2025-ci ilin büdcəsində 16,9 milyard manat nəzərdə tutulub. Beləliklə, həmin xərclərdə qısa müddətdə 6,6 milyard və ya 1,6 dəfə artım olub.

Ekspertlərin qənaətincə, sosialyönlü xərclərin çəkisinin büdcədə 41 faizə yüksəlməsi sosial rifahın dövlət siyasətinin prioritet istiqaməti olduğunu bir daha təsdiqləyir. Sosial islahatların tərkib hissəsi kimi, əlilliyi olan şəxslərə yönələn sosial ödənişlərin də davamlı artımı təmin olunur. Məsələn, əlilliyə görə sosial ödənişlərə ayrılan illik vəsaitdə 2018-ci ilə nisbətən 2,1 dəfə və ya 1,3 milyard manat artım diqqət çəkir. Həmin vəsait 2018-ci ildə 1,2 milyard manat təşkil edirdisə, hazırda 2,5 milyard manata yaxındır. Əlilliyi olan şəxslərə dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələri növlərinin sayının son 4 ildə 4 dəfəyə yaxın artırılaraq 34-dən 130-a çatdırılması isə bu sahəyə göstərilən diqqətin bariz ifadəsidir.

Ölkədə həyata keçirilən sosial siyasətdən bəhs edərkən, bir məqamı da xüsusi vurğulamaq zəruridir. Bu da əhalinin məşğulluğunun təminatı istiqamətində reallaşdırılan layihələrin daim diqqətdə saxlanılması ilə bağlıdır. Ümumiyyətlə, bu sahə Prezident İlham Əliyevin sosial-iqtisadi siyasətində mühüm yer tutur. Bu yöndə qəbul edilən və uğurla həyata keçirilən dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulan vəzifələr yüksək səviyyədə gerçəkləşdirilib. Bütün bunlar respublikada qeyri-neft sektorunun davamlı inkişafına, yerlərdə kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına, nəticədə isə əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan verib.

Bütün bunların nəticəsidir ki, ölkədə çoxsaylı yeni iş yerləri açılması, məşğulluq proqramlarının əhatə dairəsinin ildən-ilə əhəmiyyətli dərəcədə genişləndirilməsi əhalinin sosial şəraitinin yaxşılaşdırılmasında özünü qabarıq büruzə verir. Bunu statistik göstəricilər də təsdiqləyir: 2018–2024-cü illərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi 635 min vətəndaşı işlə təmin edib, 36 min şəxs peşə hazırlığına cəlb olunub.




Bundan başqa, özünüməşğulluq proqramının uğurlu icrası ilə işsiz və işaxtaran şəxslərin kiçik biznesə çıxışı reallaşıb. 2017-ci ildən icra olunan özünüməşğulluq proqramına cəlb olunanların illik sayı ötən dövrdə, təqribən, 15 dəfə artırılaraq 16 mini ötüb. İndiyədək 93 min şəxs özünüməşğulluq proqramına cəlb edilərək onlara verilmiş vəsaitlər hesabına kiçik təsərrüfatlar yaradıb. 2025-ci ildə bu sayın artaraq 100 mini ötəcəyi proqnozlaşdırılıb.

Yeri gəlmişkən, bu məqamda şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı icra olunan sosial dəstək paketinin nəticələrinə də qısa nəzər salmaq istərdik. Əvvəlcə xatırladaq ki, bu istiqamətdə həyata keçirilən layihələr çərçivəsində onların mənzil və fərdi evlə təminatına xüsusi önəm verilir. Dövlətimizin başçısının tapşırığı və nəzarəti ilə bu proqram daim genişlənir. Vətən müharibəsindən sonrakı dövrdə sözügedən proqramın 5 dəfə genişləndirilməsi, şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə postmüharibə dövründə 6,8 minədək mənzil və fərdi ev, 567 avtomobil təqdim edilməsi bu sahəyə göstərilən xüsusi diqqət və qayğının bariz ifadəsidir.

Prezident İlham Əliyevin göstərişi ilə son illər ölkədə müasir reabilitasiya sisteminin qurulması, reabilitasiya sahəsində biopsixososial modelə əsaslanan xidmət spektrinin yeni istiqamətlər üzrə genişlənməsi də təmin edilib. Ümumilikdə, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin reabilitasiya mərkəzlərində reabilitasiya xidməti göstərilən əlilliyi olan şəxslərin illik sayı 7 dəfədən artıq çoxalıb. Təkcə ötən ilin 11 ayında həmin mərkəzlərdə 113 min şəxsə xidmət göstərilib.

Dövlətimizin başçısının uğurlu sosial islahatlar proqramının əsas hədəflərindən biri də dövlət sosial xidmətlərinin innovativ yanaşmalar, müasir texnologiyalar üzərində qurulması, sosial sahədə vətəndaşlar üçün şəffaf və çevik, keyfiyyətli, əlçatan, vətəndaş məmnunluğuna uyğun xidmətlər sisteminin qurulmasıdır. Bu istiqamətdə mühüm uğur olan DOST Konsepsiyasının davamı olaraq, dövlət sosial xidmətlərinin geniş miqyasda elektronlaşdırılması təmin olunub və hazırda Nazirliyin 160 xidmətindən 145-dən çoxu (90 faizdən artıq) rəqəmsal platformadan təqdim edilir. 30-dan çox “e-arayış” xidməti, 2019-cu ilin əvvəlindən 50-dən çox proaktiv təyinat mexanizmləri, həmin il ölkənin sosial reyestri olan “e-sosial.az” portalı, 2020-ci ildə fərdi hesabların “e-qayda”da proaktiv şəkildə açılması xidməti, 2022-ci ildə “Əmək və məşğulluq” altsistemi işə salınıb.

Azərbaycanda əhalinin sosial rifahının təmin olunması istiqamətində dövlət siyasətinin əsas prioritetlərindən biri sosialyönümlü xərclərin artırılmasıdır. Bu, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial siyasətin əməli nəticəsi olaraq özünü büdcə göstəricilərində də aydın şəkildə büruzə verir. Məsələn, 2021-ci ildə dövlət büdcəsində sosialyönümlü xərclər 10,3 milyard manat təşkil edirdisə, 2024-cü il üçün bu məbləğ 15,5 milyard manata çatdırılıb, 2025-ci ilin büdcə layihəsində isə 16,9 milyard manat nəzərdə tutulur. Bu göstəricilər qısa müddətdə sosial xərclərin 6,6 milyard manat və ya 1,6 dəfə artdığını göstərir.

Azərbaycanın artan iqtisadi-maliyyə qüdrəti son 5 ildə dövlət büdcəsinin gəlir və xərclərinin yüksəliş dinamikasını davamlı təmin edib, büdcənin gəlirləri 2019-cu ildəki 23,1 milyard manatdan 2024-cü ildə 36,4 milyard manata çatdırılmaqla 13,3 milyard manat və ya 58 faiz artıb. Büdcənin xərcləri isə sözügedən dövrdə 25,1 milyard manatdan 39,8 milyard çatdırılmaqla 14,7 milyard manat və ya 55 faizə yaxın yüksəlib. Büdcədə sosial xərclərin artımı son 5 ildə 2,4 milyard manatdan 4,9 milyard manata qədər artırılıb. Bu dövrdə Dövlət Sosial Müdafiə Fondunun büdcə gəlirləri və xərcləri isə 40 faizdən çox artaraq 3,9 milyard manatdan 7,3 milyard manata çatıb. Büdcə gəlirləri və büdcədənkənar fondun gəlirləri hesabına ölkəmizdə sosial sahələrdə əsaslı irəliləyişlərə nail olunub, vətəndaşların rifahının daha da yüksəldilməsi və onların həyat keyfiyyətinin yaxşılaşdırılması istiqamətində güclü maliyyə təminatları yaradılıb. Bu siyasət davamlı və daha da genişhəcmli xarakter daşıyıb və 2025-ci ildə də əhatəli sosial dəstək tədbirlərinin həyata keçiriləcəyi nəzərdə tutulub.

Göründüyü kimi, Prezident İlham Əliyevin sosial sahəyə xüsusi diqqət və qayğısı ölkədə sosial tərəqqi, sosial müdafiə sisteminin gücləndirilməsi istiqamətində ardıcıl olaraq mühüm addımların atılmasını təmin edib və bu uğurlar qarşıdakı dövrdə də davam edəcək.

***V.BİNYATOĞLU***
***XQ***

# XXI əsrin üz qaralığı: Fransa müstəmləkəçiliyi

## *Azərbaycan sonadək neokolonializmdən əziyyət çəkən xalqların yanında olacaq*



**(əvvəli 1-ci səhifədə)**

Eyni zamanda, Azərbaycan dünyada islamofobiyaya qarşı mübarizədə də ön sıralardadır. Azərbaycan xarici siyasətinin digər vacib istiqaməti neokolonializmə qarşı mübarizə aparan ölkələrin yanında olmaqdan ibarətdir. Azərbaycan neokolonializmi və orta əsrlərdən qalma bu eybəcər amili Yer üzündən tamamilə silmək üçün öz iradəsini ortaya qoyub və buna nail olmaq əzmindədir.

Bu gün neokolonializm siyasətinin başında dayanan özünü "demokratiyanın beşiyi" adlandıran, "azadlıq, bərabərlik, qardaşlıq" şüarını bayraq edən Fransadır. Dünyanın, demək olar ki, dörd bir tərəfində Fransaya məxsus ərazilər var. Yelisey sarayındakılar utanıb-qızarmadan müstəməkə torpaqlarını "dənizaşırı ərazilər" adlandırırlar. Müstəmləkə torpaqları ilə birlikdə hazırda Fransanın ümumi ərazisi 643,8 min kvadratkilometr, əhalisi 67,8 milyon nəfərdir. Halbuki, bu rəqəmlər müvafiq olaraq 551,5 min kvadratkilometr və 62,8 milyon nəfər olmalı idi. Artım müstəmləkə əraziləri və orada yaşayanların hesabınadır.

Fransanın müstəmləkəçiliyinin tarixi 1535-ci ilə gedib çıxır. Fransa böyük kəşflər dövründə xaricdəki ərazilərin öyrənilməsi və kolonizasiyası ilə məşğul olan üçüncü Avropa ölkəsi (Portuqaliya və İspaniyadan sonra) olub. Pireney yarımadasının iki ölkəsindən fərqli olaraq, fransızlar həm tropik, həm də mülayim enliklərə maraq göstəriblər. Məsələn, 1535-ci ildə fransız Jak Kartye Müqəddəs Lavrenti çayının mənsəbini tədqiq edərək vaxtilə Şimali Amerika qitəsinin bütün mərkəzi hissəsini (söhbət indiki ABŞ və Kanadanın ərazisindən gedir–S.H.) tutmuş Yeni Fransa koloniyasının əsasını qoyub.

Ümumiyyətlə, fransız müstəmləkəçiliyinin tarixi xronoloji olaraq aşağıdakı dövrlərə bölünür. İlk Fransa müstəmləkə imperiyası şərti olaraq 1546–1809-cu illərdə mövcud olub. Həmin dövrdə Şimali Amerikada müstəmləkə torpaqlarının sahəsi təxminən 8 milyon kvadratkilometrə çatıb. 1763-cü il Paris müqaviləsi Fransanı Şimali Amerikanın indiki Kanada və ABŞ-dəki, eləcə də Seneqaldakı geniş ərazilərindən məhrum edib. 1803-cü ildə Luizirananın ABŞ-a satılması, 1804-cü il Haiti inqilabı və 1809-cu ildə Portuqaliyanın Fransa Qvianasını zəbt etməsi, nəhayət, ilk müstəmləkə imperiyasını süquta uğradıb.

İkinci Fransa müstəmləkə imperiyası 1814-cü ildən 1962-ci ilə qədər mövcud olub. Onun ərazisi 1943-cü ildə əsasən Afrika və Asiyada, təxminən, 13,5 milyon kvadratkilometrə (planetin quru səthinin 9 faizi) çatıb. 1814-cü ildə Böyük Britaniya və Portuqaliya Fransa Qvianası ilə birlikdə Seneqal çayının aşağı axarlarını və bir sıra Karib adalarını Fransaya qaytarıb. 1830-cu ildə Fransanın Əlcəzairə hücumu Afrika və Asiyanın geniş müstəmləkəçiliyinin başlanğıcı olub. Bu ərazilərin dekolonizasiyası İkinci Dünya müharibəsinin başa çatmasından sonra, yəni 1945–1962-ci illər arasında baş verib. Ancaq bu proses 1980-ci ildə yarımçıq dayandırılıb.

Fransanın bu gün "dənizaşırı ərazilər" adlandırılan xaricdəki mülkləri (dənizaşırı departamentlər, icmalar və xüsusi statuslu inzibati-ərazi qurumları) bir vaxtlar mövcud olmuş nəhəng müstəmləkə imperiyasının qalıqlarıdır. Onlardan yalnız Fransa Qvianası materikdə (Cənubi Amerikada–S.H.) yerləşir. Qalanların hamısı adalardır (Fransız Polineziyası, Martinika, Mayotta və sair), həmçinin Yeni Kaledoniya adası "sui generis" adlanan xüsusi ərazi statusuna malikdir. Fransız müstəmləkə dövrünün digər müasir irsi fransızdilli ölkələrin birliyi – Beynəlxalq Frankofoniya Təşkilatıdır.

Fransa uzun əsrlərdir ki, müstəmləkə ərazilərin yeraltı, yerüstü bütün təbii sərvətlərini və insan resurslarını istismar edir. Müstəmləkə keçmişinə malik bütün digər ölkələr bundan imtina etsələr də, rəsmi Paris müstəmləkəçilik siyasətinə "yeni məzmun" verərək onu davam etdirir. Dünya ölkələri isə bu məsələnin üzərindən sükutla keçməyə üstünlük verirlər. Onlar Prezident İlham Əliyevin təbirincə desək, başlarını ağrıtmaq istəmirlər.

Azərbaycan isə hazırda dünyada Fransanın müstəmləkəçilik siyasətini daim ifşa edən, bu istiqamətdə ardıcıl siyasət aparan ölkəyə çevrilib. Taleyin ironiyasına baxın ki, biz uzun illər belə bir ölkədən Ermənistan–Azərbaycan münaqişəsinin həllində ədalətli vasitəçilik ummuşuq. Mahiyyətində ədalətsizlik dayanan bu dövlət bizim problemimizin həllinə münasibətdə ədalət nümayiş etdirə bilməzdi. Tarix də bunu sübut etdi.

Fransanın Vətən müharibəsinin gedişi zamanı və ondan sonra tutduğu anti-Azərbaycan mövqeyi bizim də "Beşinci Respublika"nın anti-insani əməllərini ortaya qoymağımıza gətirib çıxardı. Ancaq Prezident İlham Əliyevin yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində bildirdiyi kimi, əgər bu proses müəyyən səbəblər üzündən başlamışdırsa, bu gün artıq həyatımızın bir parçasıdır. Dövlətimizin başçısı qeyd etdi ki, xüsusilə bu ərazilərin nümayəndələri ilə görüşmək, onların dilindən problemlərini eşitmək, onların gözündəki həsrəti, tükənmiş ümidləri görmək həm ağırdır, həm də ki, çox tanışdır: "Çünki biz də uzun illər təxminən eyni vəziyyətdə idik. Biz müstəqil olmayan dövrdə müstəqillik eşqi ilə yaşamışıq, hər halda cəmiyyətimizin böyük qismi. Biz müstəqillik əldə etdik və dərhal işğala məruz qaldıq, hətta ondan qabaq. Bu ədalətsizlik elə həyatımızın bir parçası idi və biz bu ədalətsizlikdən canımızı xalqımızın iradəsi ilə qurtardıq. Amma bu xalqlar faktiki olaraq heç bir kütləvi informasiya vasitələrinə çıxış əldə edə bilmirlər. Onlar hədələnir, onlara qarşı ədalətsizlik bir qayda olaraq artıq özünü təsdiqləyib. Onların müdafiəsinə qalxmaq istəyən tərəflərin, təşkilatların sayı da çox azdır. Çünki yenə də deyirəm, mən bunu demişəm, heç kim başağrısı istəmir, heç kim istəmir ki, böyük dövlətlərlə, – hər halda özlərini belə sayan, – üz-üzə gəlsin. Amma biz bunu edirik və edəcəyik. Bu müstəmləkəçilik praktikası davam edənə qədər biz o xalqların yanında olacağıq. Artıq bunu Azərbaycan cəmiyyəti öz mənəvi borcu kimi qiymətləndirir və bizim televiziya kanalları o bölgələrdə olarkən, yerində o insanların vəziyyəti ilə tanış olarkən bir daha, o acı mənzərəni görür".

Dövlətimizin başçısı jurnalistin "Neokolonial siyasətlə bağlı növbəti mərhələdə hədəflərimiz nədən ibarət olacaq və biz bu missiyanın önündə gedəcəyikmi? sualına cavab olaraq dedi ki, bəli, Azərbaycan neokolonializmə qarşı siyasətini davam etdirəcək. Bəli, Azərbaycan cəmiyyəti artıq öz mövqeyini ortaya qoyub və Bakı Təşəbbüs Qrupunun fəaliyyəti ildən-ilə genişlənir, böyüyür. Neokolonializmin başında duran Fransa hakimiyyəti bilməlidir ki, onlar əbəs yerə bizimlə "soyuq müharibə"yə çıxıblar. Emmanuel Makron rejimi unutmamalıdır ki, müstəmləkəçilik praktikası davam edənə qədər biz o xalqların yanında olacağıq.

**Mövzu ilə bağlı fikirlərini XQ ilə bölüşən Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri, politoloq Cavid Vəliyev bildirdi ki,** müstəmləkəçilik İkinci Dünya müharibəsindən sonra qadağan edilməli, bitməli bir siyasət idi. Çünki BMT Nizamnaməsi keçmişdə müstəmləkə altında olan dövlətlərə öz müqəddəratını təyinetmə hüququ verirdi və onlar bu hüquqdan istifadə etməli idilər. Lakin Fransa kimi dövlətlər yeni siyasət hə-



yata keçirməyə başladılar. Burada məqsəd keçmiş müstəmləkələrdə özlərinə yaxın dövlətlər formalaşdıraraq, əslində, həmin ölkələrin resurslarını istismar etməkdən ibarət idi: "Fransa kimi ölkələr uzun müddət beynəlxalq münasibətlər sistemində hakim mövqedə olmalarından sui-istifadə edirdilər. Ancaq son vaxtlar neokolonializmdən əziyyət çəkən xalqlar Parisə qarşı açıq çıxışlara başlayıblar. Bunun bariz nümunəsi Fransanın Afrika qitəsindən yavaş-yavaş çıxarılmasıdır. Bu, bir tərəfdən Yelisey sarayının uzun illər yürütdüyü səhv siyasətin, digər tərəfdən isə Fransanın hazırda düşdüyü aciz durumun nəticəsidir".

Politoloq qeyd etdi ki, Azərbaycanla Fransa son illərdə Parisin səhvi üzündən iki dəfə üz-üzə gəlib: "Birincisi, torpaqlarımızın işğaldan azad olunması, yəni Vətən müharibəsi və antiterror tədbirləri zamanı Fransa Azərbaycana qarşı Ermənistanı və keçmiş separatçı rejimi dəstəklədi. Paris bu məsələni beynəlxalq təsisatlarında dəfələrlə gündəmə gətirdi. Ölkəmizə qarşı BMT Təhlükəsizlik Şurası və Beynəlxalq Ədalət Məhkəməsi də daxil olmaqla bir çox yerlərdə təzyiq etməyə çalışdı. Nəticəsi uğursuz oldu. Azərbaycan torpaqlarını azad etdi, suverenliyimiz bərpa olundu. İkincisi isə ölkəmiz Qoşulmama Hərəkatına 4 il sədrlik etdiyi üçün orada əsas məsələlərdən biri neokolonializm siyasətinə qarşı mübarizə aparmaq idi. Azərbaycan indi də bu siyasəti uğurla davam etdirir. Buradan da görürük ki, Bakıdan bu xalqlara verilən dəstək Fransada narahatlıq yaradır. Əslində, burada Azərbaycan həm haqlı mövqedədir, həm də, bu, müstəmləkə altında olan xalqların arzusudur. Rəsmi Parisin bu məsələdə Azərbaycanı ittiham etməsi əsassızdır".

Müsahibimiz qeyd etdi ki, Azərbaycan bu siyasəti Fransa ilə münasibətlərin pis olması səbəbindən yürütmür. Bu, İkinci dünya müharibəsindən sonra qurulan beynəlxalq münasibətlər sisteminin tələbidir. Azərbaycan da beynəlxalq hüquqa uyğun davranır. Fransa isə beynəlxalq hüququn tələblərini heçə sayır. Beləliklə, Makron hökuməti təkcə Azərbaycana qarşı mübarizə aparmır, beynəlxalq hüququn əsas prinsiplərinə qarşı çıxır: "Yaxşı olardı ki, Fransa o xalqların tələblərini yerinə yetirsin. Onlarla bərabər suveren tərəf kimi əlaqə qursun və münasibətlərini bu şəkildə davam etdirsin. Bu gün həmin ərazilərdə əhalinin 70-75 faizinin yoxsulluq şəraitində yaşaması Fransanın uzun illər onların ölkələrini istismar etməsinin nəticəsidir. Paris bu siyasətə son qoyarsa, o xalqların da siyasi sabitlik və iqtisadi rifah şəraitində yaşayacaqlarını düşünürəm".

**Səxavət HƏMİD**
**XQ**

**"Qrant haqqında" Azərbaycan Respublikasının Qanunu üzərində əsaslı dəyişikliklər 2014-cü ildən etibarən həyata keçirilib. Bu sahədə şəffaflığın artırılması üçün sistemli yeniliklər edilib. Ötən 10 il ərzində davam etdirilən proses son 3 ildə xüsusilə intensivləşib. Qrant alan, icra edən, həmçinin donor qismində çıxış edən subyektlər üzərində təhqiqat işləri, istintaq əməliyyatları, araşdırmalar həyata keçirilib.**

Bütün bu proseslər geniş reaksiya doğurub. Avropa İttifaqının strukturları, ABŞ-nin müvafiq qurumları münasibət bildirib. Müdaxilə etməyə, prosesi durdurmağa təşəbbüs göstəriblər. İş o həddə çatıb ki, Prezident İlham Əliyev yanvarın 7-də yerli telekanllara müsahibə verərkən, "qrant" mövzusuna da toxunub. "Bütün

# "Qrant"ların araşdırılması zərurətdən yarandı

## *Şübhəli vəsaitlər üzərində nəzarətə ciddi əsaslar var*

"tvininq" proqramlarının, Avropa İttifaqına bağlı olan leqal qrantların hamısının dondurulduğunu" elan edib. Leqal və qeyri-leqal qrantların icrası üzrə yol verilmiş hüquqi pozuntuların araşdırılmasına zərurət olduğunu bildirib. Bu prosesin dövlətin yüksək iradəsi ilə həyata keçirildiyini açıqlayıb.

Dövlətin "qrant" mövzusuna bu qədər hassas yanaşmasının, Aİ və ABŞ-nin isə son araşdırmalardan narahatlıq keçirməsinin səbəbi nədir?

Hüquqi sənədlərdə qeyd edilir ki, qrant humanitar, sosial və ekoloji inkişaf proqramlarını stimullaşdırmaq üçün əvəzsiz verilən maddi vəsaitdir. Elmi tədqiqatlar, təhsil, səhiyyə, mədəniyyət, hüquqi yardım, informasiya işi, idman və bu kimi digər sahələrdə modern texnologiyaların tətbiq olunmasını təşviq etmək üçün nəzərdə tutulub. Bir sözlə, cəmiyyətin rifahına xidmət edən proqramları stimullaşdırmaq məqsədini daşıyır.

Qrant haqqında anlayışlarda birmənalı şəkildə qeyd edilir ki, o, siyasi hakimiyyət uğrunda mübarizə, siyasi təşkilatın və ya şəxsin seçki kampaniyasının maliyyələşdirilməsi, bir sözlə, siyasi proses üçün istifadə edilə bilməz. Problem ondadır ki, ABŞ və Avropa İttifaqının nəzarətində olan "donor təşkilatlar" məhz bu bəndi intensiv şəkildə pozurlar. Ayrı-ayrı ölkələrdə siyasi proseslərə təsir göstərmək, hədəf dövlətləri öz maraqlarına tabe etdirmək üçün "qrantlardan" istifadə edirlər. Onlar ayrı-ayrı ölkələrdəki siyasi prosesləri maliyyələşdirib nəzarətə götürmək üçün çaşdırıcı mexanizmlər qurublar. Sifarişlə işləyən siyasi mərkəzlərin ətrafında "yedək QHT"ni, "yedək KİV"i cəmləşdiriblər. Çünki, siyasi partiyalardan fərqli olaraq, qanun vətəndaş cəmiyyəti institutlarına, o cümlədən, QHT və KİV-lərə qrant vəsaiti ayrılmasını qadağan etmir. ABŞ və Aİ institutları da bu məqamdan yararlanırlar. USAİD, NED, "Soros Fondu", EED və buna bənzər digər donor təşkilatlar tərəfindən "yedək QHT və KİV-ə" humanitar, sosial, ekoloji, demokratik inkişaf proqramları adı altında "qrant" vəsaiti ayrılır. Bu yolla, qrant vəsaitinin hədəf ölkələrə çatdırılması leqallaşdırılır. Sonucda isə vəsait layihə almış QHT və KİV"in vasitəçiliyi ilə siyasi mərkəzlərə ötürülür.

Gürcüstanda, Ukraynada 2003–2004-cü illərdə törədilən "məxməri inqilablar", Ermənistanda 2018-ci ildə gerçəkləşdirilən çevriliş, Türkiyədə ciddi iz buraxmış "Gəzi parkı" olayları və onlarca digər səs-küylü insidentlər Qərb institutları tərəfindən məhz belə mexanizmlər vasitəsilə hazırlanaraq həyata keçirilib. 2024-cü ilin noyabr – dekabr aylarında Tbilisidə törədilən ixtişaşlar sübut etdi ki, ABŞ və Avropa İttifaqı hələ də eyni mexanizmləri tətbiq edirlər. Onlar Gürcüstanda seçki yolu ilə formalaşdırılmış, legitim hakimiyyəti "Qərb maraqlarına cavab vermədiyi üçün" cəzalandırmaq istədilər. Özlərinin təsir dairəsində olan, "qrantla işləyən" siyasi partiyaları, QHT və KİV-i Tbilisi küçələrinə çıxararaq legitim hakimiyyətin devrilməsinə təşəbbüs göstərdilər. "Qrant alan", Qərb institutlarından asılı olan QHT və KİV, "siyasi partiyalar" bu qarşıdurmada öz dövlətlərini, milli maraqlarını deyil, Qərb institutlarını müdafiə etdilər.

Təcrübə göstərir ki, qanunsuz qrant vəsaitləri sifarişlə işləyən siyasi mərkəzlər üçün təkcə maliyyə mənbəyi deyil. Yedək QHT və KİV-ləri maliyyələşdirməklə, Qərb hədəf ölkələrdəki siyasi partiyalar üçün həm də sosial baza formalaşdırır. Təlimatlandırılan, maliyyələşdirilən QHT və KİV təmsilçiləri bir sifarişlə küçələrə tökülüb xaos yarada bilirlər.

1990-cı illərdən etibarən Qərb institutları digər postsovet ölkələri kimi, Azərbaycanda da belə mexanizmlər formalaşdırmağa təşəbbüs göstəriblər. Qanunları pozaraq, radikal düşüncəli müxalifət partiyalarını, siyasi mərkəzləri maliyyələşdiriblər. Hüquqi məsuliyyətdən yayınmaq üçün ötürdükləri vəsaitləri "qarant" adı ilə pərdələyiblər, yedək QHT və KİV-lər üzərindən icra ediblər.

Azərbaycan dövləti 2000-ci illərdən etibarən bu mexanizmi ifşa edib, onun aradan qaldırılması üçün tədbirlər görüb. Milli donor institutlarını yaratmaqla, QHT və KİV-ləri xaricin maliyyə asılılığından qurtarıb. 2014-cü ildə isə qanunvericiliyi yeniləyib, xaricdən qrant almaq prosedurlarını sərtləşdirib. Digər zəruri tədbirlər də



**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin media eksperti**

görülüb.

Amma indi bəlli olur ki, Azərbaycan dövləti ehtiyat tədbirləri gördüyü kimi, "qrant şəbəkəsi" də çevik tərpənib.

Qeyri-leqal vəsaitin ölkəyə gətirilib təsir dairəsində olan siyasi mərkəzlərə çatdırılması üçün 2014-cü ildən sonra yeni metodlardan faydalanıblar. 2014-cü ildən etibarən qeydiyyatsız qrantların Azərbaycana Gürcüstan və digər ölkələr üzərindən ötürülməsi həyata keçirilib. Təyinatı şübhə doğuran, milli maraqlara zidd olan "qrantlar"ın Azərbaycanda qeydə alınması çətinləşdiyi üçün, Qərb institutları Azərbaycanda xarici sifarişləri icra edən QHT və KİV-lərə xüsusi imtiyazlar tanıyıblar. Onlar öz "qrantlarını" Gürcüstanda və digər dövlətlərdə qeydiyyata aldırırlar. "Qrant üçün", daha doğrusu, siyasi çaxnaşmalar üçün nəzərdə tutulmuş vəsaiti xarici dövlət ərazisində qəbul edirlər. Sonra həmin vəsaiti nağdlaşdıraraq Azərbaycana gətirir, siyasi sifarişlər üçün xərcləyirlər. Nümunə üçün qeyd edək ki, Azərbaycan 2020-ci ildə işğal altında olan torpaqları azad etmək üçün Ermənistanla müharibə apardığı bir vaxtda erməni şəbəkəsi Azərbaycan Ordusunu və dövlətini şərləmək üçün Azərbaycanın özündən olan ictimai şəxslərdən də faydalandı. Bu kontekstdə Azərbaycanlı pasifistlərin (müharibə əleyhinə olanlar – "sülhpərvərlər") çıxışlarına geniş yer ayırdılar. "Azərbaycanlı" adı daşıyan "pasifistlər" – QHT, KİV təmsilçiləri, fiziki şəxslər – bu müharibədə Azərbaycanın yanında deyil, Ermənistanın səfində yer tutdular. Qərb donorlarından aldıqları qanunsuz qrant vəsaiti onların saxta "No War" kampaniyasının iştirakçısına çevrilməsini təmin etdi.

Məsələ ondadır ki, Qərb institutları qanunsuz qrant vəsaitlərini Azərbaycanda gerçəkləşdirmək, beyinləri yumaq üçün təkcə "Gürcüstan yolu" versiyasından istifadə etməyiblər. KİV-də yayılmış son məlumatlardan bəlli olur ki, qeydiyyatsız qrantlar digər fərqli üsullarla da realizə edilir. Bunun üçün çox hiyləgər variantlar hazırlanıb. Məsələn, qeydiyyatsız vəsaiti dövlətlərarası təşkilatlar vasitəsilə ölkəyə keçiriblər. Partnyor QHT və KİV-ə vəsaiti bank yolu ilə deyil, nəğd şəkildə öütürüblər. APA İnformasiya Agentliyi bu sahədə geniş araşdırma aparıb. Bir sıra dövlətlərarası təşkilatların, hətta BMT-nin İnkişaf Proqramından (UNDP) da bu yöndə istifadə edildiyini təsdiqləyən sənədləri təqdim edib.

Araşdırmada qeyd edilir ki, BMT-nin Azərbaycan Nümayəndəliyində UNDP-nin Audit və Tədqiqat Ofisi tərəfindən aparılmış audit yoxlaması ciddi qanun və maliyyə pozuntuları aşkara çıxarıb. UNDP-nin qrantlarla bağlı şəffaflıq prinsiplərini, həm də Azərbaycan qanunvericiliyini kobud şəkildə pozduğunu aşkarlayıb. Audit yoxlamasından məlum olur ki, UNDP-nin Azərbaycan Nümayəndəliyi 2023-cü ildə ölkədə 23 qeyri-hökumət təşkilatına (QHT) 29 layihə üzrə 754 570 dollar qrant verib. Azərbaycan Nümayəndəliyi qrant vəsaitlərini həmin QHT-lərin yaratdıqları MMC-lərlə, yaxud QHT tərəfindən işə götürülmüş şəxslərlə birbaşa müqavilələr bağlayaraq şəxsi hesablara köçürüb. Yəni, qanunu pozaraq, "qrant" vəsaitini Ədliyyə Nazirliyində qeydiyyata aldırmayıb. Fərqli, qeyri-leqal yollarla təsirində olan QHT və KİV-ə ötürüb.

Bu qismdə olan yüzlərlə nümunə belə qənaət yaradır ki, Azərbaycanda qrant sahəsində həyata keçirilən hüquqi araşdırmaların ciddi əsası vardır.

# Ötən ilin qalib idmançıları



**Gənclər və İdman Nazirliyi ilin idman yekunları ilə bağlı yanvarın 9-da təntənəli mərasim keçirib.**



Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva idman təşkilatlarının, federasiyaların, media qurumlarının rəhbərləri, idmançılar, məşqçilər və idman ictimaiyyətinin nümayəndələrinin qatıldığı toplantıda iştirak ediblər.

Qala mərasimi Azərbaycan Respublikasının Dövlət Himninin səslənirilməsi ilə başlayıb.

Gənclər və idman naziri Fərid Qayıbov



2024-cü ilin Azərbaycan idmanı üçün uğurlu keçdiyini qeyd edib. O bu münasibətlə federasiya rəhbərlərini, idmançıları, məşqçiləri, idman ictimaiyyətini təbrik edib. Nazir Prezident İlham Əliyevin ötən ilin idman yekunları ilə bağlı mərasimdə idman ictimaiyyətinin uğur qazanmış nümayəndələrini mükafatlandırdığını diqqətə çatdırıb, bu addımın idmançılara ruh verdiyini bildirib. F.Qayıbov 2025-ci ilin idmanımız üçün daha uğurlu olacağına inandığını söyləyib.

Daha sonra 2024-cü ilin idman yekunları barədə hesabat videoçarxı təqdim edilib. Federasiyalar, idman jurnalistləri arasında və sosial mediada aparılmış sorğu əsasında müəyyənləşmiş müxtəlif nominasiyalar üzrə ilin qaliblərinin mükafatlandırılması mərasimi olub.

Mərasimdə ilin ən yaxşı media qurumları da açıqlanıb. Birinci yerə "CBC Sport" layiq görülüb. İkinci isə Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) olub. AZƏRTAC-a mükafatı Azərbaycan Respublikası Prezidentinin köməkçisi və Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov təqdim edib. Üçüncü sıranı isə İdman.biz tutub.

**İlin ədalətli oyun ("fair-play") mükafatçısı**

1) Qaşım Maqomedov (Taekvondo)
2) Leyla Abidinova (Atletika)
3) Nərmin Şərifova (Badminton)

**İlin ən yaxşı idman tədbiri**

1) Formula 1 Azərbaycan Qran-Prisi (Bakı)
2) Beynəlxalq Avarçəkmə Reqatası (Füzuli və Mingəçevir)
3) Cüdo üzrə "Böyük Dəbilqə" turniri (Bakı)

**İlin ən yaxşı Uşaq-Gənclər İdman Məktəbi**

1) "Ulduz" Futbol Akademiyası
2) ROEQİUG Velosiped məktəbi
3) Masallı Rayon Uşaq və Gənclər Məktəbi

**İlin idman mövzusunda ən yaxşı videoçarxı**

1) "Bir də gəlsəm" – Azərbaycan Cüdo Federasiyası
2) "Doğru hədəfə yönəl" – ATV
3) Güləşçilərin musiqi testi – Azərbaycan Güləş Federasiyası

**İlin ən yaxşı idman fotoqrafı**

1) Zaur Mustafayev (Trend.az)
2) Nadejda Cavad
3) İslam Atakişiyev (İdman.biz)

**İlin ən yaxşı media qurumu**

1) "CBC Sport"
2) AZƏRTAC
3) İdman.biz

**İlin ən yaxşı idman jurnalisti**

1) Elmir Əliyev (Haqqın.az)
2) Kənan Hakimov (İctimai TV)
3) Nazilə Əhmədova (Real TV)

**İlin ən yaxşı idman klubu**

1) "Ocaq Sport" İdman Klubu
2) "Neftçi" İdman Klubu
3) "Volan" Badminton Klubu

**İlin ən yaxşı idman qurğusu**

1) Milli Gimnastika Arenası
2) Bakı Su İdmanı Sarayı
3) "Kür" Olimpiya Tədris-İdman Mərkəzi

**İlin ən yaxşı Olimpiya İdman Kompleksi**

1) Quba Olimpiya İdman Kompleksi
2) Goranboy Olimpiya İdman Kompleksi
3) Ağdaş Olimpiya İdman Kompleksi

**İlin ən yaxşı tibb personalı**

1) Aydın Ağaliyev (Gimnastika)
2) Nigar Heydərova (MİTRİ)
3) Ramil Vəliyev (Cüdo)

**İlin ən yaxşı idman hakimi**

1) Emil Qurbanəliyev (Boks)
2) Nataliya Bulanova (Gimnastika)
3) Asif Şirəliyev (Güləş)

**2024-cü ildə uğurlu beynəlxalq fəaliyyətə görə**

1) Azərbaycan Atçılıq Federasiyası
2) Azərbaycan Atıcılıq Federasiyası
3) Azərbaycan Ağırlıqqaldırma Federasiyası

**İlin ən yaxşı idman federasiyası**

1) Azərbaycan Cüdo Federasiyası
2) Azərbaycan Gimnastika Federasiyası
3) Azərbaycan Güləş Federasiyası

**İlin kişilərdən ibarət ən yaxşı klub komandası (oyun idman növləri)**

1) "Qarabağ" Futbol Komandası
2) "Azərreyl" çimərlik voleybol komandası
3) "Birbaşa Bakı" Minifutbol komandası

**İlin qadınlardan ibarət ən yaxşı klub komandası (oyun idman növləri)**

1) "Azərreyl" çimərlik voleybol komandası
2) "Neftçi" 3x3 basketbol komandası
3) "Qarabağ" həndbol komandası

**İlin kişilərdən ibarət ən yaxşı milli komandası**

1) Yunan-Roma güləşi üzrə milli komanda
2) Cüdo üzrə milli komanda
3) Sərbəst güləş üzrə milli komanda

**İlin qadınlardan ibarət ən yaxşı komandası**

1) Bədii gimnastika üzrə qrup hərəkətləri komandası
2) 3x3 basketbol üzrə milli komanda
3) Güləş üzrə milli komanda

**İlin qeyri-Olimpiya idman növləri üzrə ən yaxşı məşqçisi**

1) İradə Qurbanova (Akrobatika gimnastikası)
2) Adil Hüseynzadə (Tamblinq gimnastikası)
3) Eduard Məmmədov (Kikboksinq)

**İlin ən yaxşı qadın məşqçisi**

1) Siyana Vasileva (Bədii gimnastika)
2) Solmaz Adilova (Qadın güləşi)
3) Larisa Axundova (Kanoe və kayak)

**İlin ən yaxşı kişi məşqçisi**

1) Riçard Trautman (Cüdo)
2) Məmməd Abdullayev (Taekvondo)
3) Qurban Qurbanov (Futbol)

**Qeyri-Olimpiya növləri üzrə ilin ən yaxşı idmançısı**

1) Ağasif Rəhimov və Raziyə Seyidli (Akrobatika)
2) Ülviyyə Fətəliyeva (Şahmat)
3) Əliqismət Həsənov (Karate)

**İlin ən yaxşı qadın paralimpiyaçısı**

1) Lamiyə Vəliyeva (Paraatletika)
2) Dürsədəf Kərimova (Paracüdo)
3) Könül Süleymanova (Paraüzgüçülük)

**İlin ən yaxşı kişi paralimpiyaçısı**

1) İmaməddin Xəlilov (Parataekvondo)
2) Səid Nəcəfzadə (Paraatletika)
3) İlham Zəkiyev (Paracüdo)

**İlin ən yaxşı qadın idmançısı**

1) Yaylagül Ramazanova (Kamandan oxatma)
2) Anna Skidan (Atletika)
3) Mariya Stadnik (Güləş)

**İlin ən yaxşı kişi idmançısı**

1) Hidayət Heydərov (Cüdo)
2) Zelim Kotsoyev (Cüdo)
3) Qaşım Maqomedov (Taekvondo)

Tədbirdə karyerasını başa vurmuş bədii gimnastlar Zöhrə Ağamirova və Zeynəb Hümmətova, güləşçilər Hacı Əliyev və Sabah Şəriəti idmanın inkişafındakı xidmətlərinə görə təltif olunublar.

Tədbir bədii hissə ilə davam edib.

**XQ**

# "Ən yaxşılar"ın növbəti hədəfləri

**Gənclər və İdman Nazirliyində mükafatlandırılan 2024-cü ilin ən yaxşı idmançılarından bir neçəsi ilə görüşüb həmsöhbət olduq.**

**"İlin kişilərdən ibarət ən yaxşı milli komandası" nominasiyasında yunan-Roma güləşi üzrə milli komanda qalib elan olunub. Yığmanın baş məşqçisi Aleksandr Tarakanov sevincini "Xalq qəzeti" ilə bölüşdü:**



– Yunan-Roma güləşi üzrə milli komandamız 2024-cü ildə böyük uğurlar qazandı. Albaniyada keçirilən dünya çempionatında yığmamız tarixi nailiyyətə imza atmaqla Azərbaycan güləş tarixində yeni səhifə açdı. Millimiz bu uğurla Azərbaycan güləşində birdən-birə 2 rekordu yenilədi. İkinci dəfə dünya çempionluğu kubokunu qazanmaqla böyüklər arasında güləş növlərimiz arasında ilkə imza atan yunan-Roma millimiz həm də bir Dünya çempionatında 3 qızıl medal qazanan ilk komanda oldu. Paris Olimpiadasından da medalla qayıtdıq. Hazırda ən güclü yığmalarla rəqabət apara biləcək komanda hazırlayırıq. Federasiya rəhbərliyi idmançıların maksimum nəticələr göstərməsi üçün geniş imkanlar yaradır.

Bu il bizi Avropa, Dünya çempionatları, İslam Həmrəyliyi Oyunları və digər nüfuzlu yarışlar gözləyir. Ötən il olduğu kimi, bu il də komandamızın maksimum hazırlığı üçün bir sıra təlim-məşqlər nəzərdə tutulub. Adətən, yığmamız təlim-məşqlərini inkişaf etmiş güləş ölkələrində keçir. Həmişə olduğu kimi, bu il də Bakıda keçiriləcək təlim-məşqlərə güclü güləş komandalarını cəlb etməyi planlaşdırırıq. İlk birgə hazırlıq üçün isə bir neçə gündən sonra Xorvatiyaya təlim-məşqə yola düşəcəyik. Federasiya rəhbərliyi idmançıları və məşqçiləri dəstəkləyir, hər bir çıxışımızı izləyir, məşq və yarışlarla bağlı bütün məsələlərin həllində iştirak edir.

**"2024-cü ilin ən yaxşı Uşaq-Gənclər İdman Məktəbi" – "Ulduz" Futbol Akademiyasının direktoru Mehman Əlimov:**



– "Ulduz" Futbol Akademiyası 2023-cü ilin may ayında yaradılıb. Akademiyada yeniyetmə futbolçuların inkişafı üçün hər bir şərait var. Ötən müddət ərzində bir sıra nailiyyətlər əldə edə bilmişik. 2024-cü ilin ən yaxşı Uşaq-Gənclər İdman Məktəbi seçilməyimiz bizə göstərilən böyük etimaddır. Dəstəyə Gənclər və idman Nazirliyinə minnətdarıq. Eləcə də "Ulduz" ailəsinin hər bir üzvünün uğurların əldə edilməsində payı var və bunun üçün onlara təşəkkür edirik.

Artıq 2024–2025-ci il mövsümündə 9 komandamız AFFA bayrağı altında keçirilən liqalarda çıxış edir. Hazırda çempionatlar davam edir. Müxtəlif yaş qruplarında komandalarımız qabaqcıl mövqelərdədir. Bu ay seleksiya günlərimiz oldu. Seleksiya nəticəsində yeni futbolçular aşkar edildi. Bu ayın son həftəsində Gürcüstanın Tbilisi şəhərində təlim-məşqlər keçəcəyik. Orada 3 komanda ilə yoldaşlıq görüşləri də planlaşdırılıb. Bu il yenə də ölkəmizdə "Ulduz Cup" beynəlxalq turnirinin keçirilməsi nəzərdə tutulub. Ötənilki kimi 8 komanda iştirak edəcək ki, onlardan biri də "Ulduz"un yığması olacaq. Qonşu və yaxud Avropa ölkələrindən dəvətlər olacaq və onları da dəyərləndirəcəyik. Bu il qarşıya yeni hədəflər qoyulub. Azərbaycan milli komandası üçün futbolçular yetişdirmək, ölkə futboluna istedadlı oyunçular qazandırmaq əsas məqsədimizdir. Bunun üçün bütün səylərimizi toplayacağıq.

**"2024-cü ilin Ədalətli oyun (Fair Play) mükafatçısı" Qaşım Maqomedov, taekvondoçu:**



– 2024-cü ildə iştirak etdiyim bütün rəsmi yarışlarda medal qazandım. Amma nəticələr daha yaxşı ola bilərdi. Avropa çempionatında və Olimpiya Oyunlarında çempion ola bilərdim. Düşünürəm ki, zədələnməsəydim, qızıl medal qazana bilərdim. Bununla belə, Olimpiya Oyunlarının medalı çox yüksək nəticədir. Paris Olimpiadasında qazandığım mükafat, 2 ay sonra – oktyabrda isə qızımın dünyaya gəlişi həyatımda ən əlamətdar hadisələrdir.

Bu il bizi yeni qələbələr gözləyir. 2025-ci ildə yalnız çempionluq uğrunda mübarizə aparacağam. Qarşıda bizi İslam Həmrəyliyi Oyunları, Dünya və Avropa çempionatları kimi nüfuzlu yarışlar gözləyir. Bu il ümdə arzularımdan biri Dünya çempionu olmaqdır. Əsas hədəf isə Olimpiya qızılıdır. Növbəti illər hazırlığımı davam etdirib Olimpiya çempionu olmaq istəyirəm.

**"2024-cü ilin ən yaxşı hakimi" Emil Qurbanəliyev:**




– Beynəlxalq dərəcəli (3 ulduzlu) boks hakimiyəm. Olimpiya Oyunlarında hakimliyin yolu Dünya, Avropa çempionatlarından keçir. Bunun üçün reytinq xalları yığmalısan. Daha sonra Olimpiya təsnifat turnirlərində uğurla hakimlik edənlər Olimpiya Oyunlarına dəvət alırlar. Mən də ötən il Çilidə keçirilmiş Panamerika Oyunlarında hakimlikdən sonra yüksək dərəcə aldım. Paris Olimpiadasına dəvət olunmağım mənim üçün böyük uğur idi. Bu yarışın görüşlərində verdiyim qərarların hər birində düzlüyə önəm verirdim. Paris Olimpiadasında boks hakimi kimi Azərbaycanın adını layiqincə təmsil etməyə çalışırdım. Olimpiadda müxtəlif mərhələlərin döyüşləri ilə yanaşı, finalda da ədaləti qoruyurdum. Oyunlarda döyüşləri ən yaxşı idarə edən ədalət təmsilçisi seçilməyim mənim üçün çox böyük uğur oldu. Referilərin reytinqində birinci olduğum üçün "Paris-2024"ün sertifikatı ilə təltif edildim.

"2024-cü ilin ən yaxşı hakimi" seçildiyim üçün Gənclər və İdman Nazirliyinə minnətdaram. Çalışacağam ki, üzərimə düşən vəzifəni yüksək səviyyədə yerinə yetirim.

**Leyla QURBANOVA**
**XQ**

# Bakı Zooloji Parkının yeni sakini - "Simba"

**Almatı Heyvanat Parkından gətirilən "Simba" adlı beş yaşlı erkək şir Bakı Zooloji Parkının daimi sakininə çevrilib.**



Dünyanın ən iri ikinci yırtıcı pişikkimiləri olan şirlər (Panthera leo) ən çox Şərqi və Cənubi Afrikanın geniş və açıq düzənliklərində, savannalarda, meşələrdə və yarımsəhra ərazilərində məskunlaşır. Dişi fərdlər, balalar və bir neçə erkək fərd "prayd" adlanan qruplarda yaşayırlar. Vəhşi təbiətdə 10-14, qapalı şəraitdə isə təhlükələrdən uzaq olduqları üçün daha çox, təxminən, 20 il ömür sürürlər.

Bakı Zooloji Parkın əsas məqsədi Azərbaycanın "Qırmızı Kitab"ına daxil, nadir və nəsli kəsilmək üzrə olan heyvan növlərinin qorunub saxlanılması, çoxaldılaraq yenidən təbiətə buraxılmasını təmin etməklə yanaşı, həmçinin ziyarətçilər üçün canlı aləm haqqında bilik əldə edə biləcəkləri təhsil və maarifləndirmə layihələrini təşkil etməkdir.

Xatırladırıq ki, şirin Bakıya gətirilməsi Almatı Heyvanat Parkı ilə aparılan beynəlxalq mübadilə çərçivəsində həyata keçirilib.

AMEA-80

# Azərbaycan elminin baş qərargahı

**Vikipedik məlumata əsasən, SSRİ Xalq Komissarları Sovetinin 1945-ci il 23 yanvar tarixli qərarı ilə ölkə Elmlər Akademiyasının filialı Azərbaycan EA-ya çevrilib. Bu vaxt akademiyanın 4 bölməsi, 16 elmi-tədqiqat institutu, 3 muzeyi, mərkəzi elmi kitabxanası, yerlərdə elmi bazaları var idi. Azərbaycan EA-ya 15 həqiqi üzv seçildi və respublikanın ali elmi idarəsi fəaliyyətini daha da genişləndirdi, intellektual dəyərlər milli sərvətə çevrilməyə başladı.**



AMEA-nın vitse-prezidenti Azərbaycanda kimya elminin inkişafında, bu sahədə yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasında böyük rolu olan görkəmli alim, Dövlət mükafatı laureatı, , "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin direktoru, "Şöhrət" ordenli akademik Tofiq Nağıyevlə söhbətimiz 80 yaşlı AMEA-nın keçdiyi şərəf yolu, hazırda görülən işlər barədədir.

**– Tofiq müəllim, məlumdur ki, bu il Azərbaycan Milli Elmlər Akademiyasının yaradılmasının 80 ili tamam olur. Yubiley münasibətlə rəhbərlik etdiyiniz Milli Ensiklopediyanın xüsusi buraxılışı nəzərdə tutulurmu?**

– Bəli, Azərbaycanın ən böyük elm məbədi sayılan AMEA-nın 80 illik yubileyi mühüm elmi və mədəni hadisə kimi ölkəmizdə qeyd ediləcək. Əlbəttə ki, "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi AMEA-nın nəzdində fəaliyyət göstərən bir qurum kimi bu möhtəşəm yubileyə xüsusi diqqətlə yanaşacaq.

Xatırladım ki, 2008-ci ildə çap olunmuş ensiklopediyanın "Azərbaycan" adlı xüsusi cildində AMEA-nın yaranma tarixi, inkişaf mərhələləri, elmi nailiyyətləri, həmçinin bu sahədə fəaliyyət göstərən görkəmli alimlərin yaradıcılığı əks etdirilmişdir. Həmin nəşrdə "Elm. Texnika. Təhsil" bölməsi çərçivəsində "Təbiət və texnika elmləri" və "Humanitar elmlər və biliklər" mövzuları altında təqdim edilən məqalələrdə ölkəmizdə elmin müxtəlif sahələrinin formalaşması və inkişafı geniş şəkildə işıqlandırılmışdır. Həmçinin AMEA-nın strukturunda yer alan elmi-tədqiqat institutlarının fəaliyyəti və onların töhfələri haqqında dolğun məlumatlar verilmişdir. Düşünürəm ki, həmin materiallardan istifadə etməklə, eyni zamanda, yubileyin əhəmiyyətini əks etdirən önəmli məlumatlar daxil olunmaqla xüsusi yubiley buraxılışını hazırlayacağıq. Güman edirəm ki, bu nəşr, həm AMEA-nın tarixi nailiyyətlərini, həm də onun Azərbaycan elminə və cəmiyyətinə verdiyi töhfələri əks etdirərək yubileyin əhəmiyyətini daha da artıra bilər.

**– Ötən ilin oktyabr ayında dövlət başçısı tərəfindən Azərbaycan Milli Ensiklopediyasının Redaksiya heyətinin yeni tərkibi təsdiqlənib. Ensiklopediyanın növbəti cildinin çapı nə yerdədir? Yeni cilddə hansı yeniliklər gözlənilir?**

– Əvvəla onu bildirim ki, Azərbaycan Milli Ensiklopediyasının Redaksiya Heyətinin tərkibinə yenidən baxılması ilə əlaqədar uzun müddət idi ki, müzakirələr aparılırdı. Biz əvvəlki tərkibin yenilənməsi üçün zəruri kriteriyalar əsasında yeni təkliflər hazırladıq və dövlət başçısına təqdim etdik. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Redaksiya Heyətinin yeni tərkibi təsdiq edildi. Bu qərar ensiklopediyanın növbəti nəşrlərinin daha peşəkar və zəngin məlumatlar əsasında hazırlanacağına zəmin yaradır.

Növbəti cildlərin nəşrinə gəlincə, Azərbaycan Milli Ensiklopediyasının XI və XII cildləri hazırlansa da, 2020-ci ildə baş vermiş pandemiya səbəbindən fəaliyyətimizdə müəyyən fasilələr yarandı. Lakin o çətin günlərdə belə, biz X cildin vaxtında çapdan çıxmasını təmin etdik, eyni zamanda, növbəti cildlərin hazırlanmasını davam etdirdik. Elə həmin il sentyabrın 27-də Azərbaycan xalqının tarixində iz qoyan mühüm bir hadisə baş verdi – İkinci Qarabağ Müharibəsi başladı. Milli qürurumuzun təntənəsinə çevrilən möhtəşəm Zəfər bizim qarşımızda yeni məsuliyyət, müqəddəs vəzifələr qoydu. Birmənalı olaraq, nəşrə hazır cildlərə yenidən baxılmalı, bu tarixi hadisə ilə bağlı baş verən bütün dəyişikliklər kitablarda əksini tapmalı idi. Odur ki, vaxt itirmədən növbəti nəşrlərin üzərində yenidən işləməyə başladıq və bu istiqamətdə işlər indi də davam edir.

Hazırda milli ensiklopediyanın yenidən işlənmiş növbəti XI cildi çap prosesindədir. Nəticə olaraq qeyd edim ki, yeni cildlərdə Azərbaycanın tarixi Zəfəri ilə bağlı mühüm məqamlar yer alacaq. Ensiklopediyanın məzmunu daha da zənginləşdiriləcək, yeni nəşrlər milli kimliyimizi, qürurumuzu əks etdirəcək.

Əlavə olaraq deyim ki, 2025-ci ildə "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi tərəfindən hazırlanan "Heydər Əliyev Ensiklopediyası"nın ictimaiyyətə təqdim olunması nəzərdə tutulur. Hazırda ensiklopediya üçün məqalələrin hazırlanması prosesi sürətlə davam edir.

**– Bəs ensiklopediya digər dillərə tərcümə olunacaqmı?**

– Tərcümə məsələsinə gəlincə, biz 2012-ci ildə ensiklopediyanın rus dilində "Azərbaycan" adlı xüsusi cildinin nəşrinə nail olmuşuq. Lakin məlumdur ki, ensiklopediyanın tərcüməsi yüksək peşəkarlıq və təcrübə tələb edən bir işdir. Xüsusilə, ingilis dilində tərcümə üçün mükəmməl baza olmalıdır. Təbii ki, biz bu istiqamətdə də işlərimizi davam etdiririk.

**– Bu gün Azərbaycanda alim və mütəxəssislərin əldə etdikləri nailiyyətlərin praktikada tətbiqi sahəsində müəyyən problemlər var. Bu barədə fikir və təkliflərinizi eşitmək istərdik.**

– Bilirsiniz ki, alim və mütəxəssislərin qazandıqları nailiyyətlərin praktikada tətbiqi, yəni elmin kommersiyalaşdırılması, həmin nailiyyətlərin əhəmiyyəti və perspektivləri ilə birbaşa bağlıdır. Elmi nailiyyətlərin praktikada daha geniş tətbiqi üçün lazımi infrastruktur və yetərli resurslar olmalıdır. Düşünürəm ki, bu sahədə olan problemlərin həlli üçün elm və biznes arasında əlaqələrin gücləndirilməsi, investisiya və dəstək mexanizmlərinin təkmilləşdirilməsi, patent və müəllif hüquqlarının qorunması, eyni zamanda, elmi nailiyyətlərin tanıdılması və tətbiqi sahəsində maarifləndirmə işlərinin aparılması son dərəcə vacibdir.

Lakin nəzərə almaq lazımdır ki, elmin kommersiyalaşdırılması təkcə alimlərin deyil, sahibkarların və cəmiyyətin birgə fəaliyyəti ilə mümkün olacaq bir prosesdir. Təklif edilən mexanizmlərin düzgün tətbiqi bu sahədə ciddi irəliləyişlərə yol aça bilər.

**– Bəzən kimyanın cəmiyyətin, insanların həyatında rolu kifayət qədər qiymətləndirilmir. Hətta bu elmi dünyada böyük ekoloji problemlərin, bir çox xəstəliklərin mənbəyi hesab edirlər. Lakin, eyni zamanda, bu gün bəşəriyyət kimyadan sağlam ətraf mühit, unikal enerji mənbələri, effektiv dərman preparatları gözləyir. İstərdik ki, bu kimi mülahizələrə münasibət bildirsəniz.**

– Bu gün deyə bilmərik ki, kimya elminin cəmiyyətdəki rolu yetərincə qiymətləndirilməyib. Əgər belə olsaydı, dünya miqyasında böyük sənaye şəhərləri, texnologiya mərkəzləri və müasir innovativ qurğular yaranmazdı. Ekologiyaya gəlincə, müasir dövrdə dünya miqyasında "0" tullantı üzrə çox böyük beynəlxalq layihələr həyata keçirilir. Əlavə olaraq qeyd edim ki, Azərbaycanda bu istiqamətdə tədqiqatların əsası təxminən 1970-ci illərdə qoyulmuşdur. Hazırda dünya miqyasında qəbul olunmuş "yaşıl kimya" üzrə tədqiqatlara respublikamızda elə həmin dövrlərdə başlanmışdı.

Məlumdur ki, Azərbaycanda mühüm tarixi əhəmiyyəti olan COP29 tədbiri yüksək səviyyədə keçirildi. Əminliklə deyə bilərik ki, dünyanın əksər ölkələrinin iştirak etdiyi bu mötəbər beynəlxalq toplantı Azərbaycanın ekoloji problemlərinin həlli istiqamətində göstərdiyi səylərin dünya ictimaiyyəti tərəfindən qəbul edildiyini təsdiq edir. Çünki respublikada ekoloji problemlər dövlətin nəzarəti altında olmasaydı, belə bir qlobal tədbirin təşkili mümkün olmazdı.

Nəhayət, qeyd edim ki, 80 yaşlı akademiyamızın həm kimya, həm də digər bütün sahələr üzrə sanballı nailiyyətləri var və alimlərimiz elm naminə fədakarlaqlarını bundan sonra da artırmaq əzmindədirlər.

**– Maraqlı müsahibəyə görə təşəkkür edirik.**

*Nərgiz QƏHRƏMANOVA,*
*AMEA Rəyasət Heyəti aparatının sektor müdiri*

# Qışın nəğməli möcüzələri



**Beynəlxalq Muğam Mərkəzində Azərbaycan Tibb Universitetinin tələbələrinin iştirakı ilə "Qış möcüzələrinin səsləri" adlı təntənəli konsert proqramı təqdim olunub.**

Tədbirdə Xalq artisti Fidan Hacıyevanın Vokal Musiqi Məktəbinin tələbələri ATU-nun "Şəfa" xalq çalğı alətləri ansamblının üzvləri və "Mezzo" kamera orkestrinin müşayiəti ilə çıxış ediblər.

Konsert zamanı "Arşın mal alan", "Sevil", "Karmen" operalarından hissələr, Üzeyir Hacıbəylinin "Gözəlim, yar Gözəlim", Cahangir Cahangirovun "Cənnətim Qarabağ", Tofiq Quliyevin "Dostluq mahnısı" və digər əsərlər səsləndirilib. Yeni il mövzulu klassik və müasir musiqi parçaları ilə yanaşı, vətənpərvərlik mövzusunda əsərlərin ifa olunduğu konsert proqramı Müslüm Maqomayevin məşhur "Azərbaycan" mahnısı ilə başa çatıb.

Proqramın sonunda ATU-nun rektoru, professor Gəray Gəraybəyli belə möhtəşəm konsertin ərsəyə gəlməsində rolu olan hər kəsə təşəkkürünü bildirib. Qeyd edib ki, F.Hacıyeva cəmi 2 ay ərzində müxtəlif gənclərin qrup halında peşəkar səhnəni paylaşmasını bacarıqla təmin edib. Öz növbəsində, Xalq artisti Fidan Hacıyeva da rəhbərlik etdiyi Vokal Musiqi Məktəbinin fəaliyyəti, planlaşdırılan yeni layihələr barədə məlumat verib. O, ATU tələbələrini "Arşın mal alan" operasında iştirak üçün dəvət edib.

*Qəzənfər QASIMOV*
*XQ*

Təqvim yada salır



БИРЛӘШИН
Бакы
АХШАМ ГӘЗЕТИ
1958-чи илдән чыхыр
АЗӘРБАЈҸАН КП БАКЫ КОМИТӘСИ ВӘ БАКЫ ШӘҺӘР ЗӘҺМӘТКЕШ ДЕПУТАТЛАРЫ СОВЕТИНИН ОРГАНЫ
ОРГАН БК КП АЗЕРБАЙДЖАНА И БАКИНСКОГО ГОРОДСКОГО СОВЕТА ДЕПУТАТОВ ТРУДЯЩИХСЯ
№ 66 (3802)
Ҹүмә, 20 март 1970-чи ил
Гијмәти 2 гәпик

# Paytaxtın aynasına çevrilmiş mətbu nəşr

## *"Bakı–Baku" axşam qəzetinin ilk nömrəsinin çapından 67 il ötür*

**"Bakı" axşam qəzeti fəaliyyətə başlayana qədər görkəmli jurnalist və alim Nəsir İmanquliyev "Gənc işçi", "Yeni yol", "Kommunist", "Döyüşən Krım" qəzetlərində, Bakı Şəhər Soveti İcraiyyə Komitəsində, Azərbaycan KP Mərkəzi Komitədə, Radioinformasiya Baş İdarəsində, Dövlət Radio və Televiziya Verilişləri Komitəsində məsul vəzifələrdə çalışmışdı. Buna görə də onun rəhbərliyi ilə 1958-ci il yanvarın 10-da işıq üzü görən, 35 min tirajla nəşrə başlayan "Bakı– Baku" milli mətbuat tariximizə özünün səsi, nəfəsi, dəst-xətti ilə yazıldı.**

Az müddətdə hadisələrə münasibəti, ictimai-siyasi və mədəni mühitdə baş verən olayları çevik əks etdirməsi "Bakı"nı təkcə bakılıların deyil, bütün respublikanın sevimlisinə çevirdi. Bu qəzetin səhifələrində ilk dəfə idman şərhləri, beynəlxalq vəziyyətə münasibət, rəsmi və qeyri-rəsmi tədbirlərdən birbaşa reportajlar yer aldı. Ana dilinin bütün incəlikləri ilə işıq üzü görən, orfoqrafiya və orfoepiya qaydalarına əməl edən, sözü müxtəlif çalarlarda oxucuya təqdim edən, ona baş yazarının redaktə üslubunu gətirən "Bakı" qəzeti davamlı ədəbiyyat səhifələri ilə də tez bir zamanda şöhrətlənməyə başladı.

"Bakı" dövrünün məşhur qələm sahiblərinin ədəbiyyatda, poeziyada, incəsənətdə, mədəniyyətdə, elmdə öz sözünü deməyə cəhd edən gənclərin tribunasına çevrildi. Burada Azərbaycan bədii söz sənətinin bütöv nəsli yetişdi. Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Cabir Novruz, Gülhüseyn Hüseynoğlu, Nüsrət Kəsəmənli və onlarca digər söz ustaları bu sıradadırlar.

"Bakı" qəzetinin daimi oxucusu kimi, mən də Rəsul Rzanın, Mir Cəlalın, Hüseyn Abbaszadənin, İsmayıl Şıxlının, Həsən Seyidbəylinin, Balaş Azəroğlunun, Qılman İlkinin, Qabilin, Vidadi Babanlının, Anarın, Elçinin hələ kitab səhifəsinə çıxmamış əsərlərini isti-isti "Bakı" qəzetindən oxumuşam. "Ardı var" sonluğu ilə çap olunan roman və povestlərin baş qəhrəmanlarının taleyini öyrənmək üçün axşama qədər səbirsizlənirdim. Qəzet köşklərinin önündə növbələrə dayanırdım.

Onu da qeyd edək ki, "Bakı"nın məşhur olduğu dövrlərdə 150–200 min tirajla çap olunan, digər mətbu nəşrlərin önündə gedən qəzetlər var idi: "Kommunist", "Sovet kəndi", "Azərbaycan gəncləri", "Bakinski raboçi", "Vışka". Amma sovet mətbuatının bütün çalarlarını, qayda-qanunlarını özündə yaşadan bu qəzetlərdən fərqli olaraq, "Bakı" özünün dəst-xətti, hadisələrə münasibəti, sənəti, mədəniyyəti himayə etmək məharəti ilə milli mətbuatımızın populyar nəşrinə çevrilmişdi.

Bu gün Qafqazın mədəni-siyasi mərkəzinə çevrilən, Şərqlə Qərbi TRASEKA, TASİS proqramlarında, İpək Yolu, Orta Dəhliz layihəsində bir-birinə qovuşduran Bakının 1960–70-ci illəri elmi-texniki tərəqqinin, tikinti-quruculuğun yüksəlişi dövrü idi. O zaman Nəsir müəllim radionu "Bakı" qəzetinə dəyişərək, sevgili peşəsinin dalınca getdi. Tale onu jurnalistika, özü də məhz qəzet jurnalistikası üçün xəlq etmişdi.

Düz 30 il dəyişməyən bir ünvanda onu qələmdaşları və oxucuları ilə mənalı görüşlər, milli mətbuatımızın parlaq səhifələrini yazmaq amalı müşayiət edib. Düz 30 il sərasər ürəyini sevdiyi işə verib, sinəsini dəftər, əlini qələm edib. Beləcə axşam görüşlərini səhərlər sözə köçürüb, söz adamlarından ibarət böyük bir komandanın faydalı iş əmsalını artırmağa və qəzeti oxucuların sevimlisinə çevirməyə nail olub. Görünür, Tanrı Nəsir müəllimin taleyinin bu üzünü də səxavətli, rəğbətli çağlarında xəlq etmişdi...

Yarım əsrdən çox pedaqoji fəaliyyətini üst-üstə yığsaq, Nəsir müəllimdən 5 mindən çox tələbənin dərs aldığı bəlli olar. Eyni zamanda, ömrünün 30 ilini iki dildə nəşr olunan qəzetə həsr edən Nəsir müəllimin, azı, 5 milyon oxucusu olub. Çünki onun ruhunun işığı olan "Bakı"nın auditoriyası Azərbaycan boyda idi. Və bu auditoriya üçün nə rəsmi dairələrin sərəncamı, nə tikinti-quraşdırma işləri, nə də tədris planı lazım idi. Onun ünvanı duyan qəlblər, görən gözlər, qərar çıxaran beyinlər idi.

Nəsir müəllimin "Bakı"sı, sözün gerçək mənasında, paytaxtın güzgüsü idi. O aynada özünü əyri görən də, düz tapan da var idi. Bu, məsələnin zahiri tərəfi idi. Batində isə "Bakı" mənəvi dəyərlərin cilalandığı, arınıb duruldüğu, pisin yaxşıdan, kamilin cahildən seçildiyi bir dünya idi.

Bu səbəbdəndir ki, üstündən 67 il ötəndən sonra belə "Bakı" elektron versiyada, onlayn formada (özü də Azərbaycan, rus və ingilis dillərində) varlığını qoruyur, Bakı Şəhər İcra Hakimiyyətinin rəsmi informasiya qurumlarından biri kimi oxucuların görüşünə gəlir, şəhər həyatına yenə ayna tutur. "Bakı" və "Baku" qəzetlərinin redaksiyasında keçən illər Nəsir müəllimin çoxillik zəngin və şərəfli tərcümeyi-halının parlaq səhifələrini təşkil edib.

Sonda Nəsir İmanquliyevin Bakıda paytaxt qəzeti yaradılması ilə bağlı xatirəsini oxuculara təqdim edirik.

*Şərəf CƏLİLLİ,*
*yazıçı-publisist*

# "Bakı" qəzeti necə yarandı?

**"Yeni yol" qəzeti gözlənilmədən bağlandı. "Vışka" qəzeti Mərkəzi Komitənin orqanı kimi fəaliyyətini davam etdirdi. Bir nəfərdə o vaxt təpər tapılmadı ki, soruşsun: balam, əhalisi əksəriyyət təşkil edən xalqın ana dilində çıxan qəzetinin günahı nədir? – bu sualı heç vaxt, heç kəsə verən olmadı. Lakin mən qəzetdən uzaqlaşdıqdan sonra, uzun müddət müxtəlif yerlərdə çalışmağımdan asılı olmayaraq, bu suala cavab axtarırdım.**

Nəhayət, bir gün topladığım faktlardan, gəldiyim qənaətlərdən sonra bir məktub hazırladım. O vaxt Mərkəzi Komitənin birinci katibi Mircəfər Bağırov idi. Mənim məktubumu yuxarılara çatdırırlar. Baxılıb qərar çıxarıldı. Onda belə idi ki, bizim Mərkəzi Komitənin hər hansı bir qərarı mütləq Moskvaya göndərilməli idi. Belə də oldu. Sov. İKP-dən xahiş olunurdu ki, Azərbaycanın paytaxtı Bakı şəhərində qəzet çıxarılmağa icazə verilsin.

Aradan xeyli keçmiş məni Mərkəzi Komitəyə çağırdılar. O zaman Mərkəzi Komitənin katibi Şıxəli Qurbanov idi. Şıxəli Qurbanov stolunun gözündən bir qərar çıxarıb göstərdi və dedi:

– Moskva yeni qəzet çıxarmaq barədəki qərarımızı təsdiqləyib. İstəyirəm işin ilk təşəbbüskarı olduğun üçün məsuliyyəti də, sənin üzərinə qoyaq, universitetdəki dərslərini demək şərti ilə.

Qəzet əvvəlcə kiçik formatda fəaliyyətə başladı. Sonradan oxucu marağını nəzərə alıb həcmini genişləndirdik, eyni zamanda, rus oxucularını da nəzərə alıb "Baku" qəzetinin də paralel nəşrinə başladıq. Bakı Şəhər Sovetinin orqanı olan "Bakı" və "Baku" axşam qəzetlərinin təməli belə qoyuldu.

*Nəsir İMANQULİYEV*

# Tramp ailəcanlı prezidentdir

## *ABŞ lideri ailə təsisatına böyük önəm verir*

**“ABŞ-də mənəvi dəyərlər aşılanır”. Bu ifadə Amerikada müxtəlif illərdə aparılan ictimai rəy sorğularının nəticələrində tez-tez qeyd olunur. Məsələn, “Gallup” ictimai rəy institutunun 2017-ci ildə dərc etdiyi araşdırmada da məhz bu nəticə öz əksini tapmışdı. O zaman rəy sorğusunun nəticələri göstərmişdi ki, amerikalıların 77 faizi Amerika cəmiyyətində etik dəyərlərin keçmişlə müqayisədə aşağı düşdüyü qənaətindədir. Ötən müddət ərzində də bu məsələ ilə bağlı vəziyyətdə ciddi dəyişiklik müşahidə olunmur. Belə ki, 2024-cü ildə amerikalı siyasətçi Ben Karson “Fox News” televiziyasına müsahibəsində bildirmişdi ki, ABŞ-də ənənəvi dəyərlər və ailə institutu yoxa çıxır.**



“ABŞ-də ailə həm fərdi cəmiyyətin, həm də bütövlükdə cəmiyyətin əsaslandığı əsas elementdir. Adətən, bu dəyərlər ailə daxilində aşılanır, amma məsələ ondadır ki, insanlar onları bu və ya digər mənbədən alırlar”, – amerikalı siyasətçi Ben Karson belə düşünür. Onun sözlərinə görə, hazırda ABŞ cəmiyyətindəki vəziyyət belədir ki, dəyərlər artıq ənənəvi ailədə mənimsənilmir, onlar ancaq internetdən, sosial şəbəkələrdən, küçədəki dostlardan alınır və bir vaxtlar bizi böyük edən dəyərlər indi dağılır: “İnancımız, cəmiyyətə, azadlığa, həyata dəyər verən inanc sistemimiz bir növ kənara atılır. Nəticədə, deqradasiyanı görürük”.

Ailə dəyərlərinin təhlükəli zolağa düşdüyünü Donald Tramp da yaxşı görür. O, hələ 2016-cı ildə seçicilərinə müraciətində demişdi ki, evlilik və ailə xoşbəxtliyin və uğurun təməlidir: “Mən gözəl ailələri olan bir çox uğurlu insanları tanıyıram. Bu, puldan çox önəmlidir, insanlar, mənə inanın”. Cənab Tramp indi də eyni sözlərini təkrarlayır. ABŞ-nin yeni prezidenti bəyan edir ki, Amerika rəsmi olaraq iki cinsin – kişi və qadın siyasətini həyata keçirəcək. Arizonada keçirilən “Turning Point” konfransında o, birmənalı şəkildə bildirdi ki, yeni administrasiya demokratlar dövründə geniş yayılmış transgender dəliliyinə və digər hadisələrə son qoymaq niyyətindədir.

Bundan başqa, Tramp uşaqların cinsi mutasiyasına son qoyacağını və transgenderləri ordudan, eləcə də ibtidai, orta və liseylərdən kənarlaşdıracağını vəd edir. Ekspertlərin sözlərinə görə, yeni prezidentin sözləri belə deməyə əsas verir ki, qeyri-ənənəvi cinsi münasibətlərin davamlı və mütəmadi təbliğatı, “düşünülmüş” cinslərin meydana çıxması, onların nümayəndələrinin ABŞ strukturlarında işləmək üçün ayrılan kvota əhəmiyyətini itirir. Donald Trampın bu mövqeyi Qərbdə və dünyanın qalan hissəsində liberal və mütərəqqi ideologiya elementlərinin müasir mədəniyyətin yeni cərəyanları şəklində təbliği deməkdir. Bəs “Qoca qitə”də də eyni tendensiyanı müşahidə edə biləcəyəkmi? Hələlik, Avropanın bir çox ölkəsində Trampın ideyalarına dirəniş göstərmək istəyi müşahidə olunur.

Bu bir həqiqətdir ki, ABŞ-də fərdi etikanın və ailə dəyərlərinin tənəzzülü ölkədə sosial əxlaqa ciddi təsir göstərir. Hazırda ABŞ məhbusların sayına görə dünyada liderdir–2 milyon şəxs həbsxanalarda cəzalarını çəkirlər. Ağ evin saytında deyildiyi kimi, ABŞ məhbuslarının əksəriyyəti “people of color” (rəngli insanlar) və ya sadəcə olaraq qeyri-ağ irqdən olan insanlardır. Şərti cəzaya məhkum olunanların sayı isə daha çoxdur. Bu vəziyyət yeniyetmələr və gənc amerikalılar arasında daha pisdir. Halbuki Amerika tarixçilərinin və sosioloqlarının bununla bağlı qeyd etdikləri kimi, 1950-ci illərdə Amerika cəmiyyətinə bötüvlük hissi nüfuz etmişdi, cəmiyyət qarşısında məsuliyyət hissi yaranmışdı. Bu, Böyük Depressiyanın sarsıntılarından və İkinci Dünya Müharibəsi zamanı verilən fədakarlıqlardan sonra sabitlik istəyindən irəli gəlirdi. Müharibədən sonrakı onillikdə ənənəvi dəyərlərə qayıdış baş verdi, onun çərçivəsində ailə və ailə münasibətləri əsas sosial instituta çevrildi.

O illərdə məhz ailə münasibətləri sistemində kişilər evə qazanc gətirən şəxs rolunu oynayır, qadınlar isə işləsələr belə, əsas vəzifələrini daha çox evdə ailə üzvlərinə qayğı göstərməkdə görürdülər. Həmin dövrdə televiziyadan geniş istifadə “Amerika cəmiyyətində uyğunluğun sosial həyatın dominant norması kimi bərqərar olmasına kömək etdi”. Eyni zamanda, televiziya gənc və yaşlı nəsil üçün foruma çevrildi və burada ümumi qəbul edilmiş sosial modelləri əks etdirən gündəlik həyatda universal təcrübə əldə etmək imkanı qazandılar. Amma indi Amerika ailəsi bütün dəyərlərini sürətlə itirir.

ABŞ-də alimlər və tədqiqatçılar qeyd edirlər ki, Amerika ailəsinin yalnız heteroseksual evliliyə, qan qohumluğuna və ya övladlığa götürməyə əsaslanan ənənəvi strukturu müasir şəraitdə əhəmiyyətsizləşib və artıq mövcud reallığı əks etdirmir. Ənənəvi, heteroseksual evlilik artıq cinsi münasibətləri tənzimləyən yeganə model deyil. ABŞ ştatlarında faktiki nikahlar (birgə yaşayış), qeydiyyatdan keçmiş tərəfdaşlıqlar və eynicinsli nikahlar kimi qeyri-ənənəvi ailə formaları hüquqi tanınır. 1980-ci illərdən başlayaraq, ABŞ-ın bir sıra ştatlarında nikahı qeydə almadan birlikdə yaşayan kişi və qadın üçün müəyyən hüquq və öhdəlikləri müəyyən edən qanunların qəbul edilməsi məlumdur.

Bundan başqa, amerikalı sosioloqlar qeyd edirlər ki, qeyri-ənənəvi ailə birliklərinin yaranması ABŞ-də baş verən dəyişikliklərin təbii nəticəsidir. Britaniyalı alim Entoni Giddens deyir ki, müasir cəmiyyət yenidən strukturlaşma prosesindədir, ənənələr, o cümlədən ailə cəmiyyətləri dəyişdikdə və hətta yox olduqda, post-ənənəvi cəmiyyət yaranır. Ailə həyatının formaları, eləcə də davranış normaları daha da müxtəlifləşib və ümumilikdə “yeni ailə plüralizminin” qurulmasından danışmaq olar. Ailə quruluşlarının yeni formalarının tanınması üçün zəruri olan hüquqi bazanı yaratmaqla, Amerika qanunvericiliyi bununla, bütövlükdə, cəmiyyətdə və xüsusən də ailədə baş verən dəyişikliklərə cavab verir. Son onilliklərdə Amerika cəmiyyətini bürümüş tendensiyalar ABŞ qanunvericiliyində öz əksini tapmışdır.

Əlbəttə, Amerika qanunvericiliyi cəmiyyətdə baş verən dəyişiklikləri nəzərə alır, çünki hüququn əsas vəzifəsi cəmiyyətdə yaranan münasibətləri tənzimləməkdir. Bununla belə, eynicinsli nikahların tanınması cəmiyyət üçün ciddi təhlükədir, çünki eyni cinsli birliklər ailənin əsas funksiyasını - reproduktivliyi (insanın bioloji peyda olması) yerinə yetirə bilmir. Halbuki hər hansı bir bioloji növün əsas vəzifəsi bu növün özünün həyatını qorumaqdan ibarətdir. Üstəlik, Amerika Pediatriya Kollecinin apardığı araşdırmaya görə, eyni cinsli valideynlər tərəfindən böyüdülən uşaqlar daha çox ailə qurmaq nümunəsinə tabe olurlar, çünki onlar valideynlərindən nümunə götürməyə meyllidirlər.

Fərdi azadlıq yeni əsrin ən böyük nemətidir, ancaq bu azadlığın verilməsində ümuməxlaqi norma sərhədlərini aşmaq istənilən cəmiyyət üçün sonu bilinməyən nəticələr doğura bilər. Xüsusilə də bu azadlıq normalarının təbiət qanunlarına qarşı qoyulması ümumi əxlaqi dəyərləri ciddi təhlükə altına salır. Məsələn, Qərbdə uşağın doğum haqqında şəhadətnaməsi işə götürülərkən və ya verilərkən cinsin göstərilməsi qanunla qadağandır. Hələ 2017-ci ildə Almaniya Ali Məhkəməsi “doğum haqqında şəhadətnamələrdə üçüncü sətrin görünməsi” ni, yəni oğlan, qız və “başqa” sözünü qüvvədə saxlamağa qərar vermişdi. Uşaq böyüdükdə və cinsi olaraq kim olacağına qərar verdikdə müəyyən edilə bilən bir növ orta cinsi vəziyyət sənədə yazılır. Bu, guya cinsiyyət əvəzinə sənədlərində “fərqli” bir cins yazmaq hüququndan istifadə etmək istəyənlərin hüquqlarını qorumaq üçündür. Beləliklə, əsrlər boyu insanları və ümumən canlıları – heyvanları, məməliləri və digərlərini cinsinə görə ayıran xətt Qərbdə silinir. Təəccüblüdür ki, bütün bunlar okeanın o tayında da mediada geniş şəkildə reklam olunur, insanların, xüsusən də gənc nəslin şüurunda belə bir həyat tərzinin qanuniliyi ideyası əkilir.

Filosoflar və sosioloqlar hesab edirlər ki, cəmiyyətlərin möhkəmliyi və uzunömürlü olması xalqların mənəvi və dini dəyərlərinin qorunub saxlanmasından asılıdır. Əgər bu dəyərlər sarsılarsa və ya bu dəyərlərin funksiyasına ümumi inam azalarsa, cəmiyyətlər deqradasiyaya uğrayar. Əlbəttə, bir çox amerikalılar hələ də əxlaqi, ailə və mənəvi dəyərlərə hörmət edirlər, lakin keçmişlə müqayisədə bu kateqoriyada ciddi boşluqlar var. Bu fərziyyə ondan ibarətdir ki, bu boşluqlar aradan qaldırılmadıqca və ABŞ-də bir növ mənəvi intibah baş vermədikcə, cəmiyyət dərin sosial, mədəni, siyasi və hətta təhlükəli nəticələr olmadan həlli mümkünsüz dərin problemlərdən əziyyət çəkəcək. ABŞ-nin yeni prezidenti də bu çöküşün qarşısını almaq istəyir.

***XQ***

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

*qeyd olunan kafedralar üzrə professor və dosent vəzifələrinə seçilmək üçün*

**MÜSABİQƏ ELAN EDİR**

**Azərbaycan dili və onun tədrisi texnologiyası kafedrası üzrə dosent – 2 ştat.**
**Ədəbiyyat kafedrası üzrə dosent – 1 ştat.**
**Ümumi pedaqogika kafedrası üzrə dosent – 1,5 ştat.**
**Fəlsəfə və sosial elmlər kafedrası üzrə dosent – 1 ştat.**
**Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrası üzrə dosent – 1 ştat.**
**Riyazi analiz kafedrası üzrə dosent – 1 ştat.**
**Riyaziyyat və onun tədrisi texnologiyası kafedrası üzrə dosent – 1 ştat.**
**Kompüter elmləri kafedrası üzrə dosent – 1 ştat.**
**Biologiya və onun tədrisi texnologiyası kafedrası üzrə dosent – 3 ştat.**
**Fiziologiya kafedrası üzrə dosent – 1 ştat.**
**Məktəbəqədər təhsilin pedaqogikası kafedrası üzrə dosent – 2 ştat.**
**Pedaqoji psixologiya kafedrası üzrə dosent – 1 ştat.**
**Təsviri incəsənət və onun tədrisi texnologiyası kafedrası üzrə professor – 1 ştat.**
**Musiqi və onun tədrisi texnologiyası kafedrası üzrə dosent – 1 ştat.**
**Ümumi fizika kafedrası üzrə dosent – 1 ştat.**
**Riyaziyyatın ibtidai kursunun tədrisi texnologiyası kafedrası üzrə dosent – 1 ştat.**
**Təbiət fənləri və onların tədrisi texnologiyası kafedrası (Şəki filialı) üzrə dosent – 1 ştat.**

**Müsabiqədə iştirak etmək istəyənlərin sənədləri Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə”nin tələblərinə uyğun bu elan dərc olunan gündən bir ay müddətində saat 9.00-dan 17.00-a qədər ADPU-nun İnsan resursları və kargüzarlıq şöbəsində qəbul edilir.**

**Əlaqə telefonu- (012) 498-08-16.**
**E-poçt: insan.resurslari@adpu.edu.az**
**www.adpu.edu.az**
**Ünvan- AZ-1000 Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi 68.**

***REKTORLUQ***

**Yaşıl adada fəlakət**

# Los-Anceles alov içində

**Yanvarın 7-dən Los-Anceles meşə yanğınlarının mühasirəsinə düşüb. Yerli hakimiyyət orqanları indiyədək 10 nəfərin öldüyü barədə məlumat verib, qurbanların sayının arta biləcəyini qeyd edib və hazırkı yanğınları rayonun tarixində ən dağıdıcı adlandırıb.**






Yanğın yanvarın 7-də axşam Los-Ancelesin şimalında yerləşən Altadenada baş verib. Onun nədən baş verdiyi hələlik məlum deyil. Lakin hakimiyyət orqanları ehtimal edirlər ki, uzun müddət davam edən quraq hava yanğına səbəb ola bilər. Qəfildən başlayan yanğın insanları təəccübləndirib. Bu günə qədər məlum olan bütün qurbanlar bu ərazinin sakinləridir.

Yanğının genişlənməsinə güclü külək səbəb olub. Yanvarın 9-da axşam saatlarında yanğınsöndürmə xidmətləri ümumi sahəsi 110 kvadrat kilometrdən çox olan beş yanğını qeydə alıb. Ərazi baxımından ən böyük yanğın İton Kanyonu ərazisində davam edir. Onun sahəsi 42,7 kvadrat kilometr qiymətləndirilir.

Ən böyük yanğın Pasifik Palisades bölgəsində olub. Artıq mindən çox binanı məhv edib. Yanğında məşhur aktyorlar Entoni Hopkinsin, Leonardo Dikaprionun, Adam Brodinin, Anna Farisin, Paris Hiltonun evi, həmçinin Hollivud əfsanəsi Uill Rocersin tarixi ferması da var.

Üçüncü ən böyük və genişmiqyaslı yanğın çərşənbə günü “Hollywood Hills” bölgəsində baş verib. Lakin yanğın tez bir zamanda nəzarət altına alınıb və cümə axşamı ərazidəki əhalinin əksər hissəsi məcburi təxliyyə edilib. “AccuWeather” analitik şirkəti Los-Ancelesdəki yanğınların vurduğu ziyanı və iqtisadi itkiləri 52–57 milyard dollar dəyərində qiymətləndirib. Şirkətin baş meteoroloqu Conatan Porterin sözlərinə görə, bu, artıq Kaliforniya tarixindəki ən dəhşətli meşə yanğınlarından biridir: “Əgər yaxın günlərdə dağılmış strukturların sayı artarsa, bu, yanmış strukturların sayına və iqtisadi itkilərə görə müasir Kaliforniya tarixində ən dağıdıcı meşə yanğını ola bilər”.

Hava proqnozu isə hələ də məyusedicidir. Yaxın günlərdə burada küləkli və quru hava şəraiti davam edəcək.

***SE LAY***
***XQ***

**Unutsaq, unudularıq**

# Milli şahmatımızın böyük itkisi

**11 il əvvəl – 2014-cü il yanvarın 11-də Almaniya klinikalarının birində əbədiyyətə qovuşmuş görkəmli qrossmeyster Vüqar Həşimovun anım günüdür. Azərbaycanın idman ictimaiyyəti növbəti dəfə onun əziz xatirəsini dərin ehtiramla yad edir.**



Qibtəediləcək istedadı sayəsində bütün şahmat aləminin sevimlisinə çevrilən bu parlaq zəka sahibi həyatı çox tez, cəmi 27 yaşında tərk etsə də, qısa bir müddətdə şahmat taxtası arxasında böyük uğurları, eləcə də, nəcib insani keyfiyyətləri ilə tanınmış, məşhurlaşmış və qəlbləri fəth etmişdi.

Biz hər dəfə Vüqar barədə yazılarımızda onun istedadı, gözəl qələbələri, bir-birindən məşhur qrossmeysterlərin haqqında söylədikləri yüksək fikirlər, bütün şahmat həyatı və nailiyyətləri barədə danışmışıq. Lakin Həşimovun böyük uğurları siyahısında çox möhtəşəm, sözün əsl mənasında, bir qızıl qələbə özünə xüsusi yer etmişdir. Bu qələbəni qələmə aldığımız yazılarda nə qədər xatırlasaq da, qrossmeysterin şah əsəri kimi dəfələrlə yada salınmağa layiqdir.

Bu gün fəxrlə üçqat Avropa çempionu adı daşıyan kişilərdən ibarət milli komandamızın ölkəmizdə zəngin ənənələri olan şahmatın bütün tarixi ərzində bir nailiyyəti xüsusi əhəmiyyət kəsb edir. Bu kollektivin ilk dəfə qitə çempionu adı qazanması idman tariximizdə ən yaddaqalan qələbələrdən biri kimi yaşayır.

Bütün Azərbaycan üçün bu əlamətdar hadisə 2009-cu ilin payızında Serbiyanın Novi Sad şəhərində baş vermişdir. Avropa çempionatında qızıl medalların taleyi sonuncu, doqquzuncu turda həll olunurdu. Qrossmeysterlərimiz özlərinə də, bütün xalqımıza da çempionluq sevinci yaşatmaq üçün finişdə Hollandiya komandasına qalib gəlməli idilər.

Qarşıda həyəcan dolu gərgin matç dururdu. Zəka sahiblərimiz mürəkkəb vəziyyətdə inamla mübarizə aparıb, onlara bəslənilən ümidi tam doğrultdular. Şəhriyar Məmmədyarov, Teymur Rəcəbov və Rauf Məmmədov öz taxtalarında rəqibləri ilə heç-heçəyə razılaşdıqdan və matçda hesab 1,5:1,5 olduqdan sonra həlledici sözü Vüqar Həşimov deməli idi. O da əvvəldən axıradək təmkinlə, dəqiq oynayaraq, ikinci taxtada uzun çəkən ağır mübarizədə Daniel Stelvageni məğlubiyyətlə barışmağa məcbur etdi.

Nəticədə V. Həşimovun inamlı gedişləri matçda Azərbaycan komandasına 2,5:1,5 hesabı ilə qələbə və Avropa çempionu adı qazandırdı. Millimiz yekun cədvəlində Rusiya, Ukrayna, Almaniya, Fransa, Ermənistan, Polşa, Macarıstan və daha neçə-neçə ölkəni qabaqlayıb ilk dəfə qitədə ən yüksək zirvəni fəth etdi.

İndi həmin matçdan xatirə qalan videoda həlledici görüşdən dərhal sonra Vüqarın komanda yoldaşlarının hələ masa arxasından qalxmayan qəhrəmanı qucaqlayıb, təbrik və təşəkkürlərini bildirdikləri anları bir daha görəndə adamın ürəyi dağa dönür.

Bütün ölkəmizin ürəyindən olan tarixi nailiyyət idi və böyük qələbədə baş rolu, təkrar edək, Vüqar Həşimov oynamışdı.

Ruhu şad olsun.

**P.S. Bu yazı çapa hazırlanarkən, yanvarın 8-də acı bir xəbər eşitdik. Vüqar Həşimovun atası Qasım Murtuza oğlu vəfat etmişdir.**

**Allah rəhmət eləsin.**

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 05 (30699) 11 yanvar 2025-ci il, şənbə

## İdman

## “Şahdağ”da Dünya kuboku

**“Şahdağ” Turizm Kompleksində Xizək Alpinizmi üzrə Dünya Kuboku başlayıb.**




Yarışın ilk günündə idmançılar sprint növü üzrə mübarizə aparıblar. Azərbaycanı turnirdə Nəzrin Qəribova və Seyid Sədrəddinov təmsil edirlər.

Dünya Kubokunda Fərdi Neytral İdmançılar (AİN) olmaqla, 26 ölkədən 130-a yaxın idmançı qüvvəsini sınayır. Atletlər yanvarın 11-də vertikal və 13-də isə individual növlər üzrə güclərini yoxlayacaqlar.

Yanvarın 13-dək davam edəcək yarış 2026-cı ildə keçiriləcək Qış Olimpiya Oyunlarına lisenziya qazanmaq üçün kvalifikasiya yarışlarından biri hesab edilir.

## AFFA-nın inkişaf strategiyası

**AFFA-nın inkişaf strategiyasının layihəsi ictimaiyyətə açıqlanıb.**

Bu barədə milli assosiasiyanın rəsmi saytı məlumat yayıb. Qeyd edilib ki, AFFA tərəfindən 2024-cü ilin avqust ayında strategiyanın yazılışına başlanarkən ictimaiyyətə müraciət olunub və rəylər toplanılıb.

Strategiyanın layihəsinə rəy və təklifləri 2025-ci il yanvarın 13-ü saat 12:00-a qədər bildirmək mümkündür. Təqdim olunacaq rəylər nəzərə alındıqdan sonra strategiyanın yekun versiyası ictimaiyyətlə paylaşılacaq.

*LQ URBANOVA*
*XQ*

## Hava

## Yenə də yağmursuz və dumanlı

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, yanvarın 11-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir.**

Lakin səhər bəzi yerlərdə qısamüddətli az çiskin olacağı ehtimalı var. Mülayim cənub-qərb küləyi əsəcək. Gecə 5-8°, gündüz 9-13° isti olacaq. Atmosfer təzyiqi 766 mm civə sütunundan 762 mm civə sütununa enəcək, nisbi rütubət 75-85 faiz olacaq.

Azərbaycanın rayonlarında, əsasən, yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 8-13° isti, dağlarda gecə 2-7° şaxta, gündüz 3-8° isti olacaq.

*QQ ASIMOV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutunun rəhbərliyi və kollektivi "Azərdövlətlayihə" Dövlət Baş Layihə İnstitutunun direktoru Müsədin Namazova anası

**ŞİKARƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

## Tarixi axtarışlar

**Qədim və orta əsr mənbələrində, əfsanə və nağıllarda adı çəkilən, lakin bu günədək yeri və dəqiq koordinatları bəlli olmayan neçə-neçə qalalarımız, yaşayış məntəqələrimiz, o cümlədən Azərbaycanın iqtisadi və mədəni həyatında xüsusi yeri olan şəhərlərimiz olub. Yaxın keçmişimizədək elə qədim Qəbələ, Beyləqan və Mehravan kimi iri şəhərlərimizin də yeri və dəqiq koordinatları elm aləminə bəlli deyildi.**



# Niyazabad hara olub?

## *Yoxa çıxmış şəhərin tarixdə qalmış izləri*

İndiyədək dəqiq yerini bilmədiyimiz neçə-neçə qədim və orta əsr şəhərlərimiz var. Bir çox yazılı qaynaqlarda adları çəkilən Yunan, Paytakaran, Şirvan, Sədun, Quştəsfi, Mahmudabad bu qəbildən olan Azərbaycan şəhərləridir.

Dəqiq yeri bilinməyən belə tarixi ünvanlardan biri də XVI–XIX əsrlərdə ölkənin iqtisadi və mədəni həyatında, xüsusən də Xəzər dənizi vasitəsilə həyata keçirilən beynəlxalq ticarət əlaqələrində xüsusi yeri olan Niyazabaddır. Xəzər dənizi sahilində olduğundan Niyazabad daha çox məhz liman şəhəri kimi tarixə düşüb.




Niyazabad barədə, hələlik, ancaq Avropa səyyahlarının yol qeydlərindən, Rusiyada olan diplomat və hərb xadimlərinin gündəliklərindən, onların rus çarı, Səfəvi hökmdarı və Şamaxı xanlığı rəsmiləri ilə yazışmalarından müəyyən məlumat almaq mümkündür.

Vaxtilə Almaniya və Danimarka ərazilərinin bir hissəsini əhatə edən Holşteyn-Ottorp dövlətinin hökmdarı III Fridrix (1616–1659) Avropada ipək ticarətinə nəzarəti ələ keçirmək məqsədilə Misir və Səfəvi dövlətlərinə elçilər göndərir. Əslən Yuxarı Saksoniyadan olan Adam Oleari isə səfirliyin katibi vəzifəsini icra edirdi. Adam Olearinin yazdığına görə, 1635-ci ilin noyabrında səfirlik əməkdaşlarını gətirən gəmi Dərbənd yaxınlığında fırtınaya düşür. Fırtınadan qurtulduqdan sonra onları Niyazabada gətirirlər. Onları qarşılamaq məqsədilə Şamaxıdan göndərilən tərcüməçi və mehmandarlar gələnədək avropalı elçilər 5 həftə ərzində Niyazabadda qalmalı olublar.

Olearinin yazdığına görə, o vaxt Niyazabad 16–17 evdən ibarət bir yaşayış məntəqəsi olub. Müskür mahalına aid olan bu evlərin damları düzdür və orada ot bitir. Sakinlər bu evlərin üstündə yemək yeyir və hətta orada yatırlar da. Müskür kəndlərində əhali daha çox camışçılıq təsərrüfatına üstünlük verir, pendiri inək südündən deyil, qoyun südündən tutur və daha çox əkinçiliklə məşğul olurdular.

Beş həftə sonra səfirlik əməkdaşları Şamaxı Xanı mehmandarlarının bələdçiliyi ilə Olearinin “cənnətməkan” adlandırıdığı Niyazabadı tərk edərək Altıağac istiqamətində yola çıxırlar...

XVII əsrdə Azərbaycanda səyahətdə olmuş türk səyyahı Övliyə Çələbi yazır ki, Niyazabad Dağıstanla Şirvan arasındadır. Qədim zamanların yadigarı olan bu şəhərin binaları hələ də bir vaxtların ehtişamından xəbər verir. Moğollar, sonra da dağıstanlı qumuq, qaytaq və s. tayfalar buraya dəfələrlə hücum etmişdilər. Övliyə Çələbinin yazdığına görə, “Sultan III Muradın böyük komandanı Qara Fərhad paşa bu şəhərdə qışlamış və Niyazabad qalasını təmir etdirmişdi... Şəhərdə qırx məhəllə, qırx minarə, cümə camesi, karvansara, hamam və bazar var”.

Övliyə Çələbinin qeydlərində Niyazabadın hətta ayrıca sultanlıq olduğu, min nəfərə qədər əsgəri və iki hakimi olduğu bildirilir. Şəhərin kələntərinin türk səyyaha bildirildiyinə görə, orada 6000 bağ-bağçalı evi olub.

XVIII əsrin əvvəllərində Qafqazı tədqiq edən rus alimlərindən alman əsilli İ.Q.Qerber həm də Rusiyanın tanınmış hərb xadimlərindən olub. İxtisasca artilerist olsa da, o coğrafiya və etnoqrafiya elmlərinə də böyük maraq göstərib.

O yazırdı ki, Niyazabad limanında daha çox məhz Rusiyaya məxsus gəmilər yer alırdı. Avropa və Şərqdən olan tacirlər orada qızğın alver edirdilər. Həmin ticarət əməliyyatlarından Şamaxı xanına böyük məbləğdə rüsum daxil olurdu.

Niyazabad limanında əcnəbi tacirlərin xidmətində olan xeyli sayda karvansaralar var idi. Avropalı səyyahların qeydlərindən o da məlum olur ki, Şirvanda, o cümlədən Müskür mahalında üsyan və ixtişaşlar baş verərkən dəfələrlə həmin karvansaralar dağıdılıb. Lakin 1726-cı ildə Niyazabad limanını Rusiya tabeliyinə keçəndən sonra orada yenidən fəal gəmiçilik üçün müvafiq tədbirlər görülüb.

XVII əsrin əvvəllərində Azərbaycanda olan rus taciri Fedot Kotov öz qeydlərində Şamaxıya Bakıdan deyil, Niyazabaddan getmək üçün araba yolu olmadığını bildirir. O yazır ki, yüksək dağlıq ərazilərdən keçən bu yolla yükləri at, dəvə, öküz və ulaqların belində daşıyırdılar. Bu yolun üzərində rusların, “qonaq evi” adlandırdığı üç karvansara mövcud idi. Kotov onu da yazır ki, Niyazabaddan Şamaxıya Bərmək mahalından keçən Altıağac yolu ilə də getmək mümkündür. “Altıağac” isə burada həm də uzunluq ölçüsü mənasını ifadə edir. Bir ağacın 7 kilometr olduğunu və oradan Şamaxıya 6 ağac olduğunu nəzərə alsaq, onda deməli Altıağacdan Şamaxıya olan məsafə 42 kilometrdir. Rus şərqşünas alimi İ.N.Berezin də Niyazabaddan Şamaxıya gedən yolun üzərində 2 karvansara olduğunu yazır. Onlardan biri Gilgilçayın sağ sahilində, digəri isə Altıağac ətrafında olub. Niyazabaddan Şamaxıya gedən yolun üstündə karvansaralardan əlavə, bir neçə yerdə körpü və qalaların da olduğu barədə məlumatlar var.

Niyazabadla bağlı nisbətən daha ətraflı məlumatlara isə rus çarı I Pyotr 30 may 1715-ci ildə Səfəvi dövlətinə səfir göndərmiş olduğu A.P.Volınskinin yazışmalarında rast gəlirik. Səfirə verilən məxfi Əsasnamənin 7-ci bəndinə əsasən, o, Azərbaycanda istehsal olunan xam ipəyin Gilan və Şirvandan keçirilərək Rusiyanın Peterburq limanına çatdırılması ilə bağlı məsələləri tənzimləməli idi. O, Səfəvi şahını inandırmalı idi ki, bu baxımdan xivəlilər kimi onlar üçün də iri gəmilərin yan ola biləcəyi Niyazabad limanının imkanlarından istifadə olunması daha sərfəli ola bilər. A.P.Volınskinin 72 nəfərdən ibarət komandası 29 avqust 1716-cı il tarixdə Niyazabad limanına yan alır. Volınski Şirvan bəylərbəyinin yanına elçi göndərərək gəldiyini bildirir və xahiş edir ki, onların əşyalarını Niyazabaddan Şamaxıya aparmaq üçün at və dəvələr göndərsin. Ertəsi gün Şirvan canişinin tapşırığı ilə iki zabit-yüzbaşının rəhbərlik etdiyi 30 nəfərlik heyət onları qarşılayaraq əşyaları Niyazabad limanındakı xüsusi çadırlarda və binalarda yerləşdirib.

Volınskinin heyəti sentyabrın 18-dək Niyazabad və ona bitişik yaşayış məntəqəsində qalaraq dincəlib. Bu müddət ərzində onlar Həştərxan və Şamaxı ilə intensiv təmaslar quraraq gələcək fəaliyyət planlarının detallarını hazırlamaqda idilər.

Bu barədə Volınskinin gündəliyində təfsilatı ilə bəhs olunur.

Xatırladaq ki, Avropa və rus müəlliflərinin Niyazabadla bağlı qeyd və yazışmaları ilk dəfə görkəmli Azərbaycan tarixçiləri – professor Fuad Əliyev və Tofiq Mustafazadə tərəfindən öyrənilərək milli tarixşünaslığımıza daxil edilib. Görkəmli tarixçi alim, professor Vaqif Piriyevin “Azərbaycanın Tarixi-Siyasi Coğrafiyası” əsərində deyilir: “Niyazabad Xaçmaz şəhərindən 14 kilometr şərqdə, Xəzər dənizinin qərb sahillərindəki ən mühüm limanlardan biri olaraq ölkəmizin dəniz ticarətində çox mühüm rolu olub”. Tarixçi-alim S.U.Dadaşova isə Niyazabad–Altıağac–Şamaxı karvan yolunun öyrənilməsinə dair xüsusi məqalə işləyib. Lakin bütün bunlarla yanaşı, onu da etiraf etməliyik ki, Azərbaycanın Orta əsrlər dövrünün çox mühüm liman şəhərləri olan Niyazabadın tarixi hələ ki, yetərincə araşdırılmayıb.

Niyazabadın tarixi ilə bağlı elmimiz üçün qaranlıq olan məsələlərdən birincisi bu şəhərin yerinin və dəqiq coğrafi koordinatlarının müəyyənləşdirilməsidir. Hesab edirik ki, yazılı qaynaqlardan bəlli olan bəzi oriyentirlər və ərazidə mövcud olan tarixi-coğrafi toponimlər bu vəzifənin icrası yolunda tədqiqatçılara ipucu ola bilər. Əlimizdə olan həmin ilkin məlumatlarda Niyazabadın Müskür mahalında, Altıağac istiqamətində – Xəzər dənizi sahilində olduğu bildirilir. Xaçmaz rayonunun inzibati ərazisinə daxil olan Nizoba kəndi də məhz oradadır. Deməli, Niyazabad şəhərinin qalıqlarını da elə indiki Nizoba kəndi və ona yaxın coğrafiyada axtarmaq lazımdır. Bunun üçünsə həmin ərazilərdə mütləqdir ki, ilkin addım olaraq kəşfiyyat xarakterli arxeoloji axtarışlara başlanılsın.

Etiraf edək ki, indiyədək bu istiqamətdə Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən heç bir əməli addım atılmayıb. Doğrudur, bir müddət öncə mən öz şəxsi təşəbbüsümlə Niyazabadın olduğu güman edilən əraziləri gəzərək orada müşahidələr apardım, xeyli miqdar yerüstü maddi mədəniyyət nümunələri və etnoqrafik məlumat topladım və bütün bunların əsasında ərazidə arxeoloji kəşfiyyat işləri aparmaqla bağlı məsələ qaldırdım. Təəssüf ki, reaksiya müsbət olmadı. Onu da xatırladım ki, uzun illərdir ki, Niyazoba kəndi və ətraf ərazidə sakinlər tərəfindən tikinti və təsərrüfat işləri görülərkən müxtəlif çeşidli çoxsaylı maddi mədəniyyət qalıqları üzə çıxıb. Təəssüflər olsun ki, həmin tapıntılardan yalnız bəzi nümunələr Xaçmaz rayon tarix- diyarşünaslıq muzeyinə təhvil verilib. Əksər tapıntılar isə diqqətsizlik və nəzarətsizlik ucbatından ya dağıdılaraq məhv edilib, yaxud da əldən-ələ keçərək itbat olub.

Yeri gəlmişkən, bu gün Xazmaz Rayon Tarixdiyarşünaslıq Muzeyinin fonunda olan numizmatik tapıntıların əhəmiyyətli bir hissəsi rayonun Əbilyatağı kənd sakini, həvəskar kolleksiyaçı Cəmil Ələnurov tərəfindən oraya təhvil verilib. Xatırladaq ki, Əbilyatağı kəndi də Niyazabad liman şəhərin olduğu ehtimal edilən ərazidə yerləşir. İndiki halda Cəmilin şəxsi kolleksiyasında 100-dən çox müxtəlif əyarlı sikkələr, çəki daşları, bizlər, çeşidli formada olan düymələr, digər sənət və məişət əşyaları var. Niyazabad sikkələrinin də ən böyük qismi Rusiya pullarıdır.

Kolleksioner C.Ələnurovla söhbət zamanı o bildirdi ki, ərazidə sikkə nümunələrinə, adətən, küləkli vaxtlarda, yaxud da qum tədarükü məqsədilə qazıntı aparılarkən daha tez-tez rast gəlinir. Ərazidə sakinlər tərəfindən arx, kanal və ya bünövrə yerləri qazılarkən isə mədən daşı və ya bişmiş kərpiclə inşa edilmiş tikinti qalıqlarına rast gəlinir. Niyazabadın içərisindən keçərək Xəzərə axan Qudyalçayın əmələ gətirdiyi yarğanlarda da zaman-zaman bu cür qalıqların üzə çıxdığı bildirilir. Bu isə o deməkdir ki, təqribən, iki əsrdən çox mövcud olmuş Niyazabad liman şəhəri təbii təsirlər nəticəsində, azı, 1–1,5 metr qalınlığında olan qum örtüyü altında qalıb. Hansı ki, ərazidə arxeoloji axtarışlar aparmaqla Azərbaycanın XVI–XVIII əsrlər tarixində mühüm yeri olmuş liman şəhərimizin üzə çıxarılması və onun dəqiq kordinatlarının müəyyənləşdirilməsi mümkündür.

Fikrimizcə, Niyazabadın tarixi ilə bağlı araşdırılması vacib olan məsələlərdən biri də bu toponimin etimologiyası ilə bağlıdır. Yazılı qaynaqlarda bu liman-şəhərin adı “Nizova”, “Nizoba”, “Nizovoya”, “Nişabat” və “Niyazabad” kimi çəkilir. Bunların hansı ilk, hansı sonradan yaranıb? Məlumat üçün bildirək ki, indiki halda Xaçmaz rayonundakı 147 yaşayış məntəqəsindən 46-nın adı “oba” sonluğu ilə bitir.

Hesab edirik ki, ilkin dönəmdə Niyazabad da həmin obalardan biri olub. Etnoqrafik müşahidə və təhlillər göstərir ki, Xəzər sahili obaların sakinləri əsasən Müskür və Bərmək mahallarının dağlıq ərazilərindən köçüb gələn insanlar olub. Onları bu ərazilərə cəlb edən isə geniş əkin və otlaq sahələrinin olması, əlverişli suvarma imkanları və nəhayət, dənizin balıq ehtiyatları olub. Kim harada ilkin olaraq oba qurub, məskən salıbsa həmin yer sonradan elə onun obası kimi tanınıb. Fikrimizcə, Niyazobanın da ilk sakini məhz Niyaz adlı şəxs olub. Zaman keçdikcə Niyazoba adının ilkin forması müəyyən dəyişikliklərə məruz qalıb. Ruslar buraya “Nizova”, yəni Dərbəndlə müqayisədə aşağı məntəqə adı veriblər.

Dəqiq məlum olan isə odur ki, Adam Olearinin Tardu Universitetinin kitabxanasında saxlanılan 1635-ci ilə aid qeydlərində beş yerdə Niyazabadın adı “Niaşabatb” formasında işlədilib. Bildiyiniz kimi, fransız dilində “iy” hərf birləşməsi “y” səsi yaradır, sözün sonluğunda da “tb” hərf birləşməsi isə oxunmur. Beləliklə, Olearinin mətnində liman - şəhərin adı “Niyafaba” kimi səslənir. Buradan da belə nəticəyə gələ bilərik ki, bu toponimin rus mənbələrində “Nizova” kimi işlədildiyi vaxtdan, təqribən, bir əsr öncə onun adında (“aba”, “oba”) sonluğu var imiş. Görünür, ondan daha öncə bu liman ətrafdakı digər yaşayış məntəqələri kimi, orada ilkin olaraq məskən salmış Niyaz adlı şəxsin adı ilə “Niyazoba” adlanırmış. Beləliklə, Xəzərin sahilində – Xaçmaz rayonunun Niyazabad kəndi və onun ətrafında lokalizə etdiyimiz orta əsr liman şəhərimizin adı zaman-zaman dəyişərək “Niyazoba”, “Nizova”, “Nizoba” və nəhayət, “Niyazabad” formasınada zəmanəmizə gəlib çıxmışdır.

Sonda belə bir qənaətə gələ bilərik ki, Azərbaycan XVI–XVIII əsrlər tarixinin yadigarı olan, ölkəmizin dünyanın ayrı-ayrı ölkələri və şəhərləri ilə dəniz ticarəti əlaqələrinin reallaşdırılmasında xüsusi yeri olan liman şəhərimiz Niyazabadın hələ də torpaq və dəniz suları altında uyumaqda olan tarixinin araşdırılması, öyrənilməsi, yazılaraq elmi ictimaiyyətə təqdim olunması istiqamətində, gec də olsa, əməli addımlar atılması gərəkdir.

*Qafar CƏBİYEV,*
*AMEA Arxeologiya və Antropologiya İnstitutunun şöbə müdiri,*
*tarix elmləri doktoru, professor*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2684
SİFARİŞ 11
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00